ATATÜRK ARAŞTIRMA MERKEZİ BAŞKANLIĞI

# BAĞIMSIZLIĞININ 30. YILINDA AZERBAYCAN-TÜRKİYE İLİŞKİLERİ

## ULUSLARARASI SEMPOZYUMU



## BİLDİRİ METİNLERİ

# BAĞIMSIZLIĞININ 30. YILINDA AZERBAYCAN - TÜRKİYE İLİŞKİLERİ ULUSLARARASI SEMPOZYUMU

## BİLDİRİ METİNLERİ

ATATÜRK ARAŞTIRMA MERKEZİ
Ankara ♦ 2025

ATATÜRK KÜLTÜR, DİL VE TARİH YÜKSEK KURUMU
**ATATÜRK ARAŞTIRMA MERKEZİ YAYINLARI 606**

# BAĞIMSIZLIĞININ 30. YILINDA AZERBAYCAN - TÜRKİYE İLİŞKİLERİ ULUSLARARASI SEMPOZYUMU

**(15-18 EYLÜL 2021)**

**İnceleyiciler**
Ramazan Erhan GÜLLÜ
Selma YEL

**Yayına Hazırlayan**
Aslı AKDOĞANBULUT İNSAN

Çevrim içi, Ankara, 2025
ISBN: 978-975-17-6141-5

**Kapak ve Sayfa Tasarımı**
Erdal Basım Yayın Dağıtım
+90 (312) 398 05 30 Ankara / Türkiye

Atatürk Araştırma Merkezi
Genel Ağ: atam.gov.tr
E-Mağaza: emagaza-atam.ayk.gov.tr

5846 sayılı Fikir ve Sanat Eserleri Kanunu'na göre bu eserin bütün yayın, tercüme ve iktibas hakları Atatürk Araştırma Merkezi'ne aittir.

# İÇİNDEKİLER

**İÇİNDEKİLER** ........ III

**SEMPOZYUM KURULLARI** ........ VII

**TAKDİM** ........ IX

**I. OTURUM**
Oturum Başkanları: Prof. Dr. Selma YEL
Prof. Dr. Nərgiz AXUNDOVA

**Azerbaycan'ın Devlet Bağımsızlığının 30. Yıl Dönümü (1991-2021): Tarihsel Bakış** ........ 3
*Azərbaycanın dövlət müstəqilliyinin 30 illiyi (1991-2021): tarixi baxış*
Prof. Dr. Kerim ŞÜKÜROV (AMİA Tarih Enstitüsü)

**Birinci Karabağ Savaşı Sürecinde Türkiye Kamuoyunun "Karabağ Sorunu"na Yaklaşımı** ........ 19
*Türkiyənin ictimai rəyində Xocalı qətliamı və sonrasında Qarabağ problemi*
Prof. Dr. Ramazan Erhan GÜLLÜ (Atatürk Araştırma Merkezi Bilim Kurulu Üyesi, İstanbul Üniversitesi, Edebiyat Fakültesi)

**Karabağ Zaferine Giden Süreçte Türkiye-Azerbaycan Stratejik Münasebetleri** ........ 45
*Qarabağ Zəfərinə doğru gedən prosesdə Türkiyə-Azərbaycan strateji əlaqələri*
Prof. Dr. Mustafa Sıtkı BİLGİN (Atatürk Araştırma Merkezi Bilim Kurulu Üyesi, Ankara Yıldırım Beyazıt Üniversitesi, Siyasal Bilgiler Fakütesi)

**Cenevre Sözleşmeleri Işığında Karabağ Savaşı'nın Tahlili** ........ 63
*Cenevrə Konvensiyaları işığında Qarabağ müharibəsinin təhlili*
Prof. Dr. Alaeddin YALÇINKAYA (Marmara Üniversitesi, Siyasal Bilgiler Fakütesi)

**Dünya Medyasında II. Karabağ-Vatan Savaşı** ........ 77
*II Qarabağ -Vətən müharibəsi dünya kütləvi informasiya vasitələrində*
Prof. Dr. Mais İsrail oğlu ƏMRAHOV (AMİA Tarih Enstitüsü)

**Türk-Azerbaycan Askerî-Stratejik İşbirliği Zirvesi: Şuşa Deklarasyonu** ........ 101
*Türkiyə-Azərbaycan hərbi-strateji əməkdaşlığının zirvəsi: Şuşa bəyannaməsi*
Prof. Dr. Tofig MUSTAFAZADE (AMİA Tarih Enstitüsü)

**Karabağ ve Zangezur Koridoru'nun Jeopolitiği** ........ 117
*Qarabağ və Zəngəzur dəhlizinın geosiyasəti*
Prof. Dr. Mehmet Akif OKUR (Yıldız Teknik Üniversitesi, Uluslararası İlişkiler Bölümü)

**Kafkasya'da Megri Koridorunun Önemi ve Toprak Takası Formulü** ........ 131
*Mehri dəhlizinin Qafqazda əhəmiyyəti və torpaq mübadilə formulu*
Prof. Dr. Salih YILMAZ (Ankara Yıldırım Beyazıt Üniversitesi, İnsan ve Toplum Bilimleri Fakültesi)

**II. OTURUM**
Oturum Başkanları: Prof. Dr. Mustafa Sıtkı BİLGİN
Prof. Dr. Ədalət QASIMOV

**Azerbaycan-Türkiye Stratejik İttifakı: Tarihi Gelenekler ve Modernite** ........ 153
*Azərbaycan-Türkiyə strateji müttəfiqliyi: tarixi ənənələr və müasirlik*
Doç.Dr. Natig MEMMEDZADE (AMİA Tarih Enstitüsü)

**Türk Dünyası'nın Küresel Gelişimi Açısından, Türkiye-Azerbaycan Ortaklığının Stratejik Önemi** ........ 167
*Türk Dünyasının qlobal inkişafı üçün Türkiyə-Azərbaycan ortaqlığının strateji əhəmiyyəti*
Prof. Dr. Betül KARAGÖZ YERDELEN (Giresun Üniversitesi, İktisadi ve İdari Bilimler Fakültesi)

**Kafkasya'da Stratejik Dengeleri Değiştiren Bir Unsur Olarak Türkiye-Azerbaycan İlişkileri** ........ 191
*Türkiyə-Azərbaycan əlaqələri Qafqazda strateji parametrləri dəyişən faktor kimi*
Prof. Dr. Kamer KASIM (Bolu Abant İzzet Baysal Üniversitesi, İktisadi ve İdari Bilimler Fakültesi)

**Azerbaycan'ın Dinî Jeopolitiği Bağlamında İran'ın Teo-Stratejik Araçları** ........ 209
*Azərbaycanın dini geosiyasəti kontekstində İranın teo-strateji alətləri*
Prof. Dr. Özcan GÜNGÖR (Ankara Hacı Bayram Veli Üniversitesi, Edebiyat Fakültesi)

**Azerbaycan-Türkiye İlişkilerinin Oluşumunda ve Gelişmesinde Önemli Jeopolitik Faktör Olarak Nahçıvan** ........ 245
*Azərbaycan-Türkiyə münasibətlərinin formalaşması və inkişafında Naxçıvan mühüm geosiyasi amil kimi*
Prof. Dr. Adalet GASIMOV (AMİA Tarih Enstitüsü)

**Türkiye – Azerbaycan - Türkmenistan Üçlü İş Birliğinin Enerji Boyutu** ........ 259
*Türkiyə - Azərbaycan - Türkmənistan üçtərəfli işbirliyinin enerji ölçüsü*
Prof. Dr. Ülviyye SANILI AYDIN (Dokuz Eylül Ünviersitesi, İşletme Fakültesi)

**III. OTURUM**
Oturum Başkanları: Prof. Dr. Alaaddin YALÇINKAYA
Prof. Dr. Tofiq NƏCƏFLİ

**Dünya Uygarlığında Türk Faktörü** ........ 277
*Dünya sivilizasiyasında türk amili*
Nergiz AHUNDOVA (AMİA Tarih Enstitüsü)

**XVI. Yüzyılın Başlarında Şah İsmail Safevi ile Sultan Selim Osmanlı Arasındaki İlişkilerin Tırmanmasında Mezhebin Rolü (Tarihî Mektuplara Dayanarak)** ........ 287
*XVI əsrin əvvəllərində şah İsmayıl Səfəvi və Sultan Səlim Osmanlı arasında münasibətlərin kəskinləşməsində məzhəbin rolu (tarixi məktublar əsasında)*
Prof. Dr. Şahin F. FƏRZƏLİYEV (AMİA Tarih Enstitüsü)

**Şah I Abbas Döneminde Safevi-Osmanlı İlişkileri** ........ 297
*Şah I Abbas dövründə Səfəvi-Osmanlı münasibətləri*
Prof. Dr. Tofig NECEFLİ (AMİA Tarih Enstitüsü)

**Azerbaycan Hanlıkları - Osmanlı İlişkileri: Tarih, Sonuçlar, Yeni Bakış Açısı** ........ 319
*Azərbaycan xanlıqları - Osmanlı münasibətləri: tarixi, nəticələri, yeni baxış*
Doç. Dr. Güntekin NECEFLİ (AMİA Tarih Enstitüsü)

**1805'ten 1822'ye Kadar Karabağ Hanlığı: Yalanlar ve Gerçekler** ........ 329
*Qarabağ xanlığı 1805-ci ildən 1822-ci ilədək: yalanlar və həqiqətlər*
Doç.Dr. Hacı Nuru oğlu HASANOV (AMİA Tarih Enstitüsü)

**Birinci Dünya Savaşı'nın 107. Yılında Enver Paşa ve Kafkas İslam Konfederasyonu Planı** ........ 349
*Birinci dünya müharibəsinin 107-ci ildönümündə Ənvər Paşa və Qafqaz İslam Konfederasiyası planı*
Prof. Dr. Selma YEL (Gazi Üniversitesi, Eğitim Fakültesi)
Doç. Dr. İrade MEMMEDOVA (AMİA Tarih Enstitüsü)

**Almanya'nın Kafkas İslam Ordusu'na Karşı Planlarında "Kafkas Alman Nüfusu" Faktörünü Kullanması (1918)** ........ 383
*Almaniyanın Qafqaz İslam Ordusuna qarşı planlarında "Qafqaz alman əhalisi" amilindən istifadə etməsi (1918)*
Prof. Dr. İkram AGASİYEV (AMİA Tarih Enstitüsü)

**1921 Sovyet-Türk Anlaşması: Tarihsel Gerçeklik ve Ermeni Sahtekârlıkları** ........ 407
*1921-ci il sovet-türk müqaviləsi: tarixi gerçəklik və erməni saxtakarlıqları*
Doç. Dr. Niftəliyev İlqar Vahid oğlu (AMİA Tarih Enstitüsü)

# SEMPOZYUM KURULLARI

**Bilim Kurulu**

Prof. Dr. Zehra ASLAN (Recep Tayyip Erdoğan Üniversitesi)
Prof. Dr. Mehmet TEMEL (Muğla Sıtkı Kocaman Üniversitesi)
Prof. Dr. Mehmet HACISALİHOĞLU (Münih Ludwig Maximilian Üniversitesi)
Prof. Dr. Mustafa Sıtkı BİLGİN (Ankara Yıldırım Beyazıt Üniversitesi)
Prof. Dr. İbrahim Ethem ATNUR (Millî Savunma Üniversitesi Kara Harp Okulu Dekanı)
Prof. Dr. Halil BAL (İstanbul Üniversitesi)
Prof. Dr. Mithat ÇELİKPALA (Kadir Has Üniversitesi)
Prof. Dr. Çağrı ERHAN (Altınbaş Üniversitesi Rektörü)
Prof. Dr. Kamer KASIM (Bolu Abant İzzet Baysal Üniversitesi)
Prof. Dr. Selma YEL (Gazi Üniversitesi)
Prof. Dr. Saime YÜCEER (Bursa Uludağ Üniversitesi)
Prof. Dr. Elçin MACAR (Yıldız Teknik Üniversitesi)
Prof. Dr. Mehmet DİKKAYA (Kırıkkale Üniversitesi)
Doç. Dr. Samir MARDANOV
Doç. Dr. Reha YILMAZ (Çankırı Karatekin Üniversitesi)
Doç. Dr. Güner ÖZKAN (Erciyes Üniversitesi)
Doç. Dr. Hatice GÜZEL MUMYAKMAZ (Bozok Üniversitesi)
Doç. Dr. Hasan CİCİOĞLU (Netkent Akdeniz Araştırma ve Bilim Üniversitesi)
Prof. Dr. Nurten ÇETİN (Trakya Üniversitesi)
Dr. Cavit VELİYEV
Dr. İhsan ÇOLAK

**Düzenleme Kurulu**

E. Prof. Dr. Adnan SOFUOĞLU
Prof. Dr. Kerim ŞÜKÜROV (AMEA Tarih Enstitüsü Direktörü)
Gamze BERKTİN
Prof. Dr. İrade MEMEDOVA (AMEA Tarih Enstitüsü )
Prof. Dr. Mehmet HACISALİHOĞLU (Münih Ludwig Maximilian Üniversitesi)
Prof. Dr. Mustafa Sıtkı BİLGİN (Ankara Yıldırım Beyazıt Üniversitesi)
Prof. Dr. Selma YEL (Gazi Üniversitesi)
Hüseyin TOSUN (Atatürk Araştırma Merkezi)

# TAKDİM

Atatürk Araştırma Merkezi Başkanlığı (ATAM), T.C. Anayasası'nın 134. maddesi uyarınca 1983 yılında Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu bünyesinde kanun ile kurulmuştur. Kuruluşundan itibaren, gerek yurt içi ve yurt dışındaki paydaşlarıyla iş birliği içinde gerekse tek başına çeşitli bilimsel çalışmalar yürütmektedir. Bu çalışmalar arasında, başta Türkçe olmak üzere farklı dillerde yayımlanan monografik eserler, dijital ansiklopediler, birçok indekste taranan ATAM Dergisi, ulusal ve uluslararası sempozyumlar, kongreler, paneller, konferanslar, bilimsel projeler ve burs imkânları yer almaktadır. ATAM, Mustafa Kemal Atatürk, Millî Mücadele ve Türkiye Cumhuriyeti tarihine ilişkin konularda, alanında yetkin akademisyenler ve araştırmacılar ile iş birliği yaparak bilimsel çıktı üretimini desteklemektedir. Bu doğrultuda sürdürdüğü faaliyetlerle, geçmişi geleceğe bağlayan akademik bir köprü olma görevini de yerine getirmektedir. Bilgiye ulaşımı kolaylaştırmak ve herkes için erişilebilir kılmak için çalışan Atatürk Araştırma Merkezi, imza attığı çok önemli projeler olan Atatürk Ansiklopedisi ve Türk Dünyası Ansiklopedilerinin mobil uygulamalarını hayata geçirmiştir.

Atatürk Araştırma Merkezi, son yıllarda önemi daha da artan Türk Dünyası ile ülkemiz arasındaki bağa kendi misyonu doğrultusunda rasyonel ve ilmi bakış açısı ile katkılar sağlamaktadır. Ülkemizde kurumsal olarak yapılan akademik iş birlikleri ve yayınlar ile Azerbaycan-Türkiye ilişkileri incelenmektedir. Bu bağlamda Atatürk Araştırma Merkezi de Azerbaycan ile ilgili paydaşları ile birlikte önemli ilmi çıktılar üretmiştir. "I. Dünya Savaşı Dönemi'nde Osmanlı Devleti-Azerbaycan İlişkileri ve Kafkas İslam Ordusu Uluslararası Sempozyumu", "20. Yüzyılda Türk Müslüman Halklarına Karşı Soykırımlar Uluslararası Konferansı" ve "İstiklal Marşı'nın Kabulünün 100. Yılı: Türk Kültür Coğrafyasında İstiklal Mücadeleleri Paneli" gibi çeşitli uluslararası etkinlikler bu çıktılardan birkaç tanesidir.. Bunun yanında Başkanlığımız, "Azerbaycan, Ermenistan ve Türkiye: Gerçek Tarih Arayışı (1920-1994)", "XX. Yüzyılda Ermenistan-Azerbaycan, Dağlık Karabağ Sorunu" ve "Azerbaycan'ın Psiko-Sosyal Yakın Tarihi: Hınç, Milliyetçilik, Modernite" gibi konularda yayınlar yapmaktadır.

ATAM tarafından, kurulduğu günden bu yana Türkiye ile dostane ilişkiler içinde olan, "Tek Millet, İki Devlet" ilkesi ile hareket eden Azerbaycan'ın, tarihsel süreçte karşılaştığı tehditler ve bunlara karşı verdiği mücadele ile yardımlaşma ve iş birliği temelinde devam eden karşılıklı ilişkileri ortaya koymak üzere

Azerbaycan Millî İlimler Akademisi ile birlikte 15-18 Eylül 2021 tarihlerinde Ağdam/Azerbaycan'da "Bağımsızlığının 30. Yılında Azerbaycan-Türkiye İlişkileri" başlıklı uluslararası bir sempozyum düzenlenmiştir.

Bu eser, söz konusu sempozyumda, çoğunluğu Türkçe olmakla birlikte Azerbaycan Türkçesinde de sunulmuş olan 22 bildiriyi bir araya getirmekte olup Azerbaycan'ı bağımsızlığa götüren süreci ve bağımsızlıktan günümüze kadar Azerbaycan tarihinin sosyal, kültürel, dinî ve ekonomik yönlerini bütüncül bir bakış açısıyla okurlarımıza sunmayı amaçlamaktadır. Eserin e-yayın olarak kamuoyunun istifadesine sunulması, sempozyumdaki bilimsel verilerin daha geniş kitlelere ulaşmasına katkı sağlayacaktır.

Atatürk Araştırma Merkezi Başkanlığı olarak, bu yayının Azerbaycan-Türkiye ilişkilerine dair yeni akademik çalışmaları teşvik etmesini ve kamuoyunun farklı bakış açıları kazanmasına vesile olmasını temenni ederiz. Sempozyuma katılan ve bildirileriyle katkı sunan değerli akademisyenlere, kitabın inceleyicilerine, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Başkanı BE Prof. Dr. Derya Örs'e, kitabı yayına hazırlayan Yüksek Kurum Uzmanı Aslı Akdoğanbulut İnsan'a ve ATAM idari personeline teşekkür eder bu eserin tarihe, uluslararası ilişkilere ilgili duyanlar ile akademik çevreler için yararlı bir kaynak olmasını dilerim.

**Doç. Dr. Ahmet KILINÇ**
Atatürk Araştırma Merkezi Başkanı

# I. OTURUM

# AZERBAYCAN'IN DEVLET BAĞIMSIZLIĞININ 30. YIL DÖNÜMÜ (1991-2021): TARİHSEL BAKIŞ

KERİM ŞÜKÜROV*

## ÖZET

Nisan 1920'de Azerbaycan Cumhuriyeti'nin çöküşü sonucunda devlet bağımsızlığı kaybedilmiştir. Bağımsızlık, yalnızca 18 Ekim 1991'de yeniden tesis edilmiştir. Aynı gün, Azerbaycan'ın devlet bağımsızlığının yeniden tesisine ilişkin Anayasa Yasası kabul edilmiştir. Bu tarihten itibaren Azerbaycan Cumhuriyeti'nin otuz yıllık gelişim tarihini göz önünde bulundurmak, ana aşamalarını ve bu aşamaların özünü belirlemek açısından önemlidir. Bu bağlamda, Azerbaycan'ın devlet bağımsızlığını kazanmasından sonraki otuz yıllık tarihinin önemli yönleri incelenecek ve gelecekteki gelişmelere ilişkin sonuçlar çıkarılacaktır. Çalışmada, hedefe ulaşmak için genetik, tarihsel karşılaştırmalar ve diğer yöntemler kullanılacaktır. Azerbaycan devletinin bağımsızlığının otuz yıllık sürecine dair tarihsel bir görünüm, bu dönemin temel özelliklerini belirlememize ve Azerbaycan devlet tarihindeki yerini anlamamıza olanak sağlayacaktır.

**Anahtar Kelimeler**: Azerbaycan Cumhuriyeti, Devletin Bağımsızlığı, Petrol Stratejisi, Karabağ Savaşı, Büyük Zafer

* Prof. Dr., AMİA Tarih ve Etnoloji Enstitüsü, shukurovkk@gmail.com.

# 30TH ANNIVERSARY OF THE STATE INDEPENDENCE OF AZERBAIJAN (1991-2021): HISTORICAL REVIEW


## ABSTRACT

As a result of the fall of the Azerbaijan Republic in April 1920, we lost our state independence. The state independence was restored only on October 18, 1991. On that day, was adopted the Constitutional Act on the restoration of state independence of Azerbaijan. It should be considered the history of development of the Republic of Azerbaijan during the 30 years that have passed since then, determined its basic stages and the core points of these stages. Taking into account this, important aspects of the 30-year history of Azerbaijan after gaining state independence will be investigated. It will also allow us to draw conclusions for future development. Genetic, historical comparisons and other methods will be used to achieve the goal of the research. Historical review of the 30-year history of state independence of Azerbaijan will contribute to us to identify the main features of this period and to reveal its place in the history of statehood of Azerbaijan.


**Keywords**: State Independence, Oil Strategy, Karabakh War, Great Victory.

## Giriş

Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə və onun bərpası müasir dövr tarixində yeni bir mərhələ açmaqla yanaşı, ümumən ölkə tarixinin ən mühüm mərhələlərindən biridir. Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) devrilməsindən sonra başlamışdır. Xalqın müxtəlif təbəqələri arasında müstəqillik ideyası bu və ya digər şəkildə (ədəbi prosesdə, təşkilatlanmada və s.) davam edirdi. Bununla eyni zamanda, sovet siyasi sistemi tərəfindən həyata keçirilən müxtəlif tədbirlər (ideoloji təbliğat, repressiyalar və s.) ilə bu prosesin qarşısının alınması daim diqqət mərkəzində idi. Ona görə də, Azərbaycanın dövlət müstəqilliyinin bərpası üçün xüsusi üsullar tətbiq edilməsi, onun sistemli və konseptual şəkildə hazırlanması və həyata keçirilməsi zəruri idi.

## Müstəqilliyə aparan yol

Azərbaycanın sovet liderlərindən yalnız Ulu Öndər Heydər Əliyev ilk dəfə dövlət müstəqilliyinin bərpası kimi ümummilli məsələ üzrə nəzəri-praktik baxışlar sistemi formalaşdırdı və onu ardıcıl və məqsədyönlü şəkildə həyata keçirməyə başladı. Təsadüfi deyil ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizədə Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrü (1969-1982) önəmli yer tutur. Heydər Əliyevin sovet siyasi sistemi daxilində həyata keçirdiyi ideoloji, sosial-siyasi və iqtisadi proqramlar bu sistemin hüdudlarından kənara çıxaraq, ümummilli ideallara, dövlət müstəqilliyinin bərpasına və onun həyatiliyinin təmin edilməsi məqsədinə xidmət edirdi.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrünün əsas sosial-iqtisadi göstəricilərinin nəzərdən keçirilməsi də bu fikri təsdiq edir. Belə ki, 1969-cu il ilə müqayisədə 1982-ci ildə əhalinin sayı 5112,8 min nəfərdən 6406,3 min nəfərə, iqtisadiyyatda məşğul olanların orta illik sayı müvafiq olaraq 1730,3 min nəfərdən 2428,2 min nəfərə, ümumi ictimai məhsul faktiki qiymətlərlə 749,1 milyon manatdan 2292,7 milyon manata, istehsal edilmiş milli gəlir faktiki qiymətlərlə 39,2 milyon manatdan 1045,8 milyon manata, iqtisadiyyatın sahələri üzrə əsas fondlar 1096 milyon manatdan 2746 milyon manata, sənaye məhsulunun ümumi həcmi faktiki qiymətlərlə 407,0 milyon manatdan 1207,7 milyon manata, kənd təsərrüfatının ümumi məhsulu faktiki qiymətlərlə 97,5 milyon manatdan 383,5

milyon manata çatmışdır və s.1 Göründüyü kimi, ölkənin sosial-iqtisadi həyatının bütün sahələri üzrə artım baş vermişdir. Bu rəqəmlərin arxasında böyük strateji hədəflər, dövlətin və xalqın tərəqqisi naminə mühüm siyasi fəaliyyət dayanır. Sosial-iqtisadi tərəqqi milli-mənəvi dəyərlərin daha da inkişafı, müstəqillik ideyasını şərtləndirən amillərin yaradılması və möhkəmləndirilməsi ilə müşayiət olunmuşdur. Prezident İlham Əliyev məhz bunları nəzərə alaraq qeyd etmişdir ki, *"Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan 1970-ci illərdə ayağa qalxdı, ən geridə qalmış müttəfiq sovet respublikasından ən qabaqcıl respublikaya ucaldı"*.[2]

Heydər Əliyev SSRİ rəhbərliyinin zirvəsində, Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu dövrdə də (1982-1987) Azərbaycanın iqtisadi və siyasi cəhətdən daha da möhkəmlənməsi siyasətini davam etdirmişdir. Heydər Əliyev SSRİ rəhbərlərindən biri olarkən faktiki olaraq SSRİ-nin türk xalqlarının da liderinə çevrilmiş və həmin respublikaların milli mənafeyini də müdafiə etmişdir. O, birmənalı şəkildə Qazaxıstandakı hakimiyyət dəyişikliyinə qarşı çıxmış və 1986-cı il Alma-Atı hadisələri zamanı Qazaxıstanı dəstəkləmişdir. Beləliklə, Heydər Əliyev Azərbaycanın, eləcə də türk respublikalarının milli mənafeyinin qorunmasının qarantı kimi çıxış etmişdir.

M.S.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi, Heydər Əliyevin nüfuzu və tarixi missiyası ilə barışa bilməmiş, onu rəhbərlikdən uzaqlaşdırmaq üçün siyasi sui-qəsd həyata keçirmişdir. Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırılmışdır. Bu tarixdən sonra baş verən hadisələr, Heydər Əliyevin SSRİ-nin siyasi olimpində Azərbaycana qarşı yönəlmiş hansı qəsdlərin qarşısını aldığı məsələsini bir daha aydın etmişdir. Onların arasında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və separatçı qüvvələrin fəallaşması əsas yer tutmuşdur. Heydər Əliyevin formalaşdırdığı milli ideologiya və sosial-iqtisadi baza sayəsində xalq vahid cəbhədə birləşmiş və əks qüvvələrə qarşı dayana bilmişdir. Xalq hərəkatının dalğasında meydana gələn Xalq Cəbhəsi isə bu imkanlardan istifadə edə bilməmiş və xalq 20 Yanvar (1990) müdaxiləsi ilə üzbəüz qalmışdır. 20 Yanvar hadisəsi ilə SSRİ rəhbərliyi tərəfindən respublikada həyata keçirilən anti-Azərbaycan və anti-Heydər Əliyev siyasəti, o zamankı Azərbaycanın rəhbəri Ə.Vəzirovun (1988, may - 1990, yanvar) timsalında süqut etmişdir. 20 Yanvar hadisəsindən sonrakı hakimiyyət dəyişikliyi də siyasi

1 Xalqa həsr olunan illər. Bakı, 2003, s. 12.
2 https://azertag.az/xeber/1778087 (Giriş tarixi: 20.08.2021).

böhranı aradan qaldıra bilməmiş, əksinə, onu daha da dərinləşdirmişdir. Heydər Əliyev 20 Yanvar hadisəsinin sabahı günü Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinə gələrək dünya ictimaiyyətinin gözü qarşısında bu hadisəyə qəti və aydın qiymət vermiş, müstəqillik uğrunda mübarizənin real liderinə çevrilmişdir. Mövcud iqtidarın təzyiqi ilə Bakıya gələn Heydər Əliyev, 22 iyul tarixində Naxçıvana dönməsi ilə, Naxçıvan milli-azadlıq mübarizəsinin mərkəzinə çevrilmişdir. Tarixi faktlar sübut edir ki, Heydər Əliyevin Azərbaycan naminə fəaliyyəti, Azərbaycanın müstəqilliyi haqqında 1990-cı il 30 avqust bəyannaməsinin və 1991-ci il 18 oktyabr Konstitusiya Aktının qəbul edilməsində böyük tarixi rol oynamışdır.

**Müstəqilliyin ilk dövrü (1991-1993)**

Müstəqillik haqqında Konstitusiya Aktının elan edilməsinə baxmayaraq, onun tələblərindən irəli gələn müddəaları reallaşdırmaq mümkün olmamışdır. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları daha geniş miqyas alaraq Birinci Qarabağ müharibəsinə çevrilmişdir. 1992-ci il fevralın 26-da Ermənistan tərəfindən nəinki Azərbaycan, o cümlədən dünya tarixinin ən faciəli hadisəsi - Xocalı soyqırımı törədilmişdir. Xocalı soyqırımı hakimiyyət böhranını daha da dərinləşdirmişdir.

1992-ci ilin martında prezident A.Mütəllibovun istefasından sonra keçid hakimiyyəti yaradılmış, lakin siyasi böhrandan çıxmaq mümkün olmamış, əksinə vəziyyət daha da gərginləşmişdir. 1992-ci il mayın 8-də Şuşanın işğalı ilə ümumxalq faciəsi yaşanmış, lakin siyasi qüvvələr bu halda da hakimiyyət uğrunda mübarizədən əl çəkməmişdir. A.Mütəllibovun yenidən hakimiyyətə qayıtmaq cəhdi baş tutmamış, Azərbaycan Xalq Cəbhəsi (AXC) hakimiyyəti ələ keçirməyə nail olmuşdur. Bununla da, müstəqilliyin elan edilməsindən (1991, 18 oktyabr) keçən qısa bir dövr ərzində yeni bir hakimiyyət dəyişikliyi baş vermişdir. Tarixə AXC-Müsavat cütlüyünün hakimiyyəti kimi daxil olan dövr (1992, may - 1993, iyun) başlamışdır. Bir-birini əvəz edən bu hakimiyyətlərdə heç bir siyasi varisliyin olmaması dövlət idarəetməsinə ciddi zərbə vurmuşdur. AXC-Müsavat hökuməti hakimiyyətinə Birinci Qarabağ müharibəsinin daha bir ağır məğlubiyyəti ilə başlamışdır. 1992-ci il mayın 18-də Laçın işğal edilmiş və Ermənistan Dağlıq Qarabağa dəhliz açmağa nail olmuşdur.

AXC-Müsavat cütlüyünün qısa hakimiyyəti dövründə daxili və xarici siyasəti, hərbi quruculuq fəaliyyəti, ölkənin iqtisadi vəziyyəti dərin böhran keçirmiş, qəbul edilən bir sıra qanunvericilik aktları deklarativ xarakter daşımışdır. AXC-

Müsavat hakimiyyətinin Naxçıvana dair siyasəti isə Azərbaycanın dövlətçilik tarixinin ən acınacaqlı səhifələrindən birinə çevrilmişdir. Dövlət çevrilişinə cəhd, Naxçıvanın muxtar statusuna qarşı qəsdlər, rəhbərliyə qarşı təxribatlar və s. bu siyasətin tərkib hissəsi olmuşdur.

1993-cü ilin aprelində Kəlbəcərin Ermənistan tərəfindən işğalı ilə hərbi baxımdan Laçının işğalından sonra daha bir ağır hadisə baş vermiş, Ermənistan Azərbaycanın ən böyük sərhəd rayonunu işğal etmişdir. Kəlbəcərin işğalı ilə AXC-Müsavat cütlüyü hakimiyyətinin siyasi və hərbi böhranı daha da dərinləşmiş və az sonra, iyun ayında süqut etmişdir.

**Müstəqilliyin geridönməzliyinin təmin edilməsi (1993-2003)**

Tarixdə dəfələrlə təsdiq edildiyi kimi, Azərbaycanda da müstəqilliyin qorunması və geri dönməzliyinin onun əldə edilməsindən daha mürəkkəb olduğu aydın oldu. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək ölkədə mövcud olan siyasi iqtidarlar dövründə Azərbaycan müstəqilliyinin itirilməsi həddinə çatdırıldı. Ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə idi.

Bu dövrdə (1991, oktyabr - 1993, iyun) Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik uğrunda mübarizədən onun müdafiəsi və möhkəmləndirilməsinə başlandı. Bu proses məqsəd və məramına, hərəkətverici qüvvələrinə, ideoloji baxışlarının sistemli şəkildə kompleks xarakter alaraq, sonralar ifadə edildiyi kimi, Qurtuluş hərəkatına çevrildi. Milli Məclisin 1997-ci il iyunun 27-də keçirilən iclasında Heydər Əliyevin Ali Sovetin Sədri seçildiyi 15 iyun günü "Milli Qurtuluş Günü" elan edilmişdir. Bu hərəkat başladığı zamandan Ümumazərbaycan səciyyəsi daşıyırdı. 1993-cü ilin iyunundakı siyasi böhran dövründə AXC-Müsavat hakimiyyəti Heydər Əliyevi yeganə xilaskar kimi Bakıya dəvət etdi. Qurtuluş hərəkatı yeni mərhələyə daxil oldu. Heydər Əliyevin iyunun 9-da Bakıya gəlişindən 15 iyun tarixində Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyasında Ali Sovetin Sədri seçilməsinədək olan dövrdəki fəaliyyəti stabilləşdirici faktor oldu. Heydər Əliyev Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasında çıxışı zamanı mövcud vəziyyəti dəyərləndirməklə yanaşı, qarşıda duran vəzifələr üzərində də dayanaraq demişdir: *"Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin*

*olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır."*[3] İyunun 17-dən 18-nə keçən gecə Prezident Ə. Elçibəyin Bakını tərk edərək Naxçıvan MR-in Ordubad rayonu Kələki kəndinə getməsi ilə əlaqədar olaraq, prezident hakimiyyətinin həyata keçirilməsində ciddi problem yarandı. Milli Məclis iyun ayının 24-də respublika prezidentinin səlahiyyətlərini Ali Məclisin Sədri kimi Heydər Əliyevə həvalə etdi. Heydər Əliyev oktyabrın 3-də Prezident seçildi. Beləliklə, xalqın təkidli tələbi və səsverməsi nəticəsində Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə hakimiyyət məsələsi həll edildi.

Prezident Heydər Əliyevin müdrik siyasəti və dövlətçilik təcrübəsi əsasında Ermənistanın Azərbaycana qarşı genişlənən təcavüzünün qarşısını almaq mümkün oldu. 1994-cü il mayın 8-də müharibə cəbhəsində hərbi əməliyyatların dayandırılmasına dair Bişkek protokolu imzalandı, mayın 12-də isə atəşkəs qüvvəyə mindi. Ermənistanın təcavüzkar fəaliyyəti erməni terror aktları ilə də müşayiət olunurdu. Erməni xüsusi xidmət orqanları və "Sadval" təşkilatı 1994-cü il martın 19-da Bakı metrosunun "20 yanvar" stansiyasında, aprelin 23-də isə ermənilər "Daqestanskiye oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarında partlayış törətdilər. Daxili irtica da siyasi sabitliyin möhkəmlənməsində ciddi maneə idi. Bu qüvvələr təşkilatlanaraq siyasi sui-qəsdlər vasitəsilə cəmiyyətdə qorxu yaratmağa və dövlət çevrilişi törətməyə çalışırdılar. Onlar 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandıqdan sonra daha da fəallaşdılar. 1994-cü il sentyabrın 29-da, eyni gündə Azərbaycan Ali Soveti sədrinin müavini A. Cəlilov və Prezidentin yanında Xüsusi İdarənin rəisi Ş. Rəhimov qətlə yetirildi. Heydər Əliyevin qətiyyəti nəticəsində 1994-cü ilin oktyabrında, növbəti dəfə isə 1995-ci ilin martında baş verən dövlət çevrilişlərinin qarşısı alındı. Hakimiyyətin qeyri-qanuni yol ilə ələ keçirilməsi cəhdi və təcrübəsinə birdəfəlik son qoyuldu. Bütün bu hərbi-siyasi gərginliklərə baxmayaraq, dövlət müstəqilliyinin iqtisadi təminatı sahəsində ciddi tədbirlər görülməkdə idi. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"nin həyata keçirilməsi üçün mühüm addımlar atılırdı. Bu öz bəhrəsini verdi və 1997-ci il noyabrın 12-də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin qazdığı ilk neft quyusu fontan vurdu. Neft kəmərləri layihələri icra edilməyə başlandı.

Qurtuluş hərəkatı Azərbaycanda dövlət hakimiyyətinin möhkəmləndirilməsi və güclü siyasi iradə ilə yaranmış yeni tarixi şəraitin nəticələrini təsbit

---

3 Əliyev H. Müstəqilliyimiz əbədidir. Birinci kitab. İyun, 1993-may, 1994. Bakı, 1997, s. 9.

edən Əsas qanunun - 1995-ci il Konstitusiyasının qəbulu ilə başa çatdı.[4] Heydər Əliyev Konstitusiya yaradıcılığını sonra da davam etdirdi, onun daha da təkmilləşdirilməsinə nail oldu. 2002-ci il avqustun 24-də Azərbaycan Respublikası Konstitusiyasına bir sıra əlavə və dəyişikliklərə dair referendum keçirildi. Həmin dəyişikliklər nəticəsində Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilməsi, Azərbaycan Respublikasında apellyasiya instansiyası məhkəmələrinin, eləcə də Ombudsman (insan hüquqları üzrə müvəkkil) institutunun yaradılması, parlament seçkilərinin majoritar seçki sisteminə keçirilməsi və s. mühüm məsələlər təsbit edildi.

Respublika tarixinin Heydər Əliyev epoxasında yeni dövr başlandı. Onun əsas istiqamətləri içərisində yeni qəbul edilmiş Konstitusiyaya uyğun olaraq hüquqi dövlət və demokratik cəmiyyət quruculuğu mühüm yer tuturdu. 1996-cı ilin fevralında Azərbaycan Respublikasının Prezidenti yanında "Hüquqi İslahatlar Komissiyası" yaradıldı. Onun fəaliyyəti nəticəsində dünya standartlarına uyğun hüquqi sistemin formalaşdırılması həyata keçirildi. 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" qanun qəbul edildi. 1998-ci il iyunun 18-də isə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olundu. Elə həmin gün Azərbaycanda Konstitusiya Məhkəməsi öz işinə başlamışdır. 2001-ci ilin dekabrında "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmiş, 2002-ci il iyulun 2-də ölkədə Ombudsman institutu yaradılmışdır. Hüquqi islahatlarda ən mühüm yerlərdən biri məhkəmə sisteminin təkmilləşdirilməsi tuturdu. 2002-ci ilin sentyabrında üçpilləli məhkəmə sistemi yaradıldı.

Siyasi sistemin təkmilləşdirilməsi sahəsində də mühüm addımlar atıldı. Demokratik seçkilərin keçirilməsi ənənəyə çevrildi. 1998-ci ilin oktyabrında yeni prezident seçkiləri keçirildi və Ulu öndər yenidən inamlı qələbə qazandı. 1999-cu il dekabrın 12-də ilk dəfə bələdiyyə seçkiləri, 2000-ci ilin noyabrında isə Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirildi. Çoxpartiyalılıq təmin edildi. Yeni Azərbaycan Partiyasının iqtidar partiyasına çevrilməsi ilə siyasi sistemdəki rolu gücləndi.

Ən prioritet istiqamətlərdən biri də milli təhlükəsizliyin möhkəmləndirilməsi və ordu quruculuğu idi. Heydər Əliyevin dövründə dövlət mülkiyyətinin

---

4 Azərbaycan Respublikasının Konstitusiyası https://static.president.az/upload/Files/2018/03/09/5wf06ovlvb_Konstitusiya_AZE.pdf; (Giriş tarixi: 21.08.2021).

özəlləşdirilməsi proqramı (1995, 29 sentyabr), "Torpaq islahatı haqqında" qanun (1996, 16 iyul), Özəlləşdirmənin İkinci Dövlət Proqramı (2000, 10 avqust) və digər mühüm sənədlər üzrə iqtisadi islahatlar həyata keçirildi; əsas sosial-iqtisadi göstəricilər bütün sahələr üzrə artdı. Əhalinin sayı 1993-cü ilin sonunda 7549,6 min nəfər olduğu halda, 2002-ci ildə 8202,5 min nəfərə çatmış, 108,7% artmışdır. Aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanda sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçid sürətlənmişdir. Belə ki, iqtisadiyyatda məşğul olanların orta illik sayı 1993-cü ildəki 3714,6 min nəfərdən artaraq 2000-ci ildə 3726,5 min nəfərə yüksəlmiş, yəni 100,3% artmışdır. Əsas dəyişiklik qeyri-dövlət müəssisələrində çalışanların sayının artmasında qeydə alınmışdır. 1993-cü ildə bu rəqəm 1411,6 min nəfər idisə, 2002-ci ildə 2524,5 min nəfər olmuş, yəni 1,8 dəfə artmışdır. Ümumi daxili məhsul 157,1 mlrd. manatdan 29602,0 mlrd. manata, sənaye məhsulları istehsalı eyni dövrdə 123,0 mlrd. manatdan 19742,1 mlrd. manata, kənd təsərrüfatı məhsulları isə 52,3 mlrd. manatdan 6355,7 mlrd. manata çatmışdır.[5]

Azərbaycanın iqtisadi həyatı inkişaf etdikcə xarici iqtisadi əlaqələri də artırdı. 1993-cü ildə xarici ticarət dövriyyəsi 1,353,467.1 min ABŞ dolları təşkil edirdisə, 2002-ci ildə bu rəqəm 3,833,087.0 min dollara çatmışdır. Ən başlıcası isə o idi ki, ixrac getdikcə artmış, eyni dövrdə 724,661.1 dollardan 2,167,519.7 min dollara yüksəlmişdir.[6]

Ölkədə baş verən köklü sosial-siyasi və iqtisadi dəyişikliklərə baxmayaraq, milli-mənəvi dəyərlərin qorunması və daha da inkişafı Heydər Əliyevin dövlətçilik fəaliyyətində bu dövrdə də önəmli yer tuturdu. Onun mərkəzi məsələlərindən biri təhsilin və elmin inkişafı idi. Statistik rəqəmlərə görə, 1993-cü ildə 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 703 nəfərinin ali və tam orta təhsili olduğu halda, 2003-cü ildə bu göstərici 753 nəfər təşkil edirdi. Ölkədə məktəbəqədər müəssisələrin geniş şəbəkəsinin yaradılması istiqamətində xeyli iş görülmüşdür. 1990-cı illərin ikinci yarısından etibarən təhsil sahəsində dövlət müəssisələri ilə yanaşı, qeyri-dövlət təhsil müəssisələri də yaradılmağa başlamışdır. Təhsilin bütün pillələri üzrə təhsil müəssisələri və orada təhsil alanların sayı dinamik şəkildə artmışdır. Xaricdə təhsil də yayılmaqdadır. Elm sahəsi üzrə keyfiyyət və kəmiyyət göstəriciləri də yüksəlmişdir. Əgər 1993-cü ilin sonuna qədər yerinə

5 Xalqa həsr olunan illər, s.14-15.
6 Yenə orada, s.253.

yetirilmiş işlərin həcmi 941,0 milyon manat təşkil edirdisə, 2002-ci ildə bu rəqəm 95,826.5 milyon manat idi.[7]

Ədəbiyyat, memarlıq və incəsənətin inkişafı da diqqət mərkəzində idi və bunun nəticəsində həmin sahələr üzrə mühüm nailiyyətlər əldə edildi. 1997-ci il aprelin 20-də "Kitabi Dədə-Qorqud" dastanının 1300 illiyinin qeyd edilməsi haqqında Prezident Fərmanı Azərbaycan qorqudşünaslığının inkişafına yeni stimul verdi. Dövrün Azərbaycan ədəbiyyatı da yeni əsərlərlə zənginləşdi. 1997-ci il noyabrın 10-da "Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Prezident Fərmanı verildi.

Heydər Əliyev tərəfindən ilk dəfə Azərbaycan xalqının tarixinin uzun müddət ərzində unutdurulmağa çalışdığı səhifələrinə yenidən nəzər salındı və siyasi qiymət verildi. "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il mart ayının 26-da "Azərbaycanlıların Soyqırımı haqqında" Prezident fərmanları verildi. Mart ayının 31-i "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi.

Gənclərə diqqət və qayğının artırılması məqsədilə gənclər siyasəti hazırlandı və həyata keçirildi. 1996-cı il fevralın 2-də gənclərin I Respublika forumu keçirildi. 1999-cu il iyulun 29-da "Dövlət Gənclər siyasəti haqqında" proqramı qəbul olundu. Azərbaycan diasporunun formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər xüsusi əhəmiyyətə malik idi. Dünya azərbaycanlılarının 2001-ci il 9-10 noyabrda keçirilən I qurultayı bu sahədə mühüm rol oynadı. Ən mühüm məsələlərdən biri də Azərbaycan Respublikasında yeni informasiya mühitinin formalaşdırılması idi. 1998-ci il avqustun 8-də Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzalanmış, Nazirlər Kabineti yanında Mətbuatda və Digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ("Qlavlit"), yəni faktiki olaraq senzura, ləğv olunmuşdur.

Heydər Əliyev Azərbaycanın müstəqillik dövrü daxili siyasətində olduğu kimi, xarici siyasətində də yeni konsepsiya formalaşdırmağa nail oldu. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistanın hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması başlıca yer tuturdu. Bununla eyni zamanda, qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə münasibətlər yeni səviyyəyə yüksəldi. Azərbaycanın Avropa

7 Yenə orada, s.407-410, 437.

dövlətləri və ABŞ ilə münasibətlərinin möhkəmləndirilməsi istiqamətində tədbirlər, dövlətlərarası səfərlər həyata keçirildi. 2002-ci il yanvarın 28-də ABŞ-ın Azərbaycan dövlətinə yardım göstərilməsinə məhdudiyyətlər tətbiq edən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş müvəqqəti olaraq dayandırıldı.

Beynəlxalq təşkilatlarla əlaqələr də xarici siyasətdə əsas istiqamətlərdən idi. Azərbaycan 2001-ci il yanvarın 25-də Avropa Şurasına tam hüquqlu üzv oldu. Avropaya inteqrasiya genişləndi.

Heydər Əliyevin dövründə Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər Prezident İlham Əliyev tərəfindən davam etdirildi və daha da zənginləşdirildi. Azərbaycan tarixinin yeni zirvəsinə yüksəldi, 44 günlük Vətən müharibəsi — İkinci Qarabağ müharibəsində Böyük Zəfər əldə edərək, torpaqlarını Ermənistanın işğalından qurtardı və ərazi bütövlüyünü bərpa etdi.

**Böyük Zəfər yolu (2003-2021)**

Prezident İlham Əliyev qədim və zəngin Azərbaycan tarixində yeni era açmışdır. İlham Əliyev dövlət başçısı kimi siyasi kursunun əsas istiqamətlərini 31 oktyabr 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar andiçmə mərasimində ifadə etmiş, ölkənin sosial-iqtisadi inkişaf perspektivləri ilə birgə, onun ərazi bütövlüyünün bərpası üzərində xüsusi dayanaraq demişdir: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qaytmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır..." [8] Prezident İlham Əliyev bu vəzifəni uğurla həyata keçirdi və Vətən müharibəsi - İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi zəfəri bu dövrün demək olar ki, əsas leytmotivinə çevrildi. Prezident İlham Əliyev demişdir: "Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır..."[9]

Bu zəfərlə Birinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın işğal edilmiş əraziləri otuz ilədək dövrdən sonra azad edilmiş, ərazi bütövlüyü bərpa olunmuşdur. Müharibə nəticəsində imzalanmış 10 noyabr 2020-ci il üçtərəfli bəyanatı ilə Ermənistan kapitulyasiya edilmişdir.

---

8 Əliyev İ. İnkişaf- məqsədimizdir. İkinci kkitab. Oktyabr 2003-fevral 2004. Bakı, 2009, s. 10.
9 https://azertag.az/xeber/1688523; (Giriş tarixi: 25.08.2021).

44 günlük müharibə mühüm beynəlxalq əhəmiyyətə də malik olmuşdur. “İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq”.[10]

Prezident İlham Əliyev tarixi zəfərlə birgə, post-müharibə dövrünün strategiyasını da müəyyən etməyə və sistemli şəkildə həyata keçirməyə başladı. Burada aşağıdakı istiqamətləri ayırmaq olar: 1) 10 noyabr 2020-ci il bəyanatının yerinə yetirilməsinin təmin edilməsi; 2) Böyük Zəfərdən yenidənqurma və Böyük Qayıdışa keçilməsi; 3) Ermənistandakı revanşist qüvvələrin yarada biləcəyi müharibə təhlükəsinin önlənməsi üçün ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və strateji müttəfiqlik siyasətinin davam etdirilməsi (Şuşa bəyannaməsi və s.); 4) Azərbaycanın Böyük Zəfərlə əldə etdiyi qələbəsinin beynəlxalq aləmdə qəbul etdirilməsi.

Böyük Zəfər Prezident İlham Əliyevin hakimiyyəti dövründə həyata keçirdiyi uğurlu siyasi xəttin, sosial-iqtisadi və mədəni həyatın daha da inkişafı və xalqın dövlət başçısını seçkilər vasitəsilə daim dəstəkləməsi nəticəsində mümkün olmuşdur. İlham Əliyev 2003 (76,8%), 2008 (88,7%), 2013-cü (84,5%) illərdəki növbəti və 2018-ci (86,02%) ildəki növbədənkənar prezident seçkilərində, yəni bütövlükdə dörd prezident seçkisində yüksək səs toplayaraq qalib gəlmiş, dövlətin və xalqın lideri kimi hakimiyyətini davam etdirmişdir. Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı kimi hakimiyyətə gəlsə də, onu ölkə həyatının və dünyada baş verən qlobal proseslərin çağırışları əsasında inkişaf etdirmiş, daim modernləşdirmiş və müasirləşdirmişdir.

Dövlət hakimiyyəti və idarəetmənin təkmilləşdirilməsi diqqət mərkəzində olmuş, bu sahədə yeni addımlar atılmışdır. Hüquqi-siyasi islahatlar, o cümlədən Konstitusiya quruculuğu davam etdirilmişdir. 2009 və 2016-cı illərdə Konstitusiyaya əlavə və dəyişikliklər üzrə ümumxalq referendumu keçirilməsi nəticəsində yeni müddəalar ilə zənginləşdirilmişdir. Siyasi sistemdə çoxpartiyalılıq möhkəmlənmiş, mühüm qanunvericilik sənədləri qəbul olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılmışdır. Təsadüfi

---

10 https://azertag.az/xeber/1643463; (Giriş tarixi: 25.08.2021).

deyil ki, Vətən müharibəsi dövründə 50 siyasi partiya bəyanatla çıxış edərək, Prezident, Ali Baş Komandan İlham Əliyevi dəstəklədiklərini ifadə etmişdir.

Siyasi partiyalar ilə birgə vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti geniş təşviq edilmiş və bu sahədə də uğurlar əldə olunmuşdur. Dövlət idarəsi üzrə həyata keçirilən tədbirlər içərisində əhəmiyyətinə görə, inqilabi dəyişiklik kimi qiymətləndirilən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin – ASAN xidmətin təsis edilməsini (2012, iyul) xüsusi qeyd etmək lazımdır. Azərbaycanın sosial-iqtisadi həyatının müxtəlif sahələri üzrə yaradılmış yeni, mütərəqqi modellər içərisində ASAN xidmət mərkəzləri xüsusi yer tutur və dünya miqyasında böyük maraq doğurur.

Prezident İlham Əliyev erasının mərkəzi məsələlərindən biri ölkənin dinamik iqtisadi inkişafının təmin edilməsi olmuşdur. Məhz bu dövrdə azad bazar iqtisadiyyatına keçid başa çatdırılmış, yeni tipli iqtisadi sistemin bərqərar edilməsinə nail olunmuşdur. Yanacaq-energetika sistemi ölkənin iqtisadi həyatında həlledici yerini qorumuş, dünya miqyasında neft-qaz sektorunda özünəməxsus yer tutmaqda davam etmişdir. Müasir dövrdə Azərbaycan Avropanın enerji təhlükəsizliyində vacib rol oynayır.

Azərbaycanda neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi üzrə də ciddi addımlar atılmışdır. Azərbaycan beynəlxalq miqyasda etibarlı iqtisadi tərəfdaşa çevrilmiş, bunun nəticəsində ölkə iqtisadiyyatına investisiya qoyuluşu üçün əlverişli imkan yaradılmışdır. Nəqliyyat-kommunikasiya sisteminin inkişafı nəticəsində Azərbaycan dünyanın əsas nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir. Uğurlu vergi və gömrük siyasəti sahəsində büdcə gəlirlərinin artırılmasına və sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə nail olunmuşdur. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sistemində də rolu artmış, dünya ölkələri ilə iqtisadi əlaqələr genişlənməkdə davam etmişdir. Regionların sosial-iqtisadi inkişafı sahəsində dövlət proqramlarının qəbul edilməsi və uğurla həyata keçirilməsi də dövrün ən mühüm layihələrindəndir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən layihələrin reallaşması, onların ölkə həyatına inteqrasiyasının təmin edilməsi ilə iqtisadi potensial daha da artacaqdır. Prezident İlham Əliyevin məqsədyönlü şəkildə həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda sosial dövlət formalaşması təmin edilmişdir. Bunun nəticəsidir ki, bir sıra sosial layihələr həyata keçirilmiş,

insanların sosial rifah halı yaxşılaşdırılmışdır. Qaçqın və məcburi köçkünlərə dair siyasət də uğurla yerinə yetirilmiş, Böyük Qayıdış hərəkatı reallığa çevrilmişdir.

Müasir cəmiyyətin inkişaf səviyyəsinin əsas göstəricilərindən biri kimi təhsil və elm sahəsində də mühüm islahatlar tətbiq edilmiş, beynəlxalq əlaqələr genişləndirilmişdir. Azərbaycan ədəbiyyatı və incəsənəti sahəsində də mühüm uğurlar qazanılmışdır. Bəzi ölkələrdə irçilik, islamofobiya və etnik eqoizmin gücləndiyi bir dövrdə milli-mənəvi dəyərlərin qorunması və multikulturalizm Azərbaycanın dövlət siyasətinə çevrilmişdir. Diaspora quruculuğu da davam etdirilmişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin liderliyində tarixi zəfərin əldə edilməsində yeni ordu quruculuğu konsepsiyası əsasında formalaşdırılan Azərbaycan Silahlı Qüvvələri həlledici rola malik olmuşdur. Müharibəyə qədər həyata keçirilən xarici siyasət xətti də bir məqsədə, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi və dövlətin ərazi bütövlüyünün bərpa edilməsi məqsədinə xidmət etmişdir.

Azərbaycanın 2016-cı ildə 120 ölkənin birgə qərarı ilə Qoşulmama Hərəkatının sədri seçilməsi onun dünya miqyasında əldə etdiyi beynəlxalq nüfuzun təsdiqi idi. Azərbaycan Hərəkatın 2019-cu ilin oktyabrında Bakıda keçirilən 18-ci Zirvə toplantısında sədrliyi qəbul etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 sentyabr 2020-ci ildə BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Hərəkat adından çıxış etmişdir.

2019-cu ilin sonlarında məlum olan koronavirusun tezliklə pandemiyaya çevrilməsi, bütün dünyada olduğu kimi, Azərbaycanda da dövlət hakimiyyətini, xüsusilə səhiyyə sistemini ciddi sınağa çəkmişdir. Azərbaycan dövləti qısa bir zaman ərzində anti-pandemiya tədbirləri hazırlamış və həyata keçirməyə nail olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah təşkil edilmiş, yeni müvafiq tibb müəssisələrinin yaradılması təmin edilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19-a qarşı onlayn formatda Zirvə toplantısı keçirilmişdir. Bu toplantıda həmin məsələ üzrə Hərəkatın adından BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsinə dair yeni təşəbbüs irəli sürülmüşdür.

Ümumdünya Səhiyyə Təşkilatı, Azərbaycanın pandemiya ilə mübarizədəki rolunu nəzərə alaraq, onu nümunəvi ölkə adlandırmışdır.

Prezident İlham Əliyevin dövründə yaradılmış (2004) Heydər Əliyev Fondu, Azərbaycanın sosial-mədəni həyatında önəmli yer tutur. Heydər Əliyev Fondu, Azərbaycanın müasir həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycanın işğal altındakı ərazilərinin azad edilməsilə Fondun fəaliyyətinin miqyası daha da genişlənmiş, bu ərazilərdəki tarix və mədəniyyət abidələrinin bərpası sahəsində unikal layihələr həyata keçirilmişdir. Fondun beynəlxalq aləmdəki layihələri də ona böyük nüfuz qazandırmışdır.

**Nəticə**

Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ilin aprelində süqutuna baxmayaraq, müstəqillik ideyası daima davam etmişdir. Sovet dövləti, həm ideoloji, həm də fiziki təqib və qəsdlərlə müstəqillik uğrunda mübarizəni məhv etməyə çalışmışdır. İlk dəfə Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövründə (1969-1982) müstəqillik uğrunda mübarizənin nəzəri-təcrübi əsasları sistemli şəkildə formalaşdırılmış, bu dövrdə inkişaf etdirilən mənəvi dəyərlər, sosial-iqtisadi və mədəni potensial onun bazasını təşkil etmişdir. Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktını elan etmişdir. Buna baxmayaraq, müstəqilliyin ilk dövrü (1991-1993) ciddi çətinlik və problemlərlə müşayiət olunmuşdur. Yalnız Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonra həyata keçirilən tədbirlər onun geridönməzliyini təmin edə bilmişdir. Prezident İlham Əliyevin dövlət başçısı seçilməsi ilə dövlət hakimiyyətində siyasi varislik təmin edilmiş, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi xətti dönmədən davam etdirilmişdir. Birinci Qarabağ müharibəsi dövründə Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının azad edilməsi onun əsas qayəsi olmuşdur. Bunun nəticəsində 44 günlük müharibə dövründə Azərbaycan Ermənistan üzərində tarixi qələbə qazanmış, onu kapitulyasiya etməyə nail olmuşdur. Bu qələbə 10 noyabr 2020-ci il üçtərəfli bəyanatda əks olunmuşdur. Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə bütövlükdə ölkə tarixi, o cümlədən müasir müstəqillik tarixində yeni səhifə açılmışdır.

1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyətinin süqutu nəticəsində dövlət müstəqilliyi itirildi. Müstəqilliyi yalnız 1991-ci il oktyabrın 18-də bərpa etmək mümkün oldu. Həmin gün Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı qəbul edildi. O vaxtdan keçən otuz illik dövr ərzində Azərbaycan Respublikasının keçdiyi inkişaf tarixini nəzərdən keçirmək, onun əsas mərhələlərini və bu mərhələlərin mahiyyətini müəyyən etmək zəruridir.

Bunu nəzərə alaraq, Azərbaycanın dövlət müstəqilliyini əldə etdikdən sonrakı otuz illik tarixin mühüm istiqamətləri araşdırılacaqdır. Bu, eyni zamanda perspektiv inkişaf üçün nəticələr çıxarmağa da imkan verəcəkdir. Araşdırmada qarşıya qoyulan vəzifəyə nail olmaq üçün genetik, tarixi müqayisə və digər metodlardan istifadə ediləcəkdir. Azərbaycanın dövlət müstəqilliyinin otuz illik yoluna tarixi baxış bu dövrün başlıca xüsusiyyətlərini müəyyənləşdirməyə, onun Azərbaycanın dövlətçilik tarixindəki yerini aşkar etməyə imkan verəcəkdir.

**Açar sözlər:** Azərbaycan Respublikası, dövlət müstəqilliyi, neft strategiyası, Qarabağ müharibəsi, Böyük Zəfər

**Mənbə və ədəbiyyat:**

Azərbaycan Respublikası. 1991-2001. Bakı: XXI –Yeni Nəşrlər Evi, 2001, 360 s.

Azərbaycan Respublikasının Konstitusiyası//

https://static.president.az/upload/Files/2018/03/09/5wf06ovlvb_Konstitusiya_AZE.pdf

Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 s.

Azərbaycan Respublikasının tarixi (2003-2016). 2-ci cild. İlham Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 716 s.

Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2021, 752 s.

**Əliyev H.** Müstəqilliyimiz əbədidir. Birinci kitab. İyun, 1993-may, 1994. Bakı: Azərnəşr, 1997, 612 s.

**Əliyev İ.** İnkişaf- məqsədimizdir. İkinci kkitab. Oktyabr 2003-fevral 2004. Bakı: Azərnəşr, 2009, 432 s.

Xalqa həsr olunan illər. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2003, 514 s.

https://azertag.az/xeber/1778087

https://azertag.az/xeber/1688523

https://azertag.az/xeber/1643463

# BİRİNCİ KARABAĞ SAVAŞI SÜRECİNDE TÜRKİYE KAMUOYUNUN "KARABAĞ SORUNU"NA YAKLAŞIMI

**RAMAZAN ERHAN GÜLLÜ***

## ÖZET

Prezident İ. Əliyev müsahibəsində müxbirin *"Qarşıdurmalar daha böyük müharibəyə, böyük regional böhrana yol aça bilərmi? Narahatlığınız varmı?"* sualına cavabında Azərbaycanın Ermənistan Respublikasında heç bir hərbi hədəfi olmadığını, Ermənistanın isə bu gün Azərbaycana Ermənistan ərazisindən hücum etdiyini xatırlatdı. O, bildirdi ki, *"dünən* (oktyabrın 4-də - M.Ə.) *Gəncəyə Ermənistan ərazisindən zərbələr vurulmuşdu... Mingəçevirə atılan raketlərdən biri stansiyanın yanına düşmüşdü... Onlar bizi bu təxribata çəkirlər ki, biz də Ermənistana hücum edək, Ermənistana zərbələr endirək. Ondan sonra da çıxıb bütün dünyaya desinlər ki, Azərbaycan bizə hücum edib. Ermənistanı xilas edin, yəni Ermənistanı qurtarın"*.[11]

Müsahibənin gedişində maraqlı anlardan biri də müxbirin Fransa Prezidenti E. Makronla əlaqədar *"Fransa Prezidenti Makronu üzr istəməyə dəvət etdiniz"* sualı oldu. Məsələyə aydınlıq gətirən İ. Əliyev bildirmişdi ki, Makron deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçular gətirib... Ondan sonra bir açıqlamasında demişdir ki, Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və buna biz icazə vermərik. İ. Əliyev müxbirdən soruşmuşdu ki, *"Dağlıq Qarabağ Azərbaycan torpağıdır, biz öz dövlət torpağını fəth edə bilərikmi?"* Yəni, həmsədr bilmir ki, bu torpaqlarda ermənilər qanunsuz olaraq oturub, bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ona görə də *"Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verərik" sözləri qəbuledilməzdir"*. [12]

"Dağlıq Qarabağ: Ermənistan-Azərbaycan informasiya müharibəsi gedişinə dair yalan məlumatlar Twitter şəbəkəsində geniş işıqlandırılmışdır. İran tərəfdən insanların münaqişəyə şahidlik etməsi videosuna Twitter şəbəkəsində 250.000 baxış sayı olmuşdur. Ancaq sonra həmin videonun 2019-cu ildə Rusiyada Hərb

10 **Azərbaycan ordusu qəzeti**, 8 oktyabr 2020, № 65 (2483), s. 2.
11 **Azərbaycan ordusu qəzeti**, 8 oktyabr 2020, № 65 (2483), s. 2.
12 **Azərbaycan ordusu qəzeti**, 8 oktyabr 2020, № 65 (2483), s. 3.

Günündə çəkildiyi, hətta kürəklərində "Rusiya" yazılan insanların rus dilində danışmaları göstərilmiş və istifadəçi buna görə üzr istəmişdir.

II Qarabağ müharibəsinin gedişində Facebook, YouTube, TikTok şəbəkələri də fəallıq göstərmişdir. Hindistan kanallarının birində göstərilən Azərbaycan təyyarəsinin vurulması videosu 2020-ci ilin avqustunda Yaponiyanın YouTube kanalında yayımlanmışdır. Noyabrın 8-də BBC-nin saytında yayımlanan yazıda Şuşa şəhərində 1980-1990-cı illərdə daha çox azərbaycanlıların yaşaması, müharibə nəticəsində yüz minlərlə insanın qaçqın düşməsi ilə bağlı həqiqətlər özünə yer almışdır.[13]

Dağlıq Qarabağ münaqişənin təsvirində ən radikal mövqeyi Thomson Reuters - in xəbər və media şöbəsi, dünyanın ən böyük beynəlxalq multimedia xəbər provayderi olan ***Reuters*** informasiya agentliyi tutmuşdur. Agentlik xəbərlərində Dağlıq Qarabağı Azərbaycandan ayrı tərəf kimi təqdim etmişdir. Yazıların həmmüəlliflər Mariya Kiselyova, Nvard Ohannisyan, Tom Balmforth, Alexander Marrow, Margarita Antidze və Alex Richardson Azərbaycanı Qarabağdan ayrı təqdim etməklə müharibənin xarakterini dəyişməyə cəhd etmişlər.

Dünyanın ən böyük transmilli orqanlarından olan "The New York Times" qəzetində də Dağlıq Qarabağla bağlı yazılar dərc olunmuşdur. Yazıların əksəriyyətinin müəllifi xarici ölkələr, əsasən də Rusiya üzrə müxbir Andrew Kramer olmuşdur. Müharibənin ilk günündə yayımlanan "Ermənistanla Azərbaycan arasındakı mübarizə daha böyük güclərin cəlb olunması riski ilə bağlıdır" adlı geniş araşdırma yazısında hər iki tərəfin mövqeyinə aydınlıq gətirilərək bir çox məqamlara obyektiv yanaşılsa da...[14], müəllifin "Ermənistan və Azərbaycan: Münaqişə izahı" adlı digər yazısında üç dəfə reallaşdırılmayan sülh danışıqları, Gəncənin, Stepanakertin (Xankəndi) qadağan olunmuş silahlarla bombalanması və perspektivdə duran məsələlərə ikili münasibət bildirilmişdir.[15]

Müharibə bölgəsinə gələn jurnalist Anton Troyanovski "New York" üçün Qarabağ konflikti ilə əlaqədar bir neçə yazı hazırlamışdır. "Ermənistan ilə Azərbaycan arasında atəşkəsdən sonra qısa mücadilə işləri" başlıqlı yazıda

13 https://www.bbc.com/news/world-europe-54862180, Giriş tarixi: 02.02.2021.

14 https://www.nytimes.com/2020/09/28/world/asia/azerbaijan-armenia-nagornokarabakh.html?searchResultPosition=19, Giriş tarixi: 03.02.2021.

15 https://www.nytimes.com/article/armenian-azerbaijanconflict.html?action=click&module=Related Links&pgtype=Article, Giriş tarixi: 03.02.2021.

Moskvada imzalanmış atəşkəs danışıqlarından sonra Azərbaycanın artilleriya, pilotsuz uçuş aparatı, səngər mübarizəsi ilə ilk hücuma başlaması haqqında məlumatlar verilmişdir. Yazıda Qarabağın beynəlxalq konvensiyalara görə Azərbaycanın ərazisi olması, ancaq torpaqların geri qaytarılmasından sonra etnik ermənilərin məhv olacağı məsələləri ilə bağlı fikirlər, cəbhə xəttinə yaxın rayonların - Tərtərin, Bərdənin atəşə tutulması və s. fikirlər də qeyd edilmişdir. Zaur Şiriyevin oktyabrın 13-də yayımlanan "Dağlıq Qarabağın duel tərəfləri üçün birgə yaşamaq mümkün deyil" adlı araşdırma yazısında əsasən erməni vətəndaşlardan müsahibələr alınsa da, konfliktin tarixinə nəzər salınaraq milyonlarla azərbaycanlının Ermənistandan və Dağlıq Qarabağdan qaçqın düşmələri və Azərbaycan üçün bu məsələnin milli faciə olduğu qeyd edilmişdir. Oktyabrın 18-də yayımlanan "Dəhşətli müharibənin ön xəttində: Dağlıq Qarabağdakı ölüm və ümidsizlik" məqaləsində isə Azərbaycanın müharibəyə kütləvi surətdə başqa ölkələrdən döyüşçüləri cəlb edərək erməni anklavı olan Dağlıq Qarabağın ərazilərini işğal etmələrindən, müharibədə döyüşən erməni hərbçilərin qəhrəmanlıqlarından, Şuşada, Stepanakertdə (Xankəndi) çətin şəraitdə yaşayan erməni ailələrindən və onların şəhid övladlarından bəhs edilmişdir.[16]

"New York Times" qəzetinin müharibə zonasına ezam olunmuş müxbiri Carlotta Gall "Azərbaycanda bir sıra partlayışlar, qışqırıqlar və ardınca qan" başlıqlı reportajında qadağan olunmuş artilleriya raketlərinin Bərdəyə atılması nəticəsində 21 nəfərin həlak olması, 70 nəfərin yaralanması haqqında məlumat vermiş, dəhşət içində olan zərərçəkmiş insanlardan geniş müsahibələr yer almışdır.

Qətər Əmirliyinə məxsus beynəlxalq telekompaniya – "Al-Jazeera" də məsələyə obyektiv yanaşmalar hiss olunsa da, Azərbaycan Respublikasında olan Sinem Köseoğlu və Ermənistanda olan xüsusi müxbir Bernard Smith bir reportajda Qarabağı mübahisəli ərazi kimi təqdim etmiş, etnik baxımdan orada ermənilərin üstünlüyünü qabartmışlar. Oktyabrın 13-də "Al-Jazeera"nın saytında "Dağlıq Qarabağ: Köhnə bir münaqişə üçün yeni silahlar təhlükə yaradır" adlı yayımlanmış yazıda müəllif Robin Forestier-Walker prezident İlham Əliyevin söylədiyi fikirlərdən, Azərbaycanın hərbi sahədə artan qüdrətindən, Bayraktar TB2, TB2s, "İsgəndər M" kimi silahların müharibədəki funksiyalarından söhbət açmış, həm Azərbaycan (Fuad Şahbaz), həm Ermənistandan (Richard Giragosian)

16 https://www.nytimes.com/2020/10/28/world/europe/azerbaijan-barda-armenia-rockets-karabakh.html, Giriş tarixi: 03.02.2021.

olan şərhçilərin, həm də digər ölkədən olan beynəlxalq ekspertlərin rəyləri yer almışdır.[17]

Bentley Universitetinin müəllimi, konfliktoloq, erməni əsilli Asbed Kotchikian "Al Jazeera" üçün yazdığı "Dağlıq Qarabağ konflikti yeni regional nizamı sürətləndirir" məqaləsində Türkiyənin və Rusiyanın mövqeyini təhlil etmişdir.

Dünyanın ən böyük informasiya agentliklərindən olan Associated Press əsasən Ermənistanın mövqeyindən çıxış etmişdir. Avet Demourianın "Dörd həftəlik konfliktdə yeni atəşkəş" adlı araşdırmasında Ermənistanın Baş Naziri Nikol Paşinyanı Azərbaycanla danışıqlarda "qeyri-konstruktiv" mövqe tutmaqda günahlandırılsa da, Ermənistanın hər hansı bir güzəştə getməyə hazır olduğu halda, Azərbaycanın yeni tələblərlə, yeni şərtlərlə gündəmə gəldiyi qabardılmışdır.[18]

Oktyabrın 7-də "Evronews" televiziyasına müsahibə verən İ. Əliyev yuxarıda qeyd olunan məsələlərə aydınlıq gətirmişdir. Müxbirin *"Ermənistan Türkiyənin burada ciddi təsir göstərdiyini, o cümlədən hərbi yardım kimi məsələlərdə Sizi təchizat təmin etdiyini deyəcək. Siz Türkiyənin bu münaqişədə ölkənizə nə dərəcədə təsir göstərdiyini və hərəkətlərinizi sürətləndirdiyini deyə bilərsiniz?"* sualına cavabda bildirmişdi ki, *Türkiyə heç bir şəkildə münaqişəyə cəlb olunmayıb. Biz özümüz savaşırıq. Bəli, biz Türkiyədən silah alırıq, lakin bizim əsas silah tədarükçümüz Türkiyə deyil. Biz aldığımız silahlara pul ödəyirik, Ermənistan isə pulsuz alır.* Müxbirin *"Diplomatiya Sizin üçün seçim yoludurmu? Bu münaqişədən fərqli çıxış yolunu tapmaq üçün Siz Ermənistanın Baş Naziri ilə bir araya gəlib danışıqlar apararsınızmı?"* sualına İ. Əliyev Azərbaycan tərəfinin təkcə hərbi sahədə deyil, diplomatiya cəbhəsində də üstün olduğunu müxbirin diqqətinə çatdıraraq, Ermənistanın iki sabiq prezidenti ilə danışıqlar apardığını, Ermənistan hökumətinin məsələyə konstruktiv yanaşmadığını və mövqeyini dəyişmədiyini bildirdi.[19]

Bu fikir digər ölkələrin xarici siyasət üzrə rəhbərləri, diplomatik nümayəndələri tərəfindən də səsləndirilməyə başlanmışdır. AzərTAC xəbər verirdi ki, İranın Ali

17 https://www.aljazeera.com/features/2020/10/13/nagorno-karabakh-new-weapons-for-an-old-conflict-spell-danger, Giriş tarixi: 03.02.2021.

18 https://apnews.com/article/europe-azerbaijan-armenia-b1b5fb6c9be19231155b06b811b5e398, Giriş tarixi: 03.02.2021.

19 **Azərbaycan ordusu qəzeti**, 10 oktyabr 2020, s.3.

Rəhbəri Seyid Əli Xamneyinin Xarici Siyasət üzrə müşaviri Əli Əkbər Vilayəti İranın nüfuzlu "Keyhan" qəzetinə müsahibəsində deyib: *"Azərbaycanın işğal olunmuş əraziləri boşaldılmalıdır. Bütün ölkələrin ərazi bütövlüyünə hörmət edilməsi BMT Nizamnaməsinin əsas prinsiplərindən biridir və biz də təşkilatın üzvü olaraq, ona sadiq qalırıq"*.[20]

Euronews informasiya kanalı müharibənin ilk günündə Frans-Press agentliyi ilə birgə yayımladığı *"Dağlıq Qarabağ: Azərbaycanla Ermənistan arasında atışma gücləndikcə onlarla insan öldürüldü"* başlıqlı yazıda ABŞ, Fransa, Rusiya, Kanada və digər ölkələrin münaqişədən narahat olduqlarını, tərəflərin atəşkəsə çağırmalarını və ATƏT-in Minsk qrupu çərçivəsində həll yolu tapılması haqqında fikirlər səsləndirilmişdir. *"Dağlıq Qarabağ: Ermənistan və Azərbaycan gücləri arasında nəyə görə şiddət partlayışı yaşandı?"* adlı geniş araşdırmada ümumi xarakterli obyektiv yanaşmalar, konfliktin Cənubi Qafqazda ümumi vəziyyətə mənfi təsiri, beynəlxalq ekspertlərin yanaşmaları ilə xarici qüvvələrin, əsasən də Rusiyanın maraqları ortaya qoyulmuşdur. "Euronews"in təqdim etdiyi *"Dağlıq Qarabağ: Fransa, Rusiya, ABŞ zorakılığın "təhlükəli şəkildə böyüməsini" qınayır", "Avropa həftəsi: Dağlıq Qarabağ münaqişəsi və qanunun aliliyinin müzakirəsi", "Dağlıq Qarabağ: Niyə Ermənistan və Azərbaycan qüvvələri arasında şiddət alovu baş verdi?"* başlıqlı məqalələrdə də ümumi xarakterli yanaşmalar üstünlük təşkil edir.

ABŞ-ın nəhəng "CNN" informasiya kanalı da 44 günlük Qarabağ müharibəsinə çox geniş yer ayırmışdır. Kanalın "Ermənistanla Azərbaycan arasında mübahisəli bölgəyə görə qarşıdurmalar başlayır", "Ermənistan və Azərbaycan mübahisəli bir bölgə üstündə toqquşur. Bilməli olduğunuz şey budur" adlı araşdırmalarında konfliktlə bağlı hər iki tərəfin mövqeyini ortaya qoysa da, Qarabağı mübahisəli ərazi kimi təqdim edərək "Artsax" adlandırmışdır.[21]

"CNN" də digər dünya kanalları kimi muzdluların Azərbaycan tərəfindən döyüşdüyünü iddia etmişdir. *"Mənbə bildirir ki, Suriyadan olan üsyançılar Azərbaycan və Ermənistan arasındakı qarşıdurmada döyüşməyə cəlb olunurlar"* adlı yazıda (həmmüəlliflər - İstanbul bürosundan Gul Tuysuz, Kardobadab Tim Lister və Yerusəlimdən Kareem Khadler) Türkiyənin dəstəklədiyi Suriyanın Milli

20 **Azərbaycan ordusu qəzeti**, 10 oktyabr 2020, s.8.

21 https://edition.cnn.com/2020/09/27/europe/armenia-azerbaijan-tensions-nagorno-karabakh-intl/index.html, Giriş tarixi: 03.02.2021.

Ordusunun əsgərlərindən biri ilə görüşməsi, onun Azərbaycana səyahət etdiyi və könüllülərin Suriya-Türkiyə sərhəddi yaxınlığındakı Havar Kilis bölgəsində dayanacaqda bir yerə toplandığı, Qarabağda döyüşmək üçün ümumən 1000 döyüşçünün qeydiyyatdan keçdiyi iddia edilirdi.[22] Oktyabrın 3-də İstanbuldan Arzu Qeybulla və Ermənistandan Aren Melikyanın hazırladığı *"Azərbaycan Prezidenti Ermənistana deyir ki, torpağımızı tərk et və müharibə bitsin"* sərlövhəli yazıda da oxşar iddia irəli sürülmüş[23], Azərbaycan Prezidenti İlham Əliyevin "Al-Jazeera" telekanalına verdiyi müsahibəsindəki Fransa Prezidenti E. Makronun bu iddianı sübut etməsinin vacib olduğu fikri də yazıya əlavə olunmuşdur. *"Liderlər Ermənistan-Azərbaycan münaqişəsindəki raket hücumu iddialarından qaçırlar", "Raketlər və ittihamlar Dağlıq Qarabağda ikinci həftədir ki, alovlanır"* sərlövhəli məqalələr tərəflərin bir-birinin sivil bölgələrinə ağır artilleriya və raket atəşinə tutmalarına həsr olunmuşdur.[24] "Rusiya Ermənistan-Azərbaycan münaqişəsini dayandırmağa qadir olan yeganə ölkədir. Qalxacaqmı və bunu edəcəkmi?" başlıqlı yazıda müəllif Nick Paton Walsh Rusiya-Türkiyə münasibətləri, N. Paşinyanın Avropa İttifaqına yaxınlaşması, Rusiyanın Liviya, Suriya, Ukrayna və Belarusiyadakı hadisələrlə əlaqəsi və Dağlıq Qarabağdakı böhrana resurs və həvəsinin qalıb-qalmamasını, Türkiyənin daha aktiv mövqeyini araşdırmışdır.[25]

Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə vermiş və müsahibə oktyabrın 11-də efirə verilmişdir. Azərbaycan dövlətinin başçısı sualları cavablandırarkən atəşkəs rejiminə Azərbaycanın mövqeyinə aydınlıq gətirərək prinsipial əhəmiyyətli məqam açıqlamışdır. O, bildirmişdi ki, qəbul olunmuş sənəddə Azərbaycanın mövqeyi öz əksini tapıb. Sənəddə Ermənistan ilə Azərbaycan arasında substansiv danışıqlar başlanır, danışıqların formatının dəyişməz qalması təsdiqlənir. Bu, o deməkdir ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılırdı, aparılır və aparılacaq. Bununla da Ermənistan rəhbərliyinin bu məsuliyyəti

---

22 https://edition.cnn.com/2020/10/01/middleeast/azerbaijan-armenia-syrian-rebels-intl/index.html, Giriş tarixi: 03.02.2021.

23 https://edition.cnn.com/2020/10/03/asia/azerbaijan-armenia-president-intl/index.html, Giriş tarixi: 03.02.2021.

24 https://edition.cnn.com/2020/10/04/europe/azerbaijan-armenia-missile-attacks-intl/index.html; https://edition.cnn.com/2020/10/05/europe/azerbaijan-armenia-attacks-nagorno-karabakh-monday-intl/index.html, Giriş tarixi: 03.02.2021.

25 https://edition.cnn.com/2020/10/05/europe/russia-armenia-azerbaijan-conflict-analysis-intl/index.html, Giriş tarixi: 04.02.2021.

Dağlıq Qarabağda olan oyuncaq rejimin üzərinə qoymaq üçün göstərdiyi bütün cəhdlər uğursuz oldu.[26] İ. Əliyev müxbirin onun N. Paşinyanla bir masa arxasında danışıqlar aparmasına münasibət bildirərək Paşinyanın 7 ultimatumunu xatırladaraq qeyd etmişdi ki, N. Paşinyan azərbaycanlıların hisslərini təhqir edəndə biz onu cəzalandırdıq. İndi o, Putinə təşəkkür etməlidir ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi. İ. Əliyev bildirmişdi ki, Ermənistan 100 faiz Rusiyadan asılı vəziyyətdədir. Ermənistanın təhlükəsizliyini Rusiya tərəfi təmin edir, Rusiya Ermənistanı pulsuz silahlandırır. Qaz təchizatı Rusiyadan güzəştli qiymətlərlə təmin olunur, elektrik enerjisi ilə müəyyən dərəcədə güzəştlə verilir. Hətta Ermənistanın Türkiyə və İranla sərhədini rusiyalı hərbçilər qoruyur. Bütün bunlar göstərir ki, Ermənistanda Rusiyanın təsiri böyükdür və dünyada heç bir ölkənin bu qədər vasitələri yoxdur.

Rusiyanın RBK telekanalına müsahibəsində İ. Əliyev müxbirin Türkiyənin münaqişədə roluna, Azərbaycanda rusdilli əhalinin yaşayış tərzinə, təhsilin rus dilində aparılmasına göstərilən səyləri faktlarla söyləmişdir. Bununla bərabər, Azərbaycan Prezidenti son vaxtlarda, xüsusilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladıqdan sonra Rusiya kanallarında qatı anti-Azərbaycan təbliğatının, tok-şouların iştirakçılarının saxtakarcasına manipulyasiyasının artmasından təəssüfləndiyini bildirmişdi. İ. Əliyev bununla da müxbirə Azərbaycanda Türkiyə bayrağı ilə yanaşı Rusiya bayrağının olmamasının səbəblərini sitiraltı anlatmış oldu.[27]

Təhlillər göstərir ki, Azərbaycan Prezidenti dünyanın aparıcı kütləvi informasiya vasitələrinə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Ermənistanın Azərbaycana qarşı terror təxribatları haqqında ətraflı məlumatlar versə də, Rusiyanın kütləvi informasiya vasitələrinin əksəriyyəti (Rusiya 24, Rusiya 1, Dojd, Rusiya Bu gün, RBK kanalları, WarGonzo layihəsi) münaqişə ilə bağlı qeyri-obyektiv mövqe nümayiş etdirmişlər. Sputnikin Ermənistan bürosu materiallarında “Qarabağ Respublikası”, “Qarabağın prezidenti”, “Qarabağ Respublikasının paytaxtı” kimi ifadələr üstünlük təşkil etmiş, dolayısı ilə Sputnik qondarma “Dağlıq Qarabağ”ın carçısı rolunu oynamışdır.

Rusiyanın internet saytlarında (Qazeta.ru, Lenta.ru) və TACC, İnterfax, Ria Novosti informasiya agentliklərində gedən xəbərlərdə Qarabağ bölgəsində

26 **Azərbaycan ordusu qəzeti**, 15 oktyabr 2020, № 68 (2486), s. 1.
27 **Yenə orada**, s. 3.

gərginliyin artması, münaqişənin gedişində Azərbaycanın güc üstünlüyü, onun cəbhə bölgəsi olmayan əraziləri bombalaması və sivil insanlara zərər yetirməsi, Türkiyənin Azərbaycana hərtərəfli yardımı və Suriya muzdlularının müharibədə iştirakı daha çox vurğulanmışdır. Rusiyanın ən böyük dövlət informasiya agentliyi olan TACC-ın Qarabağ konfliktinin işıqlandırılması gedişində Ermənistan haqqında yazıları dominantlıq təşkil etmişdir.

Rusiyanın kütləvi informasiya vasitələrindən fərqli olaraq digər KİV-dəki yazılarda rəngli inqilab dalğasında hakimiyyətə gələn Corc Sorosun yetirməsi Nikol Paşinyanın Qarabağdakı erməniləri Yerevana qaçmağa çağırması bildirilmişdi. Rusiya Federasiyasının Yekaterinburq şəhərinin “Znak.com” saytı xəbər vermişdi ki, şəhəri tərk edən insanların axını gündən-günə artır. Rusiyalı tarixçi, analitik, ehtiyatda olan hərbçi Oleq Kuznetsov “Vesti.az” saytındakı “Qarabağda müharibə artıq başlayıb” başlıqlı məqaləsində yazır ki, Azərbaycanın İŞİD-ə bənzər terrorçu “dövlət”lə vuruşduğu dünyaya çatdırılmalıdır. Moskva Dövlət Universitetinin Dünya Siyasəti fakültəsinin Beynəlxalq təhlükəsizlik kafedrasının dosenti, politoloq Aleksey Fenenko “Vestnik Kavkaza” saytında Ermənistanın Azərbaycan ərazilərini əbədi işğalda saxlamaq planının iflas olmasının səbəblərini təhlil edərək yazır ki: “Erməni cəmiyyətində Ermənistan ordusunun 1992-1994-cü illərdəki müharibədə “möcüzələr göstərdiyi”, gücünə görə yalnız İsrail ordusu ilə müqayisə oluna biləcəyi və qalibiyyətli müharibəni təkrarən, təkbaşına qazanacağı barədə mif daim üstünlük təşkil edirdi.” Azərbaycan ordusu yüzillərlə formalaşmış bu mifi 44 gündə darmadağın etdi.

Monteneqronun sabiq prezidenti Filip Vuyanoviç İ. Əliyevə ünvanladığı məktubda BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əməl olunmasının vacibliyini vurğulamaqla yanaşı, silahlı münaqişənin tezliklə sülh yolu ilə həllinə nail olunacağına ümid bəslədiyini bildirmişdi.[28]

Kiyevdə “Ukrayna xəbərləri” İnformasiya Agentliyinin mətbuat mərkəzində “Qarabağda müharibə: Ukraynadan baxış” mövzusunda keçirilən “dəyirmi masa”da “Doktrina” Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Yaroslav Bojko Dağlıq Qarabağ münaqişəsinin yaranmasının əsas səbəbi kimi beynəlxalq cəmiyyətin həll modellərinin effeksiz olduğunu göstərib. O, *“Faktiki olaraq nüfuzlu oyunçuların heç biri hələ yayda baş verən və kəskinləşməyə səbəb olan və onu stimullaşdıran təxribatlara doğru-düzgün reaksiya vermədi”* demişdi.

---

28 **Azərbaycan ordusu qəzeti**, 11 oktyabr 2020, s. 10

Milli Strateji Araşdırmalar İnstitutunun nümayəndəsi Denis Moskalik bildirib ki, "İndi baş verən döyüşlər mahiyyət etibarı ilə Tovuz rayonundakı iyul toqquşmalarının davamı və Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədində hərbi əməliyyatlar aparmaq cəhdləri fonunda daha da aktivləşərək münaqişənin həllinə dair uğursuz cəhdlərin nəticəsidir".[29]

Ukraynalı tarix elmləri namizədi Aleksandr Dudnik qeyd edib ki, Ermənistan öz müqəddəratını təyinetmə hüququ ilə manipulyasiya edir. Axı ermənilərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində olan dövləti var. Onların arqumentləri ilə hərəkət etsək, Ukraynadakı çoxsaylı erməni diasporu dövlətimiz daxilində özünün başqa bir dövlətinin yaradılması ideyası ilə çıxış edə bilər.

Ukraynalı şair, ictimai xadim Lesya Mudrak bildirmişdir ki, *Azərbaycana səfər edərkən ölkədə mədəniyyətlərarası və dinlərarası dialoqun dövlət tərəfindən necə təşviq edildiyinə əmin oldum. Ukraynalılar kimi azərbaycanlılar da çox səmimi, tolerant və mehribandırlar. Dualarımız bu gün Azərbaycan xalqı ilədir. Axı Azərbaycan xalqının indi nə hiss etdiyini biz hamıdan yaxşı başa düşürük. Ölkələrimizin ərazi bütövlüyünün bərpa olunacağına və torpaqlarımızda sülh olacağına inanıram.*[30]

İraqın dini liderlərindən olan Ayətulla Uzma Seyid Məhəmməd Səid əl-Təbatəbai əl-Həkiminin cəbhədəki hadisələrə dair bəyanatlarında bildirilirdi ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən Azərbaycanın ərazi bütövlüyünə hörmət edilməli, ərazilərin zorla işğalına son qoyulmalı, bütün məcburi köçkünlərin öz doğma yerlərinə qaytarılmasına şərait yaradılmalıdır. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza da buna oxşar fikirlər səsləndirmişdi.

44 günlük Dağlıq Qarabağ müharibəsinin mediada işıqlandırılmasının təhlili göstərdi ki, bir çox xarici media orqanlarında erməni əsilli jurnalistlər çoxluq təşkil edir və onların müəllifi olduğu yazılarda münaqişəyə qərəzli yanaşmalar açıq şəkildə hiss olunur. İnkişaf etmiş ölkələrdə erməni lobbisinin KİV-ə təsiri də çox güclü olmuşdur. Hətta düşmən tərəfi bəzi qanlı döyüşləri "müharibə cinayəti" kimi təqdim edərək, media vasitələrini qalibin əleyhinə yönəltməyə cəhd etmişdir. Ancaq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibənin ən ağır günlərində belə dünya kütləvi informasiya vasitələrinə müsahibələr vermiş,

29 **Xalq qəzeti**, 11 oktyabr 2020, s. 10.
30 **Xalq qəzeti**, 11 oktyabr 2020, s. 10.

müstəqil dövlətimiz həm də müasir tarixi epoxanın ən geniş dialoq məkanına çevrilmişdir.

Prezident İlham Əliyevin nümayiş etdirdiyi "konspektsiz" sərbəst nitq, analitik təhlil mədəniyyəti, problemə kompleks yanaşmaq istedadı, ümumiləşdirmə və proqnozlaşdırmaq məharəti dünya liderləri sırasında fərqli bir təfəkkür sahibi olduğunu göstərmişdi. Prezident İlham Əliyevin Azərbaycanda çoxcəhətli dialoqlar üçün formalaşdırdığı mühit beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilmişdir. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı ilə görüşü zamanı Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norovun bildirmişdi ki, *"bu gün Azərbaycan müşahidəçi ölkələr üçün nümunə olaraq dialoq üzrə ən fəal tərəfdaşlardan biridir"*.[31]

### Xalq-Prezident birliyi

Ermənistan-Azərbaycan döyüş bölgəsində baş verən hadisələr xalq tərəfindən diqqətlə izlənilir. Azərbaycan xalqı cəbhəyə yardım göstərməklə bərabər, mənəvi dəstəyini də davam etdirir. Prezidentin dünyanın müxtəlif televiziya kanallarına, qəzet və jurnallara müsahibəsi, xalqa müraciəti və cəbhədəki vəziyyət haqqında müntəzəm verilən məlumatlar, xaricdə yaşayan azərbaycanlılar tərəfindən də rəğbətlə qarşılanır. Rusiya Federasiyasının Vladimir şəhərindən Təranə Xəlilova, Almaniyanın Köln şəhərindən Rəşad Quliyev, Qazaxıstanın Almatı şəhərindən Qəhrəman Sadıyev, İsrailin paytaxtı Təl-Əvivdən David Rafaeli məktublarında yazırdılar ki, *"...Sizin "Qarabağ Azərbaycandır!" şüarınız beynəlxalq aləmdə devizimizə çevrilib. Dünya azərbaycanlıları yekdilliklə Sizin arxanızdadır"*.[32]

Məktublarda Ermənistan silahlı qüvvlərinin Azərbaycana qarşı təcavüzü nəticəsində başlanan əks-hücum əməliyyatları dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İ.Əliyevin fəaliyyəti bəyənilir, Azərbaycanın döyüş cəbhələri ilə yanaşı diplomatiya cəbhəsində də müvəffəqiyyət qazanması "diplomatiyamızın qələbəsi" kimi qiymətləndirilir və vurğulanırdı ki,"...Azərbaycan Prezidenti istənilən debata, müsahibəyə həmişə hazır olduğunu göstərir, O, hər tribunadan, hər efirdən Ermənistanın işğalçılıq siyasətini ifşa edilməsi üçün  istifadə edirdi.

31 İlham Əliyevin ibrətamiz tarix dərsi və diplomatiya mesajı https://nuhcixan.az/news/siyaset/26179-ilham-eliyevin-ibretamiz-tarix-dersi-ve-diplomatiya-mesaji, Giriş tarixi: 04.02. 2021.

32 **Xalq qəzeti**, 2020, 10 oktyabr 2020 s. 4.

Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərindən Cem Küçüktürk, Bakı şəhər sakini İltifat Muradov, Cəbrayıl sakini Vəli Şahverdiyev, Saatlı rayonundan Əjdər Əliyev, Salyan rayon sakini Məhəmməd Ağayev, Masallıdan Rəcəb Ağayev, Bakı şəhər sakini İbrahim Abbaszadə, Beyləqan rayonundan Mirmehdi Məmmədov, Biləsuvardan Babək Hüseynov, Mingəçevir şəhərindən Elşad Qazıyev, Füzuli sakini Alagöz Cəfərov, Qubadan Sahib Kərimov, Cəbrayıl rayon sakini Rövşən Məmmədov, Qobustan sakini Elçin Əmiraslanov uğurlu hərbi əməliyyatlar və diplomatik savaş yolundakı nəticələrə görə Ali Baş Komandana təşəkkür etmişlər.

AzərTAC-ın materiallarından məlum olur ki, Azərbaycan Ordusunun cəbhədəki uğurlarını, Azərbaycan Prezidentinin dünyanın aparıcı televiziya kanallarına verdiyi müsahibələri və müraciətlərini diqqətlə izləyən ölkə vətəndaşları, həmçinin xaricdə yaşayan soydaşlarımız, Azərbaycan Prezidentinə, Ali Baş Komandana məktublar göndərməkdə davam edirdilər. Norveçin Oslo şəhərində yaşayan Sevunc Nəcəfpur və Atabəy Nəcəfpur yazırlar ki, *"...Azərbaycan Ordusu BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qəbul etdiyi qətnamələrə necə hörmətlə yanaşmağın vacib olduğunu bütün dünyaya göstərir. Dövlətimizə, xalqımıza bu haqq işində, şərəfli mübarizədə zəfər arzulayır və daim bütün gücümüzlə başda Siz olmaqla Azərbaycan dövlətinin, ordusunun yanındayıq"*. [33] Bakı şəhər sakini Məmməd Omarov, Ağdaş rayon sakini Taleh Yunusov, Füzuli sakini Ceyhun Məmmədov, paytaxt sakini Roman Kazımov, Astara rayon sakini Ağamirzə Əkbərov və Gəncə şəhər sakini Gülşən Məmmədzadə məktublarında ordumuzun uğurlarını alqışlayır və Qarabağın işğaldan azad olunacağı günün uzaqda olmadığına inandıqlarını, eyni zamanda ordunun arxasında olduqlarını bildirirlər.[34]

Ayrı-ayrı vətəndaşlarla yanaşı, ictimai təşkilatlar, birliklər və cəmiyyətlər də Azərbaycan Prezidentinə müraciətlər, məktublar və bəyanatlar ünvanlayırdılar. Belə dəstək bəyanatlarından biri də Türkiyənin vətəndaş cəmiyyəti təşkilatlarından gəlmişdi. Türkiyə vətəndaş cəmiyyəti təşkilatının qəbul etdiyi bəyanatda qeyd olunurdu ki: *"Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ və ətrafındakı rayonların işğalına 32 ildir, sözdə sülh və həll istəyən türkə düşmən dövlətlər tərəfindən laqeydlik göstərilir və bölgədəki işğalçı qüvvələrin, yəni ermənilərin namərdliyinə hər dəfə göz yumulub. Ancaq son nəticədə, başda Azərbaycan*

---

33 **Azərbaycan ordusu qəzeti**, 2020, 21 oktyabr, № 71 (2489), s. 3.
34 **Azərbaycan ordusu qəzeti**, 2020, 21 oktyabr, № 71 (2489), s. 3.

*hökuməti olmaqla, xalqımız və dövlətimiz sülhün və atəşkəsin artıq heç bir yaraya məlhəm olmadığını, əksinə qaysaq bağlamış yaralarımızın daha da dərinləşdiyini anlayıb.*

*Azərbaycan Respublikası öz problemlərini özü həll edəcək və işğal olunmuş torpaqlarının hamısını hərbi əməliyyatlarla azad edəcək, əzmə və gücə malik olduğunu göstərəcəkdir. Biz Azərbaycan dövlətinin eyni millətin övladları olan Azərbaycan türklərini sevir və Azərbaycan Ordusuna, milli dəyərlərə sahib çıxan bütün vətəndaşlarımıza, Azərbaycan hökumətinə və Azərbaycan Respublikasının Prezidentinə etibarımızın və dəstəyimizin tam olduğunu bildiririk.*

*Tarixi döyüş meydanlarında qurduqlarını mədəniyyət sahəsində yaşadan türklər, Dağlıq Qarabağı həm döyüş meydanında, həm də danışıqlar masasında qazanacaqdır. Azərbaycan dövlətinə, onun rəhbərinə səslənirik: Hər an əmrinizdəyik. Sərhədlərdən kənardakı qardaşlarımız da yanınızdadır. Yalnız irəli. Qəlbimiz sizinlədir Azərbaycan, hamımız Azərbaycanlıyıq, hamımız Qarabağlıyıq!*[35]. Bəyanatı 73 təşkilat imzalamışdır.

Türkiyənin qaziləri və şəhid ailələrinin üzvləri də Azərbaycana dəstək bəyanatı qəbul etmişlər. Bəyanata 169 qazi və şəhid ailəsi üzvləri imza atmışlar.[36]

### Böyük Qələbə - Zəfər günü

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub, öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik

---

35 **Xalq qəzeti**, 22 oktyabr 2020, s. 2.
36 **Xalq qəzeti**, 24 oktyabr 2020, s. 2.

azad olundu. Bu qələbənin zirvəsi isə Şuşanın azad edilməsi oldu. Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri Xiyabanda və Şəhidlər Xiyabanında oldular. Dövlətimizin başçısı Şəhidlər Xiyabanında Azərbaycan xalqına müraciət etdi. İlham Əliyev böyük fəxarət və qürur hissi ilə qeyd etdi ki, *"...Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində yeri vardır. Bu bizim qədim, tarixi şəhərimizdir, əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisi dir... 28 ildən sonra Şuşada azan səsi eşidiləcəkdir. Bu tarixi gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərdən biridir.*

*Şuşa, sən azadsan!*

*Əziz Şuşa, biz qayıtmışıq!*

*Əziz Şuşa, biz səni dirildəcəyik!"* [37]

Qələbədən bəhs edən İlham Əliyev bütün dünyaya bəyan etdi ki, "Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq". Bu, işin görünən tərəfidir: qəsbkarla onun öz dilində danışmaq, sözlə anlamayana yumruqla anlatmaq taktikası. Amma məsələnin bir də görünməyən tərəfi var. Qaranlıq həmişə işıqdan qorxub, çünki onun ən kiçik şüası ən qatı zülməti yarmağa qadirdir. Ermənistan noyabrın 10-da üçtərəfli Bəyanata—kapitulyasiya sənədinə imza atmaqla məhv olmaqdan xilas oldu. Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinə uyğun olaraq noyabrın 20-də Ağdam, dekabrın 1-də bir güllə atılmadan Kəlbəcər işğaldan azad edildi.

### Siyasi və mənəvi dəstək

44 günlük savaşda uğur qazanılmasında qardaş Türkiyə çox önəmli və əvəzolunmaz rol oynadı. Bunu hər bir azərbaycanlı bilir və hər gün təkrar etməkdən yorulmur. Bu da təbiidir. Çünki əgər Azərbaycanın torpağı işğal olunubsa, xalqının nümayəndələri qaçqın və köçkün olublarsa, bu, istər Türkiyə, istərsə digər türk ölkələrində yaşayan hər bir türkü narahat etməli, incitməli, hətta deyərdim, yatmağa belə qoymamalıdır. Bu, birincisi, bizim genetik yaddaşımızdan

---

37 **Azərbaycan ordusu qəzeti**, 11 noyabr 2020, № 78 (2496), s. 2-3.

irəli gələn məsələdir. Bu savaşın gedişi zamanı biz Türkiyədən başqa, Qazaxıstan, Qırğızıstan, Özbəkistanda Azərbaycana qarşı çox məhəbbət və hörmətini ifadə edən adamlar gördük. Bundan başqa, Rusiya ərazisində yaşayan türk dilli xalqlar da Azərbaycan xalqının mübarizəsini dəstəklədi. ...Bu mənəvi dəstək yüz illər boyu Azərbaycan xalqının yaddaşında və xatirəsində qalacaq.[38]

44 günlük müharibə bir daha göstərdi ki, Türkiyə-Azərbaycan qardaşlığı əbədidir. Türkiyə-Azərbaycan əlaqələrinə toxunan İ. Əliyev bildirmişdi ki, son 18 il ərzində həm Türkiyə, həm Azərbaycan tərəfindən vahid siyasət formalaşdırılıb. Ondan daha əvvəl atamın dönəmində onun məşhur kəlamı var: "Bir millət, iki dövlət". ...Bu sözlər bizim üçün işıqlı bir yoldur. ...Bu, hər zaman belə idi. Amma İkinci Qarabağ müharibəsində bu, daha da artdı. Çünki Azərbaycan xalqı çox gözəl gördü ki, onun əsl dostu, qardaşı kimdir. Bizim yanımızda olan ölkə Türkiyə və Pakistan idi. Biz bəzi ölkələrdən heç dəstək ifadələri də duymadıq. ...Türkiyə və Azərbaycan bayraqlarının birgə dalğalanması təbiidir. Birliyimiz də əbədidir.[39]

Vətən müharibəsindən sonra 2021-ci il 15-16 iyun tarixlərində Türkiyə Prezidentinin Azərbaycana səfəri yeni reallıqdan xəbər verirdi. Rəcəb Tayyib Ərdoğanın bu gəlişi Ermənistanın işğalından qurtarılan Azərbaycan bölgələrini ziyarət edən ilk qardaş ölkə başçısı olmasının Şuşa Bəyannaməsinin imzalanması böyük əhəmiyyət kəsb edirdi. İmza mərasimindən sonra iki ölkə başçısının ortaq mətbuat konfransında çıxışı, Rəcəb Tayyib Ərdoğanın Şuşada Türkiyə Baş Konsulluğunun açılacağını söyləməsi və *"Türkiyə olaraq yenidən bərpa və inşaat işlərində qardaşlarımıza hər cür dəstək veririk"* deməsi Türkiyə və Azərbaycanın Qarabağı birlikdə tikəcəkləri haqqında bəyanatı, 16 iyun tarixində Türkiyə Prezidentinin Azərbaycan Parlamentində çıxışı, Qafqazda sülh və əmin-amanlıq üçün Türkiyə və Azərbaycanın bölgədə hərtərəfli əməkdaşlığa hazır olduqlarını vurğulaması Cənubi Qafqazda yeni geostrateji vəziyyətin formalaşdırılacağına işarə hesab olunmalıdır. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında imzalanan Şuşa Bəyannaməsindəki *"Azərbaycan və Türkiyədən hər hansı birinin müstəqilliyinə və ya torpaq bütövlüyünə üçüncü dövlət tərəfindən təhdid və hücum olarsa, tərəflər bir-birinə lazımlı kömək edəcək"* maddəsi Cənubi Qafqazdakı tarazlığın qorunması baxımından böyük əhəmiyyət daşıyır. 2021-ci il avqust ayının 14-də CNN Türk televiziya müxbirinin *"İndi Cənubi Qafqazdakı*

38 https://www.trt.net.tr/azerbaycan/proqram/2021/06/24/rdoganin-az-rbaycan-s-f-rinin-h-miyy-ti-1663510**,** Giriş tarihi: 05.02.2021.

39 **Azərbaycan qəzeti**, 15 avqust 2021, s. 3.

*vəziyyət də dəyişir. Bununla bağlı indi 3+3 formatı da müzakirə olunur. Siz buna necə baxırsınız?"* sualına İ. Əliyevin cavabı əslində Azərbaycan diplomatiyasının perspektivlərini müəyyənləşdirmək baxımından da çox əhəmiyyətlidir. İ. Əliyev bildirmişdi ki, *Azərbaycan bu formatı dəstəkləyir və ümid edir ki, digər ölkələr də buna qoşulacaqlar*[40] . CNN Türk televiziya müxbirinin "...30 ilin sonunda ilk dəfə həm Zəfər qazanıldı, həm də bu problemin həllinə çox yaxınlaşıldı. Siz bunu necə dəyərləndirirsiniz?" sualına İ. Əliyev cavabında bildirdi ki, *"Bu, bizim üçün tarixi bir Zəfərdir".*

**Nəticə**

Göründüyü kimi, Azərbaycan Prezidentinin prinsipial mövqeyi informasiya məkanında da uğurlarımızı təmin etdi. 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını darmadağın etdi.

Erməni vandalları Qarabağı viran qoysalar da, Azərbaycanın prioriteti işğal olunmuş torpaqlara - Qarabağa qayıdışdır. Bu qayıdışın kökündə erməni işğalı nəticəsində dağıdılmış yurd yerlərinin bərpası, təbiətə vurulmuş ziyanın aradan qaldırılması, yeni infrastrukturun yaradılması dayanır. Zaman göstərəcək ki, Azərbaycanın tutduğu yol haqq yoludur, bu yol istiqlal yoludur. Tərtər rayonundan Suqovuşana gedən, Göygöl rayonunun Toğanalı kəndi istiqamətindən Kəlbəcərə çəkilən, Horadizdən Zəngilana, oradan Qubadlıya və Laçın rayonlarına qədər yolun çəkilişi, Füzulidən Şuşaya yeni avtomobil yolunun çəkilişi, "Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün ilkin olaraq 5 milyon manat ayrılması, işğaldan azad edilən ərazilərdə beynəlxalq aeroportlar da daxil olmaqla, nəqliyyat-kommunikasiya infrastrukturunun formalaşdırılması strateji əhəmiyyət daşımaqla yanaşı, Azərbaycan rəhbərliyinin quruculuq missiyasından xəbər verir. Bu bir daha təsdiq etdi ki, işğaldan azad olunmuş ərazilərimiz sürətlə bərpa ediləcək, Qarabağa böyük qayıdış ən yüksək səviyyədə həyata keçiriləcək.

40 **Azərbaycan qəzeti**, 15 avqust 2021, s.2

## ƏDƏBİYYAT

**Azərbaycan ordusu qəzeti**, 30 sentyabr 2020.

İlham Əliyevin ibrətamiz tarix dərsi və diplomatiya mesajı.

https://nuhcixan.az/news/siyaset/26179-ilham-eliyevin-ibretamiz-tarix-dersi-ve-diplomatiya-mesaji.

**Xalq qəzeti**, 2020, 2 oktyabr 2020.

Vahid Məhərrəmov, "Böyük Qələbənin başlanğıcı", **Azərbaycan ordusu**, 30 sentyabr 2020, № 62 (2480).

Şöhrət Səlimbəyli, **Azərbaycan tarixinin zəfər salnaməsi**, Avropa, Bakı, 2020.

http://newtimes.az/az/organisations/6960/.

https://news.day.az/azerinews/1298050.html.

https://www.bbc.com/news/world-europe-54862180.

https://www.nytimes.com/2020/09/28/world/asia/azerbaijan-armenia-nagorno karabakh.html?searchResultPosition=19.

https://www.nytimes.com/article/armenian-azerbaijanconflict.html?action=click&module=Related Links&pgtype=Article.

https://www.nytimes.com/2020/10/28/world/europe/azerbaijan-barda-armenia-rocketskarabakh.html.

https://www.aljazeera.com/features/2020/10/13/nagorno-karabakh-new-weapons-for-an-old-conflict-spell-danger.

https://apnews.com/article/europe-azerbaijan-armenia-b1b5fb6c9be19231155b06b811b5e398.

https://www.euronews.com/2020/09/30/nagorno-karabakh-why-has-there-been-a-flare-up-of-violence.

https://edition.cnn.com/2020/09/27/europe/armenia-azerbaijan-tensions-nagorno-karabakh-intl/index.html.

https://edition.cnn.com/2020/10/01/middleeast/azerbaijan-armenia-syrian-rebels-intl/index.html.

https://edition.cnn.com/2020/10/03/asia/azerbaijan-armenia-president-intl/index.html.

https://edition.cnn.com/2020/10/04/europe/azerbaijan-armenia-missile-attacksintl/index.html, https: //edition.cnn.com/2020/10/05/europe/azerbaijan-armenia-attacks-nagorno-karabakh-monday-intl/index.html.

https://edition.cnn.com/2020/10/05/europe/russia-armenia-azerbaijan-conflict-analysis-intl/index.html.

https://www.trt.net.tr/azerbaycan/proqram/2021/06/24/rdoganin-az-rbaycan-s-f-rinin-h-miyy-ti-1663510.

https://konkret.az/bolqaristan-metbuati-eliyevin-cnn-e-musahibesinden-yazdi/.

# TÜRKİYE-AZERBAYCAN ASKERÎ-STRATEJİK İŞ BİRLİĞİ ZİRVESİ: ŞUŞA DEKLARASYONU

**TOFIQ MUSTAFAZADƏ***


## ÖZET

4 Haziran 1918'de kurulan Batum Antlaşması ile Türkiye-Azerbaycan askerî-stratejik iş birliği, 18 Ekim 1991`de Azerbaycan Cumhuriyeti'nin yeniden kazanılmasından sonra yeni ve daha yüksek düzeyde gelişme çabası gösterdi. Azerbaycan ile Türkiye arasında 1992 yılından bu yana imzalanan önemli anlaşmalar, bu iş birliğinin daha da geliştirilmesi ve derinleştirilmesi için hukuki ve siyasi bir zemin oluşturmuştur.

27 Eylül 2020'de başlayan Vatan (II. Karabağ) Savaşı'nda kardeş Türkiye'nin sağladığı askerî-teknik yardım ve siyasi-manevi destek Azerbaycan'ın zaferinde önemli rol oynamıştır.

İki ülke arasındaki askerî-stratejik iş birliğinin zirvesi, Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan'la Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev arasında 15 Haziran 2021'de imzalanan "Şuşa Deklarasyonu" oldu. Bildirgenin en önemli müddeası, iki devletin toprak bütünlüğüne ve egemenliğine üçüncü bir devlet veya devletler tarafından tehdit veya saldırı olursa, onların birbirine yardımda bulunması hakkındaki müddeadır.

Şuşa Deklarasyonu, bölgede yaklaşık 200 yıldır devam eden jeopolitik yapılanmanın dağıtılması, bundan sonra Türk-Azerbaycan tandeminin öncülüğünde devam edecek yeni bir bölgesel düzenin başlangıcıdır.


**Anahtar Kelimeler**: Batum Antlaşması, Askerî-Stratejik İş Birliği, Vatan (II. Karabağ) Savaşı, Azerbaycan Cumhuriyeti, Şuşa Deklarasyonu

* T.e.d., Profesör, AMİA Bakü Tarih ve Etnoloji Enstitüsü, tofiq.mustafazade@mail.ru.

# SUMMIT OF TURKISH-AZERBAIJANI MILITARY-STRATEGIC COOPERATION: SHUSHA DECLARATION

## ABSTRACT

The Turkish-Azerbaijani military-strategic cooperation was established by the Batum Treaty of June 4, 1918. After the restoration of the independence of the Republic of Azerbaijan on October 18, 1991, the relations between two states reached a high level. The key agreements signed between Azerbaijan and Turkey since 1992 have made a legal and political basis for further development and deepening cooperation.

Military-technical assistance and political-moral support provided by brotherly Turkey in the Patriotic War (The Second Karabakh War) which began on September 27, 2020, played an important role in Azerbaijan's victory.

Shusha Declaration on Allied Relations between the Republic of Azerbaijan and the Republic of Turkey was signed on June 15, 2021 between President of Azerbaijan Ilham Aliyev and President of Turkey Recep Tayyip Erdogan as part of the summit of military-strategic cooperation.

The most important provision of the Declaration is the provision that the territorial integrity and sovereignty of two States should be assisted in case of a threat or aggression by another state or states. The Shusha Declaration is the beginning of a new regional order, which is a triathlon for the Turkish-Azerbaijani tandem. The destruction of the geopolitical configuration in the region, which lasted for almost 200 years, will be restored by the Turkish-Azerbaijani leadership.

**Keywords**: Batum Agreement, Military-Strategic Cooperation, Patriotic War (The Second Karabakh War), The Republic of Azerbaijan, The Shusha Declaration

Türkiyə-Azərbaycan hərbi-strateji əməkdaşlığı uzaq tarixi keçmişə malikdir. Məlumdur ki, hələ 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövlətinin ədliyyə naziri Xəlil Menteşe, Qafqaz cəbhəsinin baş komandanı M. Vehib paşa ilə Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadə və Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri M. H. Hacınski arasında 6 maddədən ibarət "Sülh və Dostluq" haqqında müqavilə imzalanmışdır. Müqavilənin 4-cü maddəsinə görə, ehtiyac olduğu təqdirdə, Osmanlı hökuməti Azərbaycan Cümhuriyyətinə dinclik və asayişi möhkəmləndirmək üçün yardım etməli idi.[1]

O zaman Bakıda və Azərbaycanın bir çox yerlərində erməni daşnak və bolşevik quldurları ağalıq etdiyindən Batumda olan Azərbaycan nümayəndələri Osmanlı-Azərbaycan müqaviləsinin dördüncü maddəsinə istinad edərək Osmanlı dövlətindən yardım istəmişdi. Osmanlı dövlətinin Cənubi Qafqaza qoşun göndərməsi, Osmanlının müttəfiqi Almaniyanın Sovet Rusiyası ilə bağladığı 3 mart 1918-ci il Brest-Litovsk müqaviləsinə zidd olardı. Bu səbəbdən, Osmanlı hökuməti Almaniyanın etirazına səbəb olmamaq üçün manevr edərək, Osmanlı ordusu hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusunu təşkil etdi və bu ordunun Osmanlı dövlətinə tabe olmaması təsəvvürünü yaratmağa çalışdı.[2] Məhz bu ordunun Türkiyədən və Azərbaycandan olan əsgərlərinin qəhrəmanlığı sayəsində 1918-ci il sentyabrında Bakı şəhəri daşnak, eser və ingilis qüvvələrindən azad olunmuş və Azərbaycan öz təbii paytaxtına qovuşmuşdu.

1920-ci ilin aprelində Qırmızı Ordunun Şimali Azərbaycanı işğal edərək Azərbaycan Cümhuriyyətini süquta uğradıb yerinə Moskvadan asılı Azərbaycan Sovet Sosialist Respublikasını qurduqdan sonra, Türkiyədə də Mustafa Kamal Paşanın başçılığı ilə Türkiyə Böyük Millət Məclisi və onun hökuməti təşkil olundu. Bu dövrdə iki ölkə arasında münasibətlər davam etmişdir. 1921-ci il oktyabrın 13-də Türkiyə ilə üç Cənubi Qafqaz respublikası – Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında imzalanmış Qars müqaviləsinə, Türkiyə və Azərbaycan diplomatlarının səyləri və qətiyyəti sayəsində, salınmış 5-ci maddəyə görə Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar bölgə olması və Azərbaycan SSR-in onu heç bir digər dövlətə güzəştə getməsinə ixtiyarının olmaması haqqında maddənin salınması mühüm tarixi əhəmiyyətə malik idi.

---

1 Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, "Azərnəşr", 1993, s.90

2 Yenə orada, s. 97; Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, "Ay-Ulduz", 1996, s. 63

1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra iki qardaş ölkə arasında siyasi-diplomatik, iqtisadi və mədəni əlaqələr yenidən, daha yüksək səviyyədə qurulmuş və günü-gündən yüksələn xətlə inkişaf edir. 1992-ci ilin noyabrın 2-də Ankarada Azərbaycan və Türkiyə respublikaları arasında əməkdaşlıq və həmrəylik haqqında müqavilə imzalanmışdır.[3] Türkiyə, Azərbaycana, xüsusilə də blokada vəziyyətində olan Naxçıvana humanitar və maddi yardım göstərirdi. 1993-cü ilin iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan-Türkiyə münasibətlərində yeni dövr başlamışdır. Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər çərçivəsində fevralın 9-da imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokolun xüsusi əhəmiyyətini vurğulamaq lazımdır. Eyni zamanda, imzalanmış 14 maddədən ibarət dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilədə tərəflərin bir çox sahələrdə əməkdaşlığı nəzərdə tutulmuşdu.[4]

Səfərə gedərkən H.Əliyev jurnalistlərə müsahibəsində demişdi: “Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqlarımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var… Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir”.[5]

Sənədlərin imzalanma mərasimində söylədiyi nitqində Azərbaycan Respublikasının Prezidenti qeyd etmişdi: “Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir… hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar… bizim gələcək əlaqələrimiz üçün yollar, yeni cığırlar açır”.[6]

1997-ci ilin may ayında Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olarkən “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında” bəyannamə və qarşılıqlı əlaqələrin genişləndirilməsini şərtləndirən 9 sənəd imzalanmışdır.[7]

---

3 Əhmədov Ə. Azərbaycan beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri). Bakı, “Elm və təhsil”, 2011, s.51; Səfərov P. Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı, “Elm və təhsil”, 2011 s.72

4 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003-cü illər). II his. Bakı, “Mütərcim”, 2015, s.445

5 Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. (Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). I kitab, Bakı, 1997, s.358

6 Yenə orada; Heydər Əliyev və Şərq. Türkiyə, II kitab, 2005, s.58

7 Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, 2006 – s.90; Əhmədov Ə. göst.əsəri, s.62-63

Türkiyənin Azərbaycan strategiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli əsas yer tuturdu. Ermənistanın Azərbaycana hərbi təcavüzü genişləndiyi zaman Türkiyə rəsmiləri bu hücumu durdurmaq üçün diplomatik səylərini gücləndirdilər. Ermənistanın Naxçıvan Muxtar Respublikasını da işğal etmək ehtimalı ortaya çıxdıqda isə Türkiyə Ermənistanla sərhədlərə qoşun toplayıb, hər an müdaxiləyə hazır olduğunu nümayiş etdirdi.[8] Türkiyə hərbi quruculuq işlərində Azərbaycana yardım göstərirdi.

1998-ci ilin mayın 15-də Türkiyə, Azərbaycan və Gürcüstan nümayəndələri arasında Bakı-Ceyhan əsas ixrac boru kəmərinə dair ilk rəsmi sənədin imzalanması mühüm hadisə idi.[9]

1999-cu il noyabrın 18-də Çırağan sarayında ATƏT-in Zirvə toplantısında ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevarnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsi"nə dair saziş imzaladılar.[10]

BTC kəmərinin Azərbaycan hissəsinin təməli 2002-ci ildə sentyabrın 18-də Səngəçal terminalında qoyuldu və 2006-cı il iyulun 13-də rəsmi açılışı oldu.[11]

Daha sonra Bakı-Tbilisi-Ərzurum magistral qaz kəməri TANAP (Transanadolu Projesi) və TAP (Transadriatik Projesi)-in inşası Cənub Neft-Qaz Dəhlizinin formalaşmasına imkan verdi və beynəlxalq enerji təhlükəsizliyinə töhfə oldu.

Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra hər iki ölkənin dövlət və hökumət başçılarının çoxsaylı qarşılıqlı rəsmi və işgüzar səfərləri hökumətlərarası münasibətləri tənzimləyən müxtəlif sənədlərin imzalanması ilə müşayiət olunmuşdur.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı ildən-ilə genişlənərək, Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasında, hərbi təlimlərin keçirilməsində,

8 Nəsibov E.M. göst.əsəri, s.148-149
9 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan", 2005, s.566
10 Yenə orada, s.568
11 Musa İ. Azərbaycanın xarici siyasəti. III hissə (Çağdaş münasibətlər və Azərbaycanın xarici siyasəti). Bakı, 2011 , s.337-338

Sandal, N. A., "Framing religious outbidding: al-qaida, islamic state, and intra-religious competition", **Politics, Religion & Ideology**, 2021, s. 1-20.

Salamoğlu, E., 2015, "Azərbaycanlılar hansı ölkələrdə dini təhsil alır?", http://axar.az/news/gundem/74362.html, Erişim Tarihi: 08.04.2021.

Sametli, F. , **İran İslam Cumhuriyeti'nde Uluslararası Hukuk Anlayışı: Rehine Krizi, Salman Rüşdi Krizi ve Çocuk İdamları Örnekleri**, Ankara Üniversitesi, Sosyal Bilimler Enstitüsü (Basılmamış Doktora Tezi), Ankara 2019.

Shaffer, B., 2008, **Sınırlar ve Kardeşler İran ve Azerbaycan Kimliği İran ve Azerbaycan Kimliği**, İstanbul Bilgi Ün. Yay., İstanbul.

Şimşir, Bilal, **Azerbaycan: Azerbaycan'ın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan İlişkileri**, Bilgi Yayınevi, Ankara 2011.

Shahed, B., 2019, İran'ın İslâmiyet'i Tebliğ ve Temsil Aracı Olarak Yurtdışındaki İslâm Kültür Merkezleri, **Yeni Usûllerle İslâmî Teblîğ ve Temsîl -Milletlerarası İlmî Toplantı, 17-18 Kasım 2018**, s. 169-189.

Sondakika, 2010, "İran'dan Bakü'ye Başörtüsü Tepkisi", https://www.sondakika.com/haber/haber-iran-dan-baku-ye-basortusu-tepkisitahran-2449081/, Erişim Tarihi: 22.07.2021.

Süleymanlı, E., 2006, **Milletleşme Sürecinde Azerbaycan Türkleri**. İstanbul, Ötüken Neşriyat.

Talıblı, S. E., İran İslam Respublıkasının Xarıcı Sıyasətının Nəzərı Əsasları (1979-2006-Cı İllər), 2016, https://ethnoglobus.az/az/ındex.php/yax-n-rq/ıran/ıtem/782-ıran-ıslam-respublıkas%c4%b1n%c4%b1n-xarıcı-sıyas%c9%99tının-n%c9%99z%c9%99rı-%c9%99saslar%c4%b1-1979-2006-c%c4%b1-ıll%c9%99r, Erişim Tarihi: 22.07.2021.

Tevhidhaber, 2009, "Azerbaycan'da 59 Dinî Kitap Daha Yasaklandı" https://www.tevhidhaber.com/azerbaycanda-59-dini-kitap-daha-yasaklandi-54751h.htm, Erişim Tarihi: 22.02.2021.

Tevhıdhaber, 2011, "Kurşunlanmayı Tercıh Ederım"; https://www.tevhıdhaber.com/kursunlanmayı-tercıhederım-78970h.htm, Erişim Tarihi: 17.07.2021.

Tiedeman, A., "Islamic Republic of Iran Broadcasting: Public Diplomacy or Propaganda?", The Fletcher School-Al Nakhlah Tuft Unıversıty, S 5, 2005, s. 1-7.

Uyar, M., “Velayet-i Fakıhın Ortaya Çıkışı Ve Değerlendirilmesi”, **Dini Araştırmalar**, C 2, S 6, 2000, s.77-98.

Üstün S. İ., **Humeynı’den Hamaney’e İran İslam Cumhuriyeti Yönetim Biçimi**, Birleşik Yayınları, İstanbul 1999.

Üstüntaş, D., “İran’ın Yumuşak Gücü: Unsurları, Zorlukları”, **Akademık Orta Doğu**, C 11, S 1, 2016, s. 59-84.

Valiyev, A., 2012, “Islamic Movements In Azerbaijan”, https://mesbar.org/ ıslamıc-movements-ın-azerbaıjan/, Erişim Tarihi: 20.08.2021.

Walbridge, L. S., The Most Learned of the Shi’a: The Institution of Marja Taqlid, Oxford University Press, London 2001.

Walter, P., Ideology And Strategy in The Middle East: The Case Of Iran, Survival, C 59, S 5, 2017, s. 69-98.

YDH, 2006, “Azeri Müçtehitten Refık Tağı’ya Ölüm Fetvası”, https://www.ydh.com.tr/hd1825_azeri-muctehitten-refiktagiya-olum-fetvasi.html, Erişim Tarihi: 11.06.2021.

Yeğin, A., **İran’ın Bölgesel Faaliyetleri Ve Güç Unsurları**, Seta Yayınları, İstanbul 2017.

Yılmaz R., Sayin, F. M., "Azerbaycan Dış Politikasını Belirleyen Öğeler ve Denge Politikasına Yansımaları", Çankırı Karatekin Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, C 4, S 1, 2013, s. 23-42.

Yılmaz, E., 2020, İlham Aliyev Dönemi Azerbaycan-İran İlişkileri, **Çanakkale Onsekiz Mart Üniverstiesi Lisansüstü Eğitim Enstitüsü**, (Basılmamış Doktora Tezi), Çanakkale 2020.

Yılmaz, S., “Uluslararsı İlişkilerde Güç ve Güç Dengesinin Evrimi", **Stratejik Araştırmalar Dergisi**, c 1, S 1, 2008, s. 27-65.

Yunusov, A., **Azərbaycanda Islam**, M. Mütəllimov (Terc.), Zaman, Bakı 2004.

Zərbalıyeva, K., 2010, “Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi Ayətullah Nasır Məkarim Şirazinin Azərbaycanda Məscidlərin Sökülməsi ilə Bağlı Fikirlərini Əsassız Sayır”, https://az.trend.az/azerbaıjan/ socıety/1686954.html, Erişim Tarihi: 22.07.2021.

## EKLER

**EK-1** İran'ın Devlet Yapılanmasında İslami Tebliğ İle Yükümlü Olan Kurum Ve Kuruluşlar.




**EK-2.** Uluslararası Ehl-i Beyt Kongresi Tarafından Yayınlanan Kitapların Dilleri ve Sayıları

| Uluslararası Ehl-i Beyt Kongresi Tarafından Yayınlanan Kitapların Dilleri ve Sayıları | | | | | |
|---|---|---|---|---|---|
| Sıra | Dil | Cilt Sayısı | Sıra | Dil | Cilt Sayısı |
| 1 | Türkiye Türkçesi | 128 | 24 | İtalyanca | 5 |
| 2 | Urduca | 102 | 25 | İsveçce | 5 |
| 3 | İngilizce | 72 | 26 | Fulanice | 4 |
| 4 | Almanca | 56 | 27 | Kırgız Türkçesi | 3 |
| 5 | Azerbaycan Türkçesi | 55 | 28 | Kurmançi Kürtçesi | 3 |
| 6 | Boşnakça | 45 | 29 | Ruandaca | 3 |
| 7 | Tacikçe | 33 | 30 | Lugandaca | 3 |
| 8 | İspanyolca | 33 | 31 | Hausaca | 3 |
| 9 | Rusça | 31 | 32 | Sorani Kürtçesi | 2 |
| 10 | Malayca | 29 | 33 | Danca | 2 |
| 11 | Tayca | 29 | 34 | Özbek Türkçesi | 1 |
| 12 | Farsça | 29 | 35 | Tagalogca | 1 |
| 13 | Arapça | 18 | 36 | Hintçe | 1 |
| 14 | Fransızca | 16 | 37 | Arnavutça | 1 |
| 15 | Birmanca | 15 | 38 | Bulgarca | 1 |
| 16 | Peştuca | 15 | 39 | Çekçe | 1 |
| 17 | Bengalce | 9 | 40 | Romanca | 1 |
| 18 | Çince | 7 | 41 | Fince | 1 |
| 19 | Svahilice | 7 | 42 | Lezgice | 1 |
| 20 | Portekizce | 6 | 43 | Macarca | 1 |
| 21 | İsviçre resmî dilleri | 6 | 44 | Felemenkçe | 1 |
| 22 | Malayca | 5 | 45 | Emherice | 1 |
| 23 | Lehçe | 5 | 46 | Yorubaca | 1 |

Ayrıca kitap basımı faaliyetleriyle birlikte 21 dergi Uluslararası Ehl-i Beyt Kongresi bünyesinde çeşitli dillerde yayınlanmaktadır.

**EK-3:** İran'ın Yurt Dışını Hedef Alan Yayın Faaliyetleri

| İran'ın Yurt Dışına Yönelik Yayınları | | | |
|---|---|---|---|
| **Medya Türü** | **Adı** | **Dil** | **Açıklama** |
| **Gazeteler** | ✓ Iran News,<br>✓ Iran Daily<br>✓ Tehran<br>✓ Times Keyhan<br>✓ English | ✓ İngilizce | |
| | ✓ Vifak<br>✓ Keyhan | ✓ Arapça | |
| **Televizyon Kanalları** | ✓ Cam-ı Cem 1,2,3 | ✓ Farsça | ✓ Yurt dışındaki İranlılar ve Farsça bilenlere yönelik 24 saat yayın |
| | ✓ El- Âlem | ✓ Arapça | ✓ Ortadoğu'ya yönelik |
| | ✓ Seher TV 1,2,3 | ✓ Urduca,<br>✓ İngilizce,<br>✓ Boşnakça,<br>✓ Türkçe,<br>✓ Fransızca<br>✓ Kürtçe | |
| | ✓ El- Kevser | ✓ Arapça | ✓ Dini-mezhebi programlar |
| | ✓ Hispan TV | ✓ İspanyolca | ✓ Güney Amerika'ya yönelik |
| | ✓ Press TV | ✓ İngilizce | ✓ En önemli kanalı |
| **Radyo** | | | ✓ 25 dilde radyo yayını |
| **Ajans** | ✓ Ehlibeyt Haber Ajansı ABNA | | ✓ Türkçe dâhil 20 dilde yayın |

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN FORMALAŞMASI VƏ İNKİŞAFINDA NAXÇIVAN MUXTAR RESPUBLİKASI GEOSİYASİ AMİL KİMİ

**ƏDALƏT QASIMOV***

## ÖZET

Məqalədə Azərbaycan-Türkiyə münasibətlərinin formalaşması və inkişafında Naxçıvanın mühüm geosiyasi amil kimi yeri və rolu nəzərdən keçirilmiş, Azərbaycanın ən qədim türk torpaqlarından biri kimi formalaşmış Naxçıvan diyarının geosiyasi vəziyyətini müəyyənləşdirən amillər təhlil edilmişdir. Məqalədə Naxçıvan regionunun geosiyasi şəraitinin onun Azərbaycan-Türkiyə münasibətlərində əsas faktor olduğu konkret faktlar əsasında göstərilmişdir.

Məqalədə Naxçıvanın Azərbaycan-Türkiyə münasibətlərinin xüsusi faktoruna çevrilməsi və bu kontekstdə son yüz il ərzində öz prioritetini qoruyub saxlaması məsələsi öz əksini tapmışdır.

**Açar sözlər**: Naxçıvan, Türkiyə, Geosiyasi Amil, Beynəlxalq Əlaqələr, Region

* T.e.d., AMİA Bakü Tarih ve Etnoloji Enstitüsü, adaletqasimov56@mail.ru.

# THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AS A GEOPOLITICAL FACTOR TO AZERBAIJANI-TURKISH RELATIONS


## ABSTRACT

The article considers the place and role of Nakhchivan as an important geopolitical factor in the formation and development of Azerbaijani-Turkish relations, analyzes the factors determining the geopolitical situation in Nakhchivan, which was formed as one of the oldest Turkic lands in Azerbaijan. The article shows on the basis of concrete facts that the geopolitical situation in the Nakhchivan region is a key factor in its Azerbaijani-Turkish relations.

The article follows the issue of Nakhchivan becoming a special factor in the Azerbaijani-Turkish relations and maintaining its priority in this context for the last hundred years.


**Keywords**: Nakhchivan, Turkey, Geostrategical Factor, International Relations, Region

**Giriş**

Müasir dövrdə, qloballaşmanın və dövlətlərarası inteqrasiya proseslərinin getdikcə gücləndiyi şəraitdə, dövlətlərin tərkibinə daxil olan inzibati-ərazi vahidlərinin həmin dövlətlərin xarici əlaqələr sistemində rolunun artması beynəlxalq münasibətlərin mühüm amilinə çevrilməkdədir. Bir çox ölkələrdə bölgələrin, onların ərazi sərhədlərindən kənara çıxan, o cümlədən xarici ticarət, mədəni əlaqələr və s. sahələrdə geniş səlahiyyətləri milli qanunvericilikdə öz əksini tapmışdır. Regionların uzun müddət dövlətlərin müstəsna kompetensiyasına aid edilən beynəlxalq münasibətlər sisteminə daxil olması, dövlətlə onun bölgələri arasında qarşılıqlı münasibətlərin siyasi-hüquqi aspektlərinin dəqiq müəyyənləşdirilməsini tələb edir.

Region dedikdə, biz birinci növbədə submilli səviyyədə fəaliyyət göstərən ərazi-siyasi vahidi başa düşməliyik. Regionun statusu, onun dövlət səviyyəsindən sonra siyasi münasibətlərdə tutduğu səviyyə ilə ölçülür. Başqa sözlə, region siyasi münasibətlərin dövlətdən sonra gələn növbəti hüquqi səviyyəsi hesab edilir. Avropa Regionlar Assambleyasının 1996-cı ildə qəbul etdiyi Avropada regionalizmə dair Bəyannamənin 1-ci maddəsində deyilir ki, region, dövlət səviyyəsindən əvvəlki səviyyəyə uyğun gələn, öz hökuməti olan və müvafiq siyasi səlahiyyətlərə malik dövlət ərazi qurumudur. Həmin maddədə regionun əsas əlamətləri də sadalanır: 1) dövlətin konstitusiyasında və ya qanununda regionun statusunun öz əksini tapması, onun muxtariyyətinin, identikliyinin, səlahiyyətlərinin və quruluş formalarının müəyyənləşdirilməsi; 2) regionun öz konstitusiyasına və ya qanununa malik olması ki, bu konstitusiya və qanunlar dövlətin hüquqi strukturunun tərkib hissəsidir.

Göründüyü kimi, milli regionlarla bağlı beynəlxalq hüququn bu şərtlərinə Azərbaycan Respublikasının bölgələri arasında əsasən Naxçıvan Muxtar Respublikasının hüquqi statusu uyğun gəlir. Azərbaycan Konstitusiyasının 7-ci maddəsində Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi təsbit edilmiş, həmin konstitusiyada Naxçıvan MR-nın statusu ayrıca fəsildə (VIII fəsil) müəyyənləşdirilmişdir. Konstitusiyanın 134-cü maddəsinə görə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan

Muxtar Respublikasının ərazisində məcburidir.[1] Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi öz konstitusiyasına malikdir. Muxtar respublikanın konstitusiyasının 1-ci maddəsinə görə, Naxçıvan Muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Həmin konstitusiyanın muxtariyyətin əsaslarını müəyyənləşdirən 2-ci maddəsinə görə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir. Lakin, Naxçıvanı dünyada mövcud olan digər muxtar ərazilərdən fərqləndirən əsas cəhət, onun statusunun Azərbaycan Respublikasının Konstitusiyası ilə yanaşı, beynəlxalq müqavilələrlə (16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri) müəyyən edilməsidir.[2] Azərbaycanın milli lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Naxçıvan MR-nın konstitusiyasına bu maddənin əlavə edilməsi, onun ərazi toxunulmazlığını təsbit edən mühüm hüquqi aktdır. Ölkənin ərazi vahidlərinin regional münasibətlərdə tutduğu mövqe, onların beynəlxalq fəaliyyəti həm xarici, həm də daxili faktorlarla şərtlənir. Xarici faktorlar iqtisadi proseslərin qloballaşması, dövlətlərarası inteqrasiya; daxili faktorlar isə siyasi sistemin desentralizasiyası, regionların iqtisadi cəhətdən asimmetrikliyi və etnik cəhətdən rəngarəngliyi ilə müəyyənləşir. Ənənəvi olaraq, regionların beynəlxalq fəaliyyəti siyasi, iqtisadi və mədəni istiqamətlərə bölünür.[3]

Azərbaycanın cənub-qərbində yerləşən, coğrafi şəraitinə görə transsərhəd ərazi hesab edilən (muxtar respublika üç xarici dövlətlə həmsərhəddir – Ə.Q.) Naxçıvan Muxtar Respublikasının Azərbaycanın beynəlxalq münasibətlərində və xarici siyasətindəki rolunun qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Naxçıvan MR-nın geosiyasi vəziyyətinin və xarici əlaqələrinin nəzərə alınması zəruriliyi təkcə Azərbaycan dövlətinin vahid xarici siyasət doktrinasının həyata keçirilməsi tələblərindən irəli gəlmir, eyni zamanda bölgənin yaşadığı ağır siyasi, iqtisadi və nəqliyyat şərtləri ilə müəyyənləşir.

Muxtar respublikanın beynəlxalq fəaliyyət potensialı bir çox faktorlardan asılıdır və əsasən də bölgənin coğrafi yerləşməsi, resursların əlçatarlığı, istifadə

---

1 Azərbaycan Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/897, Giriş tarixi: 16.04.2021.

2 Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/1755, Giriş tarixi: 16.04.2021.

3 Lecours A,. **Political Issues ofPparadiplomacy. Lessons of Development World**, Diplomatic Studie, Гаага 2008, p. 3.

edilmə səmərəliliyi və regionda cərəyan edən prosesləri nəzərə alaraq onun ölkənin xarici siyasi kursunun həyata keçirilməsində oynaya biləcək rolu ilə müəyyən edilir. Bu baxımdan, Naxçıvan MR böyük regional resurslara malikdir ki, bu resurslar mühüm məqsədə – regionun sosial-iqtisadi inkişafına, əhalinin rifah halının yaxşılaşdırılmasına, eləcə də Azərbaycan dövlətinin və Naxçıvan diyarının təhlükəsizliyinin və beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edir. Naxçıvan MR-nın xarici iqtisadi və mədəni əlaqələrinin məqsəd və vəzifələri bütövlükdə Azərbaycan Respublikasının maraq və mənafeləri ilə birbaşa əlaqədə formalaşır. Yuxarıda qeyd edildiyi kimi, Naxçıvan MR çox böyük iqtisadi potensiala malikdir. Bu, o deməkdir ki, qonşu dövlətlər üçün Azərbaycan Respublikası ilə qarşılıqlı münasibətlər kontekstində onun tərkib hissəsi olan Naxçıvan MR ilə əməkdaşlıq etmək çox sərfəlidir.

Artıq qeyd edildiyi kimi, ölkənin regionlarının dövlətin xarici siyasət kursunun həyata keçirilməsində iştirakı həmin regionların geosiyasi vəziyyəti, etno-siyasi və tarixi inkişaf xüsusiyyətləri, dövlətçilik ənənələri kimi amillərlə sıx əlaqədardır. Bu amillər kontekstində Naxçıvan Muxtar Respublikasının geosiyasi şəraiti digər amillərlə, xüsusən etno-siyasi amillərlə müqayisədə daha çox əhəmiyyət kəsb edən amildir. Məlum olduğu kimi, Naxçıvan tarixin uzun dövrü ərzində Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi onun dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynamışdır. Naxçıvan əhalisinin mütləq əksəriyyətini etnik azərbaycanlılar təşkil edir və bu amil regionun Azərbaycanla həm də mədəni-milli vahidliyini özündə təcəssüm etdirir. Başqa sözlə, Naxçıvan heç vaxt özünü Azərbaycan dövlətçiliyindən kənarda təsəvvür edən, separatçı hərəkətlərin mövcud olduğu ərazi vahidi olmamışdır. Düzdür, 90-cı illərin əvvəllərində Naxçıvanın çətin vəziyyətində ona başçılıq etmiş Heydər Əliyevin bölgəni erməni işğalından qorumaq üçün atdığı addımları, xüsusən qonşu dövlətlərlə əlaqə yaratması, muxtar respublikanın yaşadığı problemlər haqqında obyektiv məlumatları dünya ictimaiyyətinə çatdırmaq üçün böyük dövlətlərin liderlərinə, beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərini o zamankı Azərbaycan iqtidarları siyasi separatizm kimi qələmə verməyə cəhd etsələr də, tarix Heydər Əliyevin uzaqgörənliyini, onun tənqidçilərinin isə korafəhmliyini sübut etdi.

Naxçıvanın Yaxın Şərq və Qafqaz regionunun mühüm subregional geosiyasi faktor kimi formalaşmasının kökləri qədim dövrlərə gedib çıxsa da (bu zaman müxtəlif imperiyaların və dövlətlərin bölgə uğrunda çoxəsrlik mübarizə tarixini

yada salmaq kifayətdir – Ə.Q.), onun Azərbaycan-Türkiyə münasibətlərinin xüsusi faktoruna çevrilməsi yaxın yüz ildən bir qədər çox dövrə – bilavasitə I Dünya müharibəsinin son dövrlərinə təsadüf edir. Bu baxımdan, Naxçıvan regionunun geosiyasi şəraiti onun beynəlxalq fəaliyyətini şərtləndirən əsas amil olduğu kimi, Azərbaycan-Türkiyə münasibətlərində də əsas faktor kimi ortaya çıxır.

Müharibənin nəticəsi olaraq Rusiya imperiyasının dağılması və Cənubi Qafqazda baş vermiş sosial-siyasi hadisələr Naxçıvan regionuna və ətrafına da öz təsirini göstərdi. Bir qədər sonra, Cənubi Qafqazda milli respublikaların yaranması Naxçıvanın həm yeni yaranmış Azərbaycan Respublikası, həm də Ermənistan Respublikası arasında, eləcə də bu respublikalarla Osmanlı İmperiyası və Qacarlar İranı arasında münasibətlərin episentrinə çevrilməsinə səbəb oldu. Məhz 1918-ci ildən başlayaraq Naxçıvan Azərbaycan-Türkiyə qarşılıqlı münasibətlərində əsas amillərdən birinə çevrilməyə başladı ki, bunun da başlıca səbəbi bir tərəfdən Naxçıvanın coğrafi mövqeyi ilə əlaqədar idisə, digər səbəbi isə Ermənistanın bu ərazini ələ keçirmək cəhdləri ilə bağlı idi. 1918-ci il iyunun 4-də Osmanlı İmperiyasının müstəqilliyini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti ilə Ararat Respublikası arasında bağlanmış Batum müqavilələri Naxçıvanın milli-ərazi statusunun hüquqi cəhətdən təsbit edilməsi istiqamətində qəbul edilmiş ilk sənəd oldu. Maraqlıdır ki, Batum müqaviləsinə görə, Naxçıvan ərazisi faktik olaraq Azərbaycanla Türkiyə arasında bölüşdürülmüş və Ordubad mahalı istisna olmaqla, Naxçıvanın digər əraziləri Türkiyəyə qatılmışdı[4]

1918-1920-ci illər ərzində Naxçıvanda və ətrafında baş vermiş proseslərin təfərrüatlarına varmadan yalnız onu qeyd etmək kifayətdir ki, bu dövrdə Ermənistanın xarici qüvvələrin dəstəyi ilə Naxçıvanı ələ keçirmək cəhdləri uğursuzluqla nəticələnmişdi. Bunun da əsas səbəbləri arasında naxçıvanlıların erməni işğalına qarşı qətiyyətli mübarizəsi, Azərbaycan Cümhuriyyətinin bölgə üzərində öz suveren hüquqlarını təsbit etmək uğrunda atdığı siyasi-diplomatik addımlar və Türkiyənin bölgənin türk əhalisinin müdafiəsi istiqamətində həyata keçirdiyi hərbi-siyasi tədbirlər olmuşdur.

Yeri gəlmişkən, bu dövrdə Azərbaycan-türk amilinin Naxçıvan əhalisinin milli-etnik və ərazi kimliyinin inkişafında aparıcı amil olduğu nəzərə çarpır.

4 Договор дружбы между императорским Оттоманским Правительством и Азербайджанской Республикой. Батум 4 июня 1918 года // Азербайджанская Демократическая Республика: Внешняя политика (Документы и материалы), Баку: Азербайджан, 1998, с.14-17.

Eyni zamanda, məhz bu dövrdə Qafqaz İslam Ordusunun apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində Naxçıvan da Azərbaycan-Türkiyə birgə hərbi əməkdaşlığının uğurla nəticələndiyi ərazilərdən biri olmuşdur. Bu gün də Naxçıvan MR ərazisində uğurla həyata keçirilən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı, 1918-ci ildə qoyulmuş ənənənin məntiqi davamı olaraq bölgənin təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayır.

Cənubi Qafqaz ərazisi 1920-ci ildə Qırmızı Ordu tərəfindən işğal edildikdən sonra, Naxçıvanın Sovet Rusiyası, Azərbaycan, Ermənistan və Kamalçı Türkiyə ziddiyyətlərinin toqquşduğu əsas bölgəyə çevrilməsi bölgənin geosiyasi əhəmiyyətini daha da artırmış oldu. Artıq sovetləşmiş Ermənistanın Naxçıvanı bolşeviklərin dəstəyi ilə ələ keçirmək səyləri, bu dəfə də ilk növbədə Türkiyənin yeni liderlərinin (Mustafa Kamal, Kazım Qarabəkir və başqalarının) qətiyyətli mövqeyi sayəsində baş tutmadı. Məhz sonuncuların, eləcə də N. Nərimanovun milli mövqeyi RSFSR və Sovet Ermənistanı rəhbərliyini Naxçıvanın ərazi statusunu əbədi olaraq Azərbaycanın ayrılmaz hissəsi kimi tanımağa məcbur etdi. Naxçıvan regionunun yeni geosiyasi statusu özünün beynəlxalq-hüquqi təsbitini 1921-ci ilin 16 martında bağlanmış Moskva müqaviləsinin III maddəsində tapdı (həmin maddəyə görə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edirdi). [5] Türkiyənin üç Cənubi Qafqaz sovet respublikası arasında münasibətləri tənzimləmək məqsədilə bağladığı 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsi də Moskva müqaviləsinin Naxçıvanın ərazi statusu ilə bağlı müvafiq maddəsini təsdiq etdi. Etiraf etmək lazımdır ki, yeni Türkiyə rəhbərliyinin təkidləri sayəsində həmin müqavilələrdə Türkiyə ilə Naxçıvan (deməli, Azərbaycan) arasında 12 km-lik ümumi sərhədin təsbit edilməsi, Naxçıvanın gələcək taleyi və Azərbaycan-Türkiyə əlaqələrinin gələcəyi baxımından mühüm hadisə hesab edilməlidir.

Bu müqavilələr imzalayan dövlətlərin ali orqanları tərəfindən ratifikasiya edildikdən sonra hüquqi qüvvəyə mindi və bununla da Naxçıvanın geosiyasi özəlliyini özündə təcəssüm etdirən milli-ərazi (muxtariyyət) statusu əbədi müəyyənləşdirildi. Bu baxımdan, müasir Ermənistanın müxtəlif revanşist dairələrinin bu müqavilələri, xüsusən onların Naxçıvanla bağlı müvafiq maddələrinin guya hüquqi cəhətdən qüvvədən düşdüyünü iddia etmələri və onları ləğv etmək cəhdləri əvvəldən uğursuzluğa məhkumdur.

---

5 Московский договор между Россией и Турцией, 16 марта 1921 года http://www.doc20vek.ru/node/4149, (Giriş tarixi: 16.04.2021)

2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən birlikdə imzaladıqları Müttəfiqlik münasibətləri haqqında Bəyannamədə...[6] də tərəflər iki dost və qardaş ölkə arasında bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdilər.

Sovet hakimiyyətinin ilk illərində Naxçıvanın Azərbaycan-Türkiyə münasibətləri baxımından geosiyasi əhəmiyyətini artıran amillər arasında həmin illərdə bolşeviklər tərəfindən Azərbaycanın Zəngəzur bölgəsinin Ermənistana verilməsi öz təsirini göstərdi. Bu xəyanət aktı sayəsində Naxçıvanın Azərbaycanın əsas əraziləri ilə quru əlaqələri kəsilmiş, türk dünyasının coğrafi birliyinə böyük zərbə vurulmuşdur. Azərbaycanın gələcək inkişafına və milli təhlükəsizliyinə etibarlılığına Heydər Əliyevin də qeyd etdiyi kimi, əgər o zaman Zəngəzur Ermənistana verilməsəydi, bəlkə də Naxçıvanın muxtariyyatına heç ehtiyac da olmazdı. Bu gün Azərbaycanın lideri İlham Əliyevin 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq Naxçıvanla Azərbaycan arasında quru əlaqələri (Zəngəzur dəhlizini) bərpa etmək qətiyyəti, 100 il bundan əvvəl Azərbaycanın parçalanmasına yönəlmiş xəyanətkar addımın nəticələrinin aradan qaldırılmasına yönəlmişdir.

Sovet dövründə SSRİ-nin bütün sərhəd əraziləri kimi, Naxçıvan da MSSR-nin qonşu dövlətlərlə əlaqələrinin qadağan edilməsi və onun sərhədləri boyunca "tikanlı çəpər"in çəkilməsi muxtar respublikanın Azərbaycan-Türkiyə münasibətlərində geosiyasi əhəmiyyətinin müvəqqəti olaraq azalmasına səbəb oldu. Lakin XX əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının güclənməsi, Ermənistanın muxtar respublika ərazisinə silahlı hücumları və onu nəqliyyat blokadasına salması Naxçıvanın geosiyasi amil kimi əhəmiyyətini yenidən ön plana çıxardı, ərazicə bu kiçik bölgəni "taleyin ümidinə buraxılmış ada"ya (Heydər Əliyev) çevirdi. Lakin Naxçıvanın bəxti onda gətirdi ki, onun taleyinin həll olunduğu ən mürəkkəb məqamda muxtar respublikaya rəhbərliyi dünya siyasətinin nəhəng simalarından biri, Heydər Əliyev, öz üzərinə götürdü (3 sentyabr 1991-15 iyul 1993). Onun regionu erməni işğalından xilas etmək üçün atdığı addımlar Azərbaycanın istiqlal

6 Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi, 16 iyun 2021. https://president.az/articles/52122, (Giriş tarixi: 16.04.2021)

tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Heydər Əliyev blokadaya salınmış

Naxçıvanın Türkiyə ilə (eləcə də İranla) əlaqələr yaradılmasına strateji önəm verərək, məhz bu əlaqələr sayəsində bölgəni labüd fəlakətdən – erməni təcavüzündən xilas etdi. Heydər Əliyev özü dəfələrlə Naxçıvanın 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələrin, bütövlükdə Türkiyənin dəstəyinin çox mühüm rol oynadığını qeyd etmişdir.

1992-ci ilin martında Türkiyəyə səfəri zamanı keçirdiyi çoxsaylı görüşlərdə Qars müqaviləsini yenidən gündəmə gətirməklə, Türkiyə ilə Naxçıvan arasında əməkdaşlıq haqqında sənəd[7] imzalamaqla Heydər Əliyev Naxçıvanın geosiyasi faktor kimi yenidən regional münasibətlərin önəmli amilinə çevrilməsinə nail oldu. Heydər Əliyev şəxsən Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında bağlanmış əməkdaşlıq protokolunu "böyük əhəmiyyətə malik tarixi sənəd" kimi qiymətləndirmişdir. 1992-ci ilin mayında Ermənistan Naxçıvanı ələ keçirmək üçün genişmiqyaslı hərbi əməliyyatlara başlayarkən, Naxçıvanı real işğaldan Heydər Əliyevin gərgin siyasi-diplomatik addımları və Türkiyənin birmənalı mövqeyi xilas etmişdir. 1992-ci il mayın 18-də Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistanın Naxçıvana təcavüzünün dayandırılması üçün Türkiyəyə müraciətinə cavab olaraq, Türkiyə hökuməti xüsusi bəyanatla çıxış etmiş və 1921-ci il Qars müqaviləsinə əsasən, Naxçıvanın muxtariyyətinin qarantı olduğunu bildirmişdir. Azərbaycan-Türkiyə strateji əlaqələrinin inkişafında, muxtar respublikanın iqtisadi blokadasının yarılmasında 1992-ci il mayın 28-də "Sədərək-Dilucu" körpüsünün ("Ümid" körpüsü) açılması da mühüm hadisəyə çevrilmişdir.

Azərbaycan-Türkiyə münasibətləri kontekstində Naxçıvan Muxtar Respublikasının geosiyasi önəmi sonrakı illərdə də öz prioritetliyini qoruyub saxlamışdır. Bu baxımdan, 2008-ci il iyununda Azərbaycan və Türkiyə liderlərinin Naxçıvandakı görüşü mühüm siyasi əhəmiyyət kəsb edirdi. Görüşün mühüm nəticələrindən biri Naxçıvanın enerji təhlükəsizliyi ilə bağlı razılığın əldə edilməsi olmuşdur; gələcəkdə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsindən sonra qazın müəyyən hissəsinin Türkiyənin Naxçıvanla həmsərhəd

---

7 Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu, 24 mart 1992-ci il. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlonmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.

bölgələrinə, daha sonra isə Naxçıvanın bu xəttə birləşməsi nəzərdə tutulurdu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Naxçıvanın bu layihəyə qoşulması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edən məsələdir.[8]

İrəli gedərək qeyd edək ki, 2021-ci ilin əvvəllərində Türkiyənin müvafiq orqanları Ərzurum-Qars-İğdır-Naxçıvan qaz kəmərinin iqtisadi əsaslandırılması və xəttin çəkilməsi üzrə planlaşdırma işlərini başa çatdırmış və Azərbaycanla Türkiyə tərəflərinə təqdim etmişdir. Buna görə də yaxın zamanlarda Azərbaycan-Türkiyə əməkdaşlığının daha bir yüksək nümunəsinin şahidi olacağıq.

Eyni zamanda, Naxçıvan görüşündə bölgəni nəqliyyat blokadasından çıxarmaq üçün Naxçıvanın Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə birləşməsi məsələsi də müzakirə olunmuşdur. Türkiyə hökuməti regional əməkdaşlığı gücləndirmək məqsədilə üç dövləti – Türkiyə, Azərbaycan və İranı əhatə edəcək sərhəd qapısının yaradılması üzrə də iş aparır.

2009-cu il oktyabr ayının 2-də və 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi muxtar respublikanın bütün türk dövlətləri arasında geosiyasi rolunun artmasında önəmli rol oynamışdır.[9] Məhz Türkdilli dövlətlərin başçılarının Naxçıvanda keçirilmiş IX Zirvə Toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradılmış, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə TÜRKSOY Fondu təsis edilmişdir. İki yaxın dövlət arasında münasibətlərin yeni mərhələyə çıxmasında 2020-ci ilin fevralında keçirilmiş Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası və iclasda qəbul edilmiş, müxtəlif sahələri əhatə edən və mühüm strateji əhəmiyyətə malik 14 sənədin imzalanması mühüm rol oynamışdır. Həmin sənədlərin bir çoxu bilavasitə Naxçıvanla bağlı idi.[10] İclasda "Qars-İqdır-Aralıq-Dilucu-Sədərək dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması bunun əyani nümunəsidir. Azərbaycan Prezidenti bu layihəni "xüsusi əhəmiyyət daşıyan məsələ" adlandıraraq demişdir: "Ermənistanın işğalçı siyasətinə görə, Naxçıvan uzun illərdir, demək olar ki, blokada, yəni müharibə şəraitində yaşayır. Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problemdir. Qars-İqdır-Naxçıvan

8 "Azərbaycan" qəzeti, 2008-ci il, 05 iyun

9 https://azertag.az/.../NAXCHIVAN_ZIRVA_GORUSU_TUR..., (Giriş tarixi: 17.04.2021)

10 Azərbaycan-Türkiyə sənədləri imzalanıb 25 fevral 2020, Azərbaycan-Türkiyə sənədləri imzalanıb 25 fevral 2020, https://president.az/articles/35963, (Giriş tarixi: 17.04.2021)

dəmir yolunun tikintisi bu problemi aradan qaldıracaq və beləliklə, Azərbaycanla Türkiyə arasında yeganə quru sərhəd olan Naxçıvan Muxtar Respublikasının inkişafı və rifah halı daha da yaxşılaşacaqdır”. [11]

Adı çəkilən xətt, iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də mühüm siyasi əhəmiyyətə malik bir hadisədir. Bu dəmir yolu xəttinin çəkilməsi, Naxçıvanın blokadadan çıxarılması baxımından da əhəmiyyətli bir addımdır. Ermənistanla sərhəddə yerləşən Naxçıvanın mövqelərinin inkişaf etdirilib möhkəmləndirilməsinə xidmət edən bu layihə, hərbi cəhətdən də əlverişli bir addım hesab olunur. Sonrakı proseslər, həmin sənədlərdə öz əksini tapmış layihələrin uzaq strateji məqsədlər güddüyünü təsdiqləmişdir. Bu layihənin reallaşdırılması nəticəsində yarana biləcək gerçəkliyin mahiyyəti, bu gün daha aydın sezilir. Məlum olduğu kimi, 10 noyabr 2021-ci il tarixli bəyanatın əsas müddəalarından biri də bölgədə nəqliyyat kommunikasiyasının bərpa edilməsi ilə bağlıdır ki, bu maddə Azərbaycanın şərq rayonları ilə Naxçıvan MR-ını birləşdirən, Ermənistanın Mehri rayonu ərazisindən keçən dəmir yolu və avtomobil yolunun bərpa edilməsini nəzərdə tutur. Açılacağına şübhə olmayan (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, Ermənistan bunu istəsə də, istəməsə də, biz bu yolu açacağıq) bütün türk dünyası üçün strateji əhəmiyyətə malik olub, Türkiyəni Azərbaycanla daha yaxın məsafədə birləşdirəcək. Daha sonra isə Mərkəzi Asiyanın türk ölkələrinə, daha sonra isə Çinə qədər gedib çıxacaq bu yol, Naxçıvanın nəqliyyat qovşağı kimi geosiyasi əhəmiyyətini daha da artıracaqdır. Bakı-Ələt-Mincivan-Ağbənd-Ordubad-Culfa-Naxçıvan-Sədərək yolunun açılması nəticəsində bu yol, Qars-İqdır-Aralıq-Dilucu yolu və daha sonra isə Bakı-Tbilisi-Qars dəmir yolu ilə birləşərək, Ermənistanı tam nəqliyyat əhatəsinə alacaqdır. Gələcəkdə bu yolun, Culfa vasitəsilə İran İslam Respublikasının dəmir yoluna, Təbriz-Qəzvin-Məşhəd magistralına çıxışı nəzərdə tutulur. Bununla da, faktiki olaraq, Naxçıvan Avropanı Asiya ilə birləşdirən nəhəng Avrasiya nəqliyyat sisteminin mühüm qovşağına çevriləcəkdir. Bu layihələrin gerçəkləşdirilməsi, həm Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, turizmin dirçəldilməsinə, həm də regionun ixrac potensialının genişləndirilməsinə, dünya bazarına çıxmasına, onun xarici əlaqələrinin şaxələnməsinə imkan yaradacaqdır.

Azərbaycan-Türkiyə münasibətlərində Naxçıvanın geosiyasi əhəmiyyətini artıran mühüm amil, tərəflər arasında hərbi əməkdaşlıqdır. Son illərdə bu

11 http://www.anl.az/down/meqale/kaspi_az/2020/fevral/704844.htm.

əməkdaşlığın bariz nümunəsi olaraq, Azərbaycan Silahlı Qüvvələri ilə Türkiyə Silahlı Qüvvələri arasında Naxçıvanda bir neçə taktiki təlimlər keçirilmişdir və bu gün bu əməkdaşlığın konkret nəticəsi göz qabağındadır. Dünyanın bir çox hərbi ekspertlərinin də qənaətinə görə, 2020-ci il II Qarabağ müharibəsində Ermənistanı Naxçıvana birbaşa təcavüzdən çəkindirən əsas amil, məhz Türkiyənin qətiyyətli mövqeyi və Naxçıvanda Azərbaycan-Türkiyə hərbi əməkdaşlıq reallığıdır. Müharibə dövründə ölkənin əsas ərazisi ilə quru rabitəsi olmayan Naxçıvanın müdafiə qüdrəti, məhz Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının nəticəsi sayılmalıdır.

Heç də təsadüfi deyil ki, 44 günlük Vətən Müharibəsinin nəticəsi olaraq imzalanmış və Dağlıq Qarabağ münaqişəsinin artıq həll edildiyini təsdiq edən, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin 10 noyabr 2021-ci il tarixli məlum bəyanatında Naxçıvan MR-nın Ermənistan tərəfindən 30 illik blokadasının aradan qaldırılması haqqında xüsusi bənd də öz əksini tapmışdır.[12] 15 iyun 2021-ci il tarixli bəyannamədə Azərbaycan, Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirdiyini bildirmişdir. Həmin bəyanatda Azərbaycan və Türkiyə dövlətləri, Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklərini və bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyətinin nəzərə alınacağını xüsusi qeyd etmişlər.[13]

**Nəticə:**

Bu gün hələ də Ermənistan tərəfdən iqtisadi və nəqliyyat blokadasında yaşayan Naxçıvan Muxtar Respublikası, Azərbaycan-Türkiyə münasibətlərində yüz ildən artıq davam edən geosiyasi əhəmiyyətini qoruyub saxlayır. 44 günlük Vətən müharibəsindən sonra işğal altındakı torpaqlarını azad etdikdən və ərazi

12 Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 10 noyabr 2020, https://president.az/articles/45923, (Giriş tarixi: 16.04.2021)

13 Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi, 16 iyun 2021, https://president.az/articles/52122

bütövlüyünü təmin etdikdən sonra Azərbaycanın strateji hədəflərindən biri də Naxçıvanın blokadasına son qoyaraq onun ana vətənlə quru əlaqəsini təmin etməkdir. Müharibədən sonra Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət, Zəngəzur dəhlizinin açılması ilə bağlı göstərdiyi qətiyyət bizdə inam yaradır ki, Azərbaycan bu hədəfə də çatacaq və bu da öz növbəsində Naxçıvanın regionda inkişaf edən proseslərdə geosiyasi faktor rolunu daha da artıracaqdır. Bu gün tam əminliklə demək olar ki, Naxçıvanın təhlükəsizliyi təkcə Azərbaycan Respublikasının deyil, həm də Türkiyə Respublikasının təhlükəsizlik sisteminin tərkib hissəsinə, vacib elementinə çevrilib. Bu gün Türkiyə-Azərbaycan əlaqələrinin mövcud vəziyyəti, bununla bağlı imzalanan sənədlər, o cümlədən 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsi, əminlik yaradır ki, "bir millət, iki dövlət" olan Azərbaycanla Türkiyə arasında münasibətlər, ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının gələcək sosial-iqtisadi inkişafının və təhlükəsizliyinin təmin edilməsinə də müsbət təsir göstərəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat:**

Azərbaycan Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/897.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/1755.

Lecours A. Political Issues of paradiplomacy. Lessons of Development World // Diplomatic Studie. Гаага, 2008, p. 3.

Договор дружбы между императорским Оттоманским Правительством и Азербайджанской Республикой. Батум 4 июня 1918 года // Азербайджанская Демократическая Республика: Внешняя политика (Документы и материалы), Баку: Азербайджан, 1998, с.14-17.

Московский договор между Россией и Турцией, 16 марта 1921 года http://www.doc20vek.ru/node/4149

Карсский договор от 13 октября 1921 года.https://www.virtualkarabakh.az/ru/post-item/32/132/qars-muqavilesi-1921-ci-il-13-oktyabr.html.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. 16 iyun 2021. https://president.az/articles/52122

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu, 24 mart 1992-ci il.

Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlonmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.

Azərbaycan" qəzeti, 2008-ci il, 05 iyun

https://azertag.az/.../NAXCHIVAN_ZIRVA_GORUSU_TUR...

Azərbaycan-Türkiyə sənədləri imzalanıb 25 fevral 2020, Azərbaycan-Türkiyə sənədləri imzalanıb 25 fevral 2020, https://president.az/articles/35963

http://www.anl.az/down/meqale/kaspi_az/2020/fevral/704844.htm

Həbibbəyli İ. Azərbaycan-Türkiyə əlaqələrində yeni zirvə / Azərbaycan.-2020.-29 fevral.-№46.-S.1,4

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 10 noyabr 2020, https://president.az/articles/45923

# TÜRKİYE-AZERBAYCAN-TÜRKMENİSTAN ÜÇLÜ İŞ BİRLİĞİNİN ENERJİ BOYUTU ÜZERİNE BİR İNCELEME

**ÜLVİYYE SANILI AYDIN***

## ÖZET

Sovyetler Birliği'nin dağılmasının üzerinden tam otuz sene geçmiştir. Türkiye, eski SSCB ülkelerinin bağımsızlığını tanıyan ilk ülke olarak bu süre zarfında bölgeye yönelik çok boyutlu politikalar geliştirmeye çalışmıştır. Bu ülkeler ile zaman zaman inişli çıkışlı seyreden ilişkiler çeşitli zeminlerde yürütülmektedir. Bu bağlamda Türkiye-Azerbaycan-Türkmenistan üçlü iş birliği mekanizması özel önem arz etmektedir. Fosil kaynakların çıkarılması ve dünya enerji pazarına ulaştırılması, iç ve dış dinamiklerin yanı sıra, jeopolitik koşulların şekillendirdiği Türkiye-Azerbaycan-Türkmenistan üçlü iş birliğinin farklı bir boyutunu oluşturmaktadır. Bu çalışma, söz konusu ülkeler arasında devam eden üçlü görüşmelerin enerji boyutu üzerine odaklanmıştır. Çalışmada, Türkiye-Azerbaycan-Türkmenistan enerji iş birliğinin temel çerçevesi ortaya konarak bu iş birliğinin amaçları ve her üç ülke açısından faydaları değerlendirilmiştir.

**Anahtar Kelimeler**: AB, Azerbaycan, Doğal Gaz, Enerji, İş Birliği, Türkiye, Türkmenistan

* Prof. Dr., Dokuz Eylül Üniversitesi, İşletme Fakültesi, ulaydin91@hotmail.com.

# REVIEW OF THE ENERGY DIMENSION OF TURKIYE-AZERBAIJAN-TURKMENISTAN TRILATERAL COOPERATION


## ABSTRACT

Thirty years have passed since the collapse of the Soviet Union. Türkiye, as the first country recognizing the independence of the former USSR countries, has tried to develop multidimensional policies towards the region during this period. Relations with these countries, which are fluctuating from time to time, are carried out on various grounds. In this context, Türkiye-Azerbaijan-Turkmenistan trilateral cooperation mechanism has a special importance. The extraction of fossil resources and their delivery to the world energy market form a different dimension of trilateral Türkiye-Azerbaijan-Turkmenistan cooperation that shaped by geopolitical conditions besides internal and external dynamics. This study focused on the energy dimension of the ongoing trilateral negotiations between these countries. Revealing the basic framework of Türkiye-Azerbaijan-Turkmenistan energy cooperation, the aims of this cooperation and its benefits for all three countries have been evaluated in the study.


**Keywords**: Azerbaijan, Cooperation, EU, Natural Gas, Türkiye, Turkmenistan

## Giriş

Fosil enerji kaynaklarının dünya üzerinde düzensiz dağılımı arz-talep ilişkisine jeopolitik boyut kazandırmıştır. Gelişmiş ülkeler için fosil enerji kaynakları ekonomik kalkınmanın en önemli girdilerinden biri, fosil kaynaklara sahip gelişmemiş veya gelişmekte olan ülkeler için ise ekonomik gelir kaynağı anlamına gelmektedir. Çoğu gelişmiş ekonominin bu kaynaklardan yoksun olması özellikle petrol ve doğal gaz ihtiyacının karşılanmasını bir güvenlik meselesine dönüştürmüştür. 1970'lerde meydana gelen petrol krizleri tehdit-güvenlik algısı bağlamında devletlerin dış politikalarında yeni bir dönemin de başlangıcı olmuştur. Enerji güvenliğinin stratejik önemi, üreticiler, tüketiciler ve transit ülkeler olarak bu alanda farklı rollere sahip ülkelerin farklı eğilimleri ile örtüştüğünde, enerji güvenliği ve dış politika arasındaki etkileşim kaçınılmaz hale gelmektedir.[1] Devletlerin enerji konusunda birbirine bağımlılıkları ne kadar ise, dış politika ve enerji stratejileri de birbiriyle o kadar bağlantılıdır. Öte yandan, 2003 tarihli BM Kalkınma Programı/Dünya Bankası sınır ötesi petrol ve doğal gaz boru hatları ortak raporunda projelerin "ticari düşüncelerle" yapılması gerektiğinin altı çizilse de[2] günümüzde enerji ve siyaset özünde birbiriyle bağlantılıdır. Bir ülkenin enerji tedarikçilerine ulaşma yeteneği ve enerjiyi kullanma yolları onun ekonomisinin, millî güvenliğinin, çevresinin sürdürülebilirliğinin ve kalitesinin de durumunu belirlemektedir.

Bugün küresel toplumun yaşam tarzı ve yapısına "hidrokarbon insanı" hâkimdir. "Hidrokarbon insanı" mallar üretmekte, savaşmakta, eğlenmektedir. Ama tüm bu süreçler fosil kaynaklara düzenli erişim gerektirmektedir.[3] Dahası, fosil enerji ihracatçıları ve önemli enerji ulaşımını sağlayan transit ülkeler için enerji arzı politikası diğer ekonomik araçlar, askerî güç, diplomatik taktikler gibi siyasi cephaneliğin bir parçasıdır. Enerjide dışa bağımlı ithalatçı ülkeler için de durum farklı değildir. Bu bağlamda enerji siyasetinde güvenli ve sürdürülebilir arz-talep ilişkisi, fiyat istikrarı ve enerji erişimini sağlayan alt yapı projeleri kritik önem arz etmektedir.

---

1 Şuhnaz Yılmaz & Duygu Sever-Mehmetoğlu, "Linking Foreign Policy and Energy Security: An Asset or a Liability for Turkey", **Uluslararası İlişkiler**, 2016, C 13, S 52, s. 108.

2 ESMAP, "Cross-Border Oil and Gas Pipelines: Problems and Prospects", **UNDP/World Bank Energy Sector Management Assistance Program**, Washington, D.C, 2003.

3 Brenda Shaffer, **Energy Politics**, University of Pennsylvania Press, Philadelphia, 2009, s.1.

Enerji kaynaklarına olan talep dünya nüfusu ve ekonomik faaliyetlere paralel olarak artmaktadır. Bu artış ve çevre ve iklim değişikliği konuları karşısında yenilenebilir enerji kaynaklarının hayati önemi giderek daha çok fark edilmektedir. Diğer taraftan ise geleneksel enerji kaynaklarından yenilenebilir enerji kaynaklarına geçiş süreci maliyet, teknoloji, yatırım gibi değişik nedenlerden dolayı yavaş ilerlemektedir. Bu anlamda fosil enerji kaynakları hala daha stratejik önemini korumaktadır.

Hazar havzası ulaştırma ve ticaret açısından kritik coğrafi konumunun yanı sıra, zengin petrol ve doğal gaz kaynakları ile bilinmektedir. Uzun yıllar Rus Çarlığı ve devamında Sovyetler Birliği'nin denetimi altında keşfedilerek kullanılan kaynaklar günümüzde kıyıdaş devletlerin kendi özgür yönetimi altında işletilmektedir. Bulunduğu konum itibarıyla gelişmiş ekonomilere enerji arzı bağlamında iyi bir seçenek oluşturan Hazar enerji kaynaklarının güvenli bir şekilde dünya pazarına ulaştırılması bu anlamda önemlidir. Dolayısıyla, hem üretici hem transit hem de tüketici ülkeler arasında sıkı bir iş birliğine ihtiyaç duyulmaktadır.

Bilindiği üzere, Azerbaycan ve Türkmenistan açık denize çıkışı olmayan fosil enerji üreticisi ülkelerdir. Üç tarafı denizlerle çevrili Türkiye ise ulaştırma açısından elverişli konumu ile transit ülkedir. Aynı zamanda Türkiye, enerjide dışa bağımlı bir ülkedir. Büyüyen nüfusu ve ekonomisi ile bu ihtiyaç giderek artmaktadır.

Bu çalışmada Türkiye-Azerbaycan-Türkmenistan üçlü iş birliğinin enerji boyutu ele alınmıştır. Çalışmanın ilk bölümünde son yıllarda üç ülke arasında geliştirilen stratejik ilişkilerin arka planına yer verilmiştir. İkinci bölümde ise bu bilgiler ışığında üçlü iş birliğinin enerji boyutu ele alınmış, ulusal, bölgesel ve küresel açıdan önemine değinilmiştir. Çalışma sonuç bölümü ile tamamlanmıştır.

## Türkiye-Azerbaycan-Türkmenistan Üçlü İş Birliğinin Arka Planı

Türkiye, Azerbaycan ve Türkmenistan, kimlik zemininde birçok ortak paydada buluşan, Türk Dünyası'nın üç önemli ülkesidir. Bu devletlerden her biri kendine özgü iç ve dış dinamiklerinin şekillendirdiği politikalarla uluslararası sistemin bir parçasıdır. Üç kıtaya hükmeden bir imparatorluk üzerine inşa edilen Türkiye Cumhuriyeti, devletçilik gelenekleri, evrensel değerler ve "Yurtta sulh, cihanda sulh" ilkesine dayalı çok yönlü siyaseti ile Avrasya bölgesinin etkin aktörlerindendir. Eski SSCB ülkeleri olarak bilinen Azerbaycan ve Türkmenistan jeostratejik konumlarının yanı sıra Hazar havzasının petrol ve doğal gaz zengini iki devletidir. Bağımsızlık kazandıktan sonra Azerbaycan uluslararası hukuk ve evrensel değerler çerçevesinde akılcı ve çok taraflı bir dış politika benimserken

Türkmenistan yeni dönemde tarafsız bir dış politika izlemeyi tercih etmiştir. Sovyetler Birliği'nin dağılması Türkiye, Azerbaycan ve Türkmenistan arasında ikili ve üçlü ilişkilerde yeni bir dönem başlatmıştır.

Bilindiği üzere, Türkiye eski SSCB ülkelerinin bağımsızlığını tanıyan ilk devlettir. 1991 yılından beri Türkiye, bu ülkelerle sıkı iş birliği kurma çabası içerisine girmiştir. Ne var ki, Türkiye'nin (aynı zamanda Azerbaycan'ın) bu girişimleri Azerbaycan ile (aynı zamanda Türkiye ile) karşılıklı ve çok boyutlu zeminde stratejik ortaklığa dönüşürken Türkmenistan ile beklentilerin gerisinde kalmıştır. Türkmenistan'ın başvurusu üzerine 1995 yılında BM'nin bu ülkenin sürekli tarafsızlık statüsünü onaylayan kararı Türkmen dış politikasının temelini oluşturmuştur. Böyle bir statü Türkmenistan'ı, çevresinde bulunan karışıklıklardan uzak tutsa da, özellikle 2000'li yılların başında hız kazanan küreselleşme döneminde ülkenin ticaret, yatırım, finans, teknoloji, enerji, lojistik gibi önemli alanlarda bölgesel ve uluslararası girişimlerle kapsamlı şekilde bütünleşememesine de neden olmuştur. Türkmenistan açık denizlere çıkışı bulunmayan bir kara ülkesidir. Dolayısıyla, kapalı bir deniz olan Hazar havzasında, eski lideri Niyazov tarafından sıkı bir şekilde sahiplenilen sürekli tarafsızlık statüsü kimliği ile 13.6 trilyon $m^3$'lük rezerve sahip[4], Rusya, İran ve Katar'dan sonra dünyanın dördüncü doğal gaz zengini olarak bilinen Türkmenistan'ın bağımsızlık sonrası dönemde hak ettiği kalkınmayı sağladığı söylenemez. Söz konusu durum, haliyle Türkiye-Türkmenistan ilişkilerine de yansıyarak karşılıklı iş birliğinin azami düzeyden ileriye taşınmasına olanak tanımamıştır. Diğer taraftan, Türkiye, hem ikili ilişkilerde hem de farklı bölgesel ve uluslararası platformlarda Türkmenistan'ın bağımsızlık sonrası ulus kimlik kazanma sürecine tam desteğini esirgememiştir. Dış politika, ticaret ve ekonomi, kültür ve eğitim üzerine yoğunlaşan ilişkiler olumlu seyirde devam etmiştir.[5] Türkmen doğal gazını Türkiye'ye ulaştıracak olan bağlantının eksikliği iki ülke arasındaki enerji iş birliğinin istenilen seviyede gelişmesini engellemiştir. Türkiye'nin Rusya ile "Mavi Akım" projesi üzerinde anlaşması ikili görüşmelerde tartışma bile yaratmıştır.[6]

---

4 BP, **"Statistical Review of World Energy",** 70th Edition, 2021, https://www.bp.com/content/dam/bp/business-sites/en/global/corporate/pdfs/energy-economics/statistical-review/bp-stats-review-2021-full-report.pdf, Erişim Tarihi: 28 Temmuz 2021.

5 T.C. Dışişleri Bakanlığı, **"Türkiye-Türkmenistan Siyasi İlişkileri",** 2021, https://www.mfa.gov.tr/turkiye-turkmenistan-siyasi-iliskileri.tr.mfa, Erişim Tarihi: 28 Temmuz 2021.

6 Harun Gürek, "Moskova'da Ne İşiniz Var?" **Milliyet,** 7 Ekim 1999, https://www.milliyet.com.tr/ekonomi/moskovada-ne-isiniz-var-5237093, Erişim Tarihi: 28 Temmuz 2021.

Her ne kadar bazı dinamikleri farklı olsa da aynı durum Azerbaycan-Türkmenistan ilişkileri açısından da geçerlidir. Hazar Denizi üzerinden ortak sınırlara sahip olan bu iki devlet arasındaki ilişkiler denizin hukuki statüsü anlaşmazlığından olumsuz etkilenmiştir. Bağımsızlık kazandıktan sonra her iki ülke için fosil enerji kaynaklarını ekonomik kalkınma amacıyla ve özgürce kullanma fırsatı doğmuştur. Bununla birlikte, 1970 yılında Sovyet yönetimi tarafından Hazar Denizi'nin orta hat prensibi kullanılarak millî sektörlere bölünmesi[7], buradaki bazı işlenmemiş zengin doğal gaz ve petrol yataklarını Azerbaycan ve Türkmenistan arasında tartışmalı konu haline getirmiştir.[8]

**Şekil 1.1.** Hazar Denizi'nin Millî Sektörleri[9]




O dönemde kısıtlı teknolojik imkânlar Hazar Denizi'ndeki bütün yatakların tespit edilmesine olanak tanımamıştır. 1970'de denizin Azerbaycan ve Türkmenistan'a ait bölümlerini belirleyen orta hat, daha sonraki yıllarda keşfedilecek olan yataklardan geçmekteydi. İki ülke arasındaki deniz sınırında bulunan rezervlere Azerbaycan tarafı tartışmalı yataklara "Kepez", Türkmen

7 Şekil 1.1.

8 Ülviyye Aydın, "Hazar Denizi'nin Hukuki Statüsü Bağlamında Azerbaycan-Türkmenistan Anlaşmazlığı", **Avrasya Dünyası**, S 3, 2018, s. 21.

9 Orhan Hun, "Hazar'ın Hukuki Statusu Tenzimlendi: Tarihi Razılaşma", **Milli.Az**, 13 Ağustos 2018, https://news.milli.az/politics/676049.html, Erişim Tarihi: 25 Ağustos 2021.

tarafı ise "Serdar" adını vermiştir.[10] Bu durum her iki tarafın da söz konusu kaynaklar üzerinde kısmen veya tamamen hak iddia etmesine yol açmış, ortak iş birliği fırsatlarını engellemiştir. Dolayısıyla, Azerbaycan-Türkmenistan ilişkileri Hazar Denizi'nin hukuki statüsündeki belirsizliğin gölgesinde gelişmiştir. Hazar Denizi'ni uzunca bir süre ortak kullanan Rusya ve İran'ın havzada etkisini kaybetmemek için yürüttüğü politikalar Azerbaycan-Türkmenistan anlaşmazlığını körüklemiştir. Hazar Denizi'nin hukuki statüsündeki belirsizlik benzer şekilde Türkmen gazını Türkiye üzerinden Avrupa'ya taşıyacak Trans-Hazar boru hattının inşasını da geciktirmiştir.

**Şekil 1.2.** Azerbaycan-Türkmenistan Deniz Sınırındaki Yataklar[11]




10 Şekil 1.2.

11 Muhammed Türkmen, "Hafiz Paşayev Türkmenistan'a Neden Gitti?", **Müsavat**, 3 Eylül 2014, https://musavat.com/news/hafiz-pasayev-turkmenistana-ne-ucun-gedib_212647.html, Erişim Tarihi: 25 Ağustos 2021.

Üç ülke arasındaki ilişkileri sadece ulusal değil, uluslararası ve küresel etkenler de şekillendirmiştir. Bu ülkelerle daha yakın ilişkiler kurmaya çalışan Ankara'nın, esasen Sovyet döneminde onları denetim altında tutan ve Moskova'nın arka bahçesinde nüfuzunu genişletmek isteyen bir NATO üyesine sıcak bakmayan Rusya ile olan çekişmesi bunlardan sadece bir tanesidir. Başka bir örnek vermek gerekirse, son yıllarda ortaya çıkan uluslararası konjonktür çerçevesinde sıkışan Rusya ve İran'ın durumu, Ağustos 2018 tarihinde kıyıdaş devletler arasında Hazar Denizi'nin hukuki statüsünü belirleyen konvansiyonun imzalanması yolunu açmıştır. Konvansiyon ile kıyıdaş devletler arasında Hazar Denizi'ne özel bir statü tanınması konusunda mutabakata varılmıştır.

Rusya ile yaşanan doğal gaz krizleri ve Ukrayna meselesi AB'nin alternatif enerji tedarikçileri arayışını hızlandırmıştır. Tam da bu dönemde meydana gelen Türkmenistan'daki hükûmet değişikliği sadece Türkiye-Türkmenistan ve Azerbaycan-Türkmenistan ikili ilişkileri açısından değil, genel olarak bu ülkenin dış politikasında da dışa açılma bağlamında yeni bir dönem başlatmıştır.

Türkiye-Azerbaycan-Türkmenistan üçlü iş birliği girişimi bu gelişmeler ışığında şekillenmiş, Türkiye'nin yoğun girişimleri ve Azerbaycan ile Türkmenistan'ın yakın destekleri ile üç kardeş devlet arasındaki ilişkiler üçlü iş birliği mekanizması gibi yeni bir formatla taçlanmıştır.[12] 4-5 Haziran 2014'te Bodrum'da gerçekleştirilen Türk Konseyi IV. Zirvesi sırasında Türkiye, Azerbaycan ve Türkmenistan devlet başkanları bir araya gelmiş, böylece, üçlü görüşmelerin temeli atılmıştır. Daha sonraki dönemlerde üçlü iş birliği mekanizması formatına dönüştürülen üçlü görüşmeler Dışişleri Bakanları düzeyinde devam ettirilmektedir. Üç ülke arasında oluşturulan görüşmeler terör ve insan kaçakçılığına karşı mücadele, ekonomi, enerji, eğitim, gümrük, ulaşım ve telekomünikasyon alanında iş birliğinin güçlendirilmesi gibi önemli alanları kapsamaktadır. Bunun dışında, Bakü-Tiflis-Kars ve Hazar Denizi havzasında bulunan Bakü Uluslararası Deniz Ticaret Limanı ve Türkmenbaşı Uluslararası Deniz Limanı vasıtasıyla tarihi İpek Yolu'nun yeniden canlandırılması, siyasi diyalog, küresel ve bölgesel konularda iş birliği ve koordinasyonun sağlanması gibi stratejik konular mevcut üçlü formatta yapılan düzenli görüşmelerin özünü oluşturmaktadır.

12 Kamer Kasım, "Türkmenistan Dış Politikası", **Türkmenistan**, Kamer Kasım (Der.), Atatürk Araştırma Merkezi Yayınları, Ankara, 2016, s. 107-111.

**Türkiye-Azerbaycan-Türkmenistan Enerji İş Birliği**

Çalışmanın önceki bölümünde vurgulandığı gibi, Azerbaycan ve Türkmenistan Hazar havzasının enerji kaynakları bakımından iki zengin ülkesidir. Bu anlamda Sovyetler Birliği'nin çökmesi Avrasya bölgesinde güvenli enerji arzının çeşitlendirilmesi açısından yeni fırsatlar doğurmuştur. Diğer taraftan, her iki ülkenin açık denizlere doğal çıkışı bulunmamaktadır. Bu üç husus Türkiye-Azerbaycan-Türkmenistan enerji iş birliğinin temelini oluşturmaktadır. Nitekim 2014 yılında Cumhurbaşkanı Kurbankulu Berdimuhammedov'un Ankara ziyareti sonrası Cumhurbaşkanı Erdoğan Türkiye, Türkmenistan ve Azerbaycan arasında enerji konularında kurulan üçlü iş birliği mekanizmasını duyurmuş, üç ülkenin Türkmen doğal gazını Türkiye üzerinden Avrupa'ya taşıma ortak görüşünü paylaştığını özellikle belirtmiştir.

Üçlü enerji iş birliği esasen iki konuya odaklanmaktadır. Hazar'da tartışmaların çözüme kavuşturulması ile Azerbaycan-Türkmenistan deniz sınırında bulunan yatakların ortak işletilmesi ve Türkmen doğal gazının Azerbaycan-Gürcistan-Türkiye güzergahı üzerinden Avrupa'ya ulaştırılması.

Türkmenistan dünyadaki toplam doğal gaz rezervlerinin %10'una sahiptir.[13] İran, Kazakistan, Özbekistan, Azerbaycan, Rusya gibi fosil kaynak zengini ülkelerle çevrili Türkmenistan'ın doğal gaz ihracatında Çin önemli bir paya sahiptir. Her ne kadar son dönemlerdeki doğal gaz üretimi 70 milyar $m^3$'ün üzerine çıksa da Türkmenistan'ın üretim ve ihracat potansiyeli söz konusu miktarın çok daha üzerindedir. Açık denizlere çıkışının olmaması, çevresinde enerji üreticisi ülkelerin bulunması, mevcut boru hatlarının kapasite yetersizliği Türkmenistan'ın doğal gaz üretiminin belli bir seviyeyi geçememesinin en önemli nedenleridir.

Düşük petrol ve doğal gaz fiyatlarını takip eden COVID-19 pandemisi döneminde azalan talep karşısında Türkmen ekonomisi olumsuz etkilenmiştir. Söz konusu gelişmeler karşısında Cumhurbaşkanı Berdimuhammedov ihracat olanaklarını çeşitlendirmek amacıyla komşu ülkelerle ilişkileri güçlendirmeye çalışmaktadır.[14]

---

13 Dünya Bankası, **Türkmenistan**, 2018, https://www.worldbank.org/en/country/turkmenistan/overview, Erişim Tarihi: 21 Temmuz 2021.

14 Robbert Bossuyt, "Bringing Turkmen Gas to the European Market", **Policy Brief No 4 of United Nations University Institute on Comparative Regional Integration Studies**, 2018.

Dolayısıyla, Türkmen doğal gazının belirtilen güzergah üzerinden Avrupa'ya taşınması ile bu ülke dünya enerji pazarının en büyük tedarikçilerinden biri olabilir. Doğal gaz ihracat gelirleri, Türkmenistan'ın toplam ihracat gelirinin yaklaşık yarısını oluşturmaktadır. Doğal gaz, Türkmenistan'ın tek pazarlanabilir emtiasıdır ve ülke, bu durumda bile dünyanın en büyük doğal gaz üreticisi ve ihracatçısıdır. Bu anlamda, üretim ve ihracat kapasitesinin arttırılması her anlamda ülkenin çıkarlarına hizmet etmektedir.

Bilindiği üzere, hali hazırda Güney Gaz Koridoru'nun önemli bir halkası olan TANAP'ın başlangıç kapasitesi 16 milyar $m^3$ olarak belirlenmiştir ki, bunun 6 milyar $m^3$'ü Türkiye'ye tahsis edilmiştir. Hattın kapasitesi aşamalı olarak 60 milyar $m^3$'e yükseltilecektir. Azerbaycan'ın ihracat için bu miktarı üretme kapasitesi mümkün görünmemektedir. Bu nedenle 17 trilyon $m^3$'ten fazla doğal gaza sahip olmakla birlikte, kısıtlı ihracat seçeneği bulunan Türkmenistan TANAP'a katkıda bulunmak için açık bir seçimdir. Azerbaycan da bu projeden transit ülke olarak faydalanacaktır.

Benzer şekilde, Türkmen doğal gazının Avrupa'ya taşınması, enerjide dışa bağımlı Türkiye'nin uygun fiyatta doğal gaz ihtiyacını karşılarken ülkenin enerji lojistiğinde transit merkezi olma konumunu da güçlendirecektir.

Diğer taraftan, Rus doğal gazına artan bağımlılığı ve Rusya'nın Doğu Avrupa'daki stratejik niyetleri ile oluşan güvensizlik ekseninde AB için alternatif enerji tedarikçileri öncelik arz etmektedir. Bu da Rusya'yı devre dışı bırakarak Türkmenistan'dan Avrupa'ya doğal gaz ihracat yolları oluşturma fikrinin bir parçası olarak Trans-Hazar boru hattına olan ilgiyi yeniden gündeme taşımıştır. Projenin gerçekleşmesi hem Türkiye'nin hem Avrupa ülkelerinin enerji güvenliğinin güçlendirilmesi yönünde önemli bir adım olacaktır. Nitekim AB Türkiye-Azerbaycan-Türkmenistan üçlü enerji görüşmelerinde katılımcı olarak yer almakta ve iş birliğini yakından desteklemektedir.

Çalışmanın önceki bölümünde belirtildiği gibi, Hazar Denizi'nin hukuki statüsüne ilişkin beş kıyı devleti olan Azerbaycan, İran, Kazakistan, Rusya ve Türkmenistan arasında 12 Ağustos 2018'de imzalanan yeni konvansiyon Trans-Hazar boru hattının inşası için daha uygun bir ortam oluşturmuştur. Her ne kadar Trans-Hazar gibi boru hatlarının inşası, diğer Hazar devletleri tarafından Tahran Sözleşmesi'nde ortaya konan çevresel standartlar temelinde engellenebilir olsa da, deniz dibi ve toprak altının paylaşımının ikili anlaşmalarla sınırlandırılması

nedeniyle konvansiyon kıyı devletlerine kendi sektörlerinde yeni boru hatları inşa etme hakkı tanımaktadır.

Bu hüküm, Azerbaycan-Türkmenistan ilişkilerindeki anlaşmazlıkların giderilmesi anlamında da önemlidir. Nitekim konvansiyonun imzalanmasından kısa bir süre sonra, 21 Ocak 2021 tarihinde iki ülke arasında tarihi bir anlaşma imzalanmıştır. Bu anlaşma ile iki kardeş ülkenin farklı isimlerle adlandırdığı tartışmalı yataklara "Dostluk" adı verilmiştir.

Hatırlatılması gerekir ki, Azerbaycan'ın "Kepez" ve Türkmenistan'ın "Serdar" olarak adlandırdığı saha, zengin petrol ve gaz rezervlerine sahiptir. 21 Ocak 2021 tarihli Azerbaycan-Türkmenistan anlaşması ile sembolik olarak "Dostluk" olarak adlandırılan bu alan, eski Sovyetler Birliği'ndeki Azerbaycanlı petrol mühendisleri tarafından 4 kilometre derinlikte keşfedilmiş ve 1989 yılında burada ilk arama kuyusu açılmıştır. Saha, Azerbaycan ile Türkmenistan arasındaki deniz sınırının ortasında yer aldığı için "Promezhutochnoe" yani "Aralık" olarak adlandırılmıştır. 1998 yılında Hazar Denizi'nin orta hat koordinatları üzerinde Azerbaycan ve Türkmenistan arasında müzakere yapmak üzere bir uzman grubu kurulmuştur. Uzun süren görüşmeler, belirtildiği gibi, Ocak 2021'de başarılı bir şekilde sonuçlanmıştır. Anlaşmaya göre, "Dostluk" yatağında keşif, işletme ve kullanım işlemleri iki ülke tarafından ortak yapılacaktır. "Dostluk" yatağında tahmini 60 milyon ton petrol rezervi bulunmaktadır.[15] Anlaşmanın imzalanmasında Türkiye-Azerbaycan-Türkmenistan üçlü enerji iş birliğinin katkısı büyüktür.

Bu iş birliği kapsamında Gürcistan'ın da üçlü görüşmelere davet edilmesi bütün tarafların çıkarlarına hizmet etmektedir. Gürcistan, transit nitelikli coğrafi konumu itibarıyla Azerbaycan ve Türkiye arasında kara bağlantısını sağlamaktadır. AB'nin Karadeniz havzasında sınır komşusudur. Bağımsızlığını kazandığı dönemden beri Batı yönlü politikalar izlemektedir, ayrıca, hem Azerbaycan hem de Türkiye ile yakın ilişkiler içerisindedir. Dağlık Karabağ ve sözde Ermeni soykırımı gibi konular nedeniyle Ermenistan ile sınırları kapalı olan Azerbaycan ve Türkiye için Gürcistan önemli ülkedir. Benzer şekilde bu iki ülke ile stratejik iş birliği, zayıf ekonomiye sahip Gürcistan için önem arz

15 Ruslan Rehimov & Gökhan Varan, "Azerbaycan ve Türkmenistan Hazar'daki "Dostluk" Petrol Yatağının Ortak İşletilmesi Konusunda Anlaştı", 21 Ocak 2021, **Anadolu Ajansı**, https://www.aa.com.tr/tr/dunya/azerbaycan-ve-turkmenistan-hazardaki-dostluk-petrol-yataginin-ortak-isletilmesi-konusunda-anlasti/2118146, Erişim Tarihi: 29 Temmuz 2021.

etmektedir. Rusya karşısında istikrarlı ve güçlü Gürcistan, AB de dahil olmak üzere bölgede Türkiye ve Azerbaycan'ın çıkarları ile örtüşmektedir. Transit ülke konumundaki Gürcistan üzerinden Azerbaycan fosil enerji kaynaklarını dünya pazarına ulaştıran Bakü-Tiflis-Ceyhan petrol boru hattı, Bakü-Tiflis-Kars demir yolu hattı, Trans-Anadolu doğal gaz botu hattı gibi projeler bu anlamda ekonomik ve siyasi açıdan çok değerlidir. Dolayısıyla, Türkmen doğal gazının Hazar Denizi-Azerbaycan-Gürcistan-Türkiye güzergahı ile Avrupa'ya ulaştırılması barış, istikrar, ekonomik kalkınma, toplumlar arası iletişim gibi geniş bir alana hitap eden çıkarların örtüşmesi bakımından tüm tarafların ortak hedefidir. Bir başka ifade ile Soğuk Savaş sonrası dönemde yeniden şekillenen uluslararası sistem içerisinde kurulan yeni bölgesel iş birlikleri çerçevesinde Azerbaycan-Türkiye-Türkmenistan üçlüsü örnek bir iş birliği modeli oluşturmaktadır.[16]

## Sonuç

Sonuç itibarıyla, Türkiye-Azerbaycan-Türkmenistan üçlü görüşme zemininde enerji iş birliğinde kat edilen yol, Ankara diplomasisinin önderliğinde ortak bir başarıdır. Hazar Denizi'nin hukuki statüsünün belirlenmesine dair 2018'de imzalanan Konvansiyon ve 2021 yılı başlarında "Dostluk" yataklarının ortak işletilmesine dair imzalanan Azerbaycan-Türkmenistan anlaşması, bölgesel iş birliği, barış, refah ve istikrar açısından iki önemli gelişmedir. Söz konusu başarılarda Ankara'nın yoğun diplomatik çabalarının altı özellikle çizilmelidir. İlk bakışta söz konusu kazanımların edinilmesi için sarf edilen süre uzun, süreç yavaş işler gibi görünse de iç ve dış etkenler dikkate alındığında bunun böyle olmadığı anlaşılmaktadır. Ermenistan'ın Azerbaycan topraklarını işgal etmesi, bölgedeki Rusya ve İran merkezli çıkar çatışması, Ukrayna meselesi ve Kırım'ın ilhakı gibi birtakım yerel, bölgesel ve küresel gelişmeler çerçevesinde üçlü enerji görüşmelerinin verimli sonuçlar doğurduğu söylenebilir. Günümüz uluslararası ilişkilerinde farklı çıkarlara odaklanmış devletlerin ve birden çok devlet dışı aktörün baskın olduğu bir geçiş dönemi yaşanmaktadır. Çevre, iklim değişikliği, doğal afetler, sosyal kimlik temelli çatışmalar, siber güvenlik gibi alışık olunmayan güvenlik sorunları mevcuttur. Türkiye-Azerbaycan-Türkmenistan üçlü enerji görüşmeleri, bu krizlerle dolu dönemi fırsata çevirmeye, aralarındaki özel bağları

---

16 Kamer Kasım, "Azerbaijan-Turkey-Turkmenistan Triangle: An Ideal Model of Cooperation", **Trilateral Dimension of Azerbaijan's Foreign Policy**, Farhad Mammadov and Fuad Chiragov (Ed.), Aston Print, Baku 2015, s. 60-82.

stratejik ve karşılıklı menfaate dayalı, uzun soluklu iş birliğine dönüştürmeye odaklıdır.

Diğer taraftan, son dönemde Afganistan'da meydana gelen gelişmeler ve Taliban güçlerinin iktidarı ele geçirmesi, yıllık kapasitesi 33 milyar $m^3$, uzunluğu bin 840 km olarak planlanan Türkmenistan-Afganistan-Pakistan-Hindistan-TAPI doğal gaz boru hattı projesinin hem yapımı hem güvenliği açısından sorun teşkil etmektedir. En iyi haliyle, mevcut koşullar altında TAPI'nin yakın gelecekte faaliyete geçmesi pek mümkün görünmemektedir. Bölgedeki konjonktür geniş bir perspektifte ele alındığında, bu durumun Trans-Hazar doğal gaz boru hattının gerçekleştirilmesi için bir fırsat olabileceğini göstermektedir. Türkiye-Azerbaycan-Türkmenistan üçlüsünün kararlı ve yapıcı çalışmaları kısa bir sürede projenin başarılı bir şekilde tamamlanmasını sağlayabilir.

**KAYNAKLAR**

Aydın, Ülviyye, "Hazar Denizi'nin Hukuki Statüsü Bağlamında Azerbaycan-Türkmenistan Anlaşmazlığı", **Avrasya Dünyası**, S 3, 2018, s. 20-23.

Bossuyt, Robbert, "Bringing Turkmen Gas to the European Market", **Policy Brief No 4 of United Nations University Institute on Comparative Regional Integration Studies**, 2018.

BP, "Statistical Review of World Energy", 70th Edition, 2021, https://www.bp.com/content/dam/bp/business-sites/en/global/corporate/pdfs/energy-economics/statistical-review/bp-stats-review-2021-full-report.pdf, Erişim Tarihi: 28 Temmuz 2021.

Dünya Bankası, **Türkmenistan**, 2018, https://www.worldbank.org/en/country/turkmenistan/overview, Erişim Tarihi: 21 Temmuz 2021.

ESMAP, "Cross-Border Oil and Gas Pipelines: Problems and Prospects", **UNDP/World Bank Energy Sector Management Assistance Program**, Washington, D.C, 2003.

Gürek, Harun, "Moskova'da Ne İşiniz Var?", **Milliyet**, 7 Ekim 1999, https://www.milliyet.com.tr/ekonomi/moskovada-ne-isiniz-var-5237093, Erişim Tarihi: 28 Temmuz 2021.

Hun, Orhan, "Hazar'ın Hukuki Statusu Tenzimlendi: Tarihi Razılaşma", **Milli.Az.**, 13 Ağustos 2018, https://news.milli.az/politics/676049.html, Erişim Tarihi: 25 Ağustos 2021.

Kasım, Kamer, "Azerbaijan-Turkey-Turkmenistan Triangle: An Ideal Model of Cooperation", **Trilateral Dimension of Azerbaijan's Foreign Policy**, Farhad Mammadov and Fuad Chiragov (Ed.), Aston Print, Baku 2015, s. 60-82.

Kasım, Kamer, "Türkmenistan Dış Politikası", **Türkmenistan**, Kamer Kasım (Der.), Atatürk Araştırma Merkezi Yayınları, Ankara 2016, s. 107-111.

Rehimov, Ruslan & Varan, Gökhan, "Azerbaycan ve Türkmenistan Hazar'daki "Dostluk" Petrol Yatağının Ortak İşletilmesi Konusunda Anlaştı", 21 Ocak 2021, **Anadolu Ajansı**, https://www.aa.com.tr/tr/dunya/azerbaycan-ve-turkmenistan-hazardaki-dostluk-petrol-yataginin-ortak-isletilmesi-konusunda-anlasti/2118146, Erişim Tarihi: 29 Temmuz 2021.

Shaffer, Brenda, **Energy Politics**, University of Pennsylvania Press, Philadelphia 2009.

T.C. Dışişleri Bakanlığı, "Türkiye-Türkmenistan Siyasi İlişkileri", 2021, https://www.mfa.gov.tr/turkiye-turkmenistan-siyasi-iliskileri.tr.mfa, Erişim Tarihi: 28 Temmuz 2021.

Türkmen, Muhammed, "Hafiz Paşayev Türkmenistan'a Neden Gitti?", **Müsavat**, 3 Eylül 2014, https://musavat.com/news/hafiz-pasayev-turkmenistana-ne-ucun-gedib_212647.html, Erişim Tarihi: 25 Ağustos 2021.

Yılmaz, Şuhnaz & Sever-Mehmetoğlu, Duygu, "Linking Foreign Policy and Energy Security: An Asset or a Liability for Turkey", Uluslararası İlişkiler, 2016, C 13, S 52, s. 105-128.

# III. OTURUM

# DÜNYA SİVİLİZASİYASINDA TÜRK AMİLİ

**NERGİZ AHUNDOVA***

## ÖZET

Türk dünyası tarih boyunca insanlık tarihine, medeniyetine ve kültürüne güçlü bir ivme ve etki bırakmış bir yer olmuştur. Etkisinin temel nedeni, Türk topraklarının coğrafi bölgesinin Avrupa ve Asya kültürleri arasında bir temas noktası olmasıdır. Türkler, her iki kültürün bir takım özelliklerine hâkim olmanın yanı sıra, zengin medeniyetlerinin çeşitli olanaklarıyla da komşularını etkilemiş, hatta hızlı gelişmelerinin temel koşullarını oluşturmuşlardır.

**Anahtar Kelimeler**: Türk Dünyası, Kültür, Etkileşim, İslam, Göçebelik, Yerleşik Toplum, İpek Yolu, Devlet Olmanın Özellikleri

---

* Prof. Dr., AMİA Tarih ve Etnoloji Enstitüsü, shukurovkk@gmail.com.

# THE TURKISH FACTOR IN WORLD CIVILIZATION

## ABSTRACT

Throughout history the Turkic world has been a place that has given a strong impetus and influence to human history, civilization and culture. The main reason for its influence is that the geographical area of the Turkic territories is a point of contact between European and Asian cultures. In addition to mastering a number of features of both cultures, the Turks influence their neighbors with the various possibilities of their rich civilizations and even created the main conditions for their rapid development.

**Keywords**: Turkic World, Culture, Interaction, Islam, Nomadism, Sedentary Society, Silk Way, Peculiarities of Statehood

## Giriş

Dünyada mövcud olan tarixi araşdırmalarda türklərin dünya sivilizasiyasındakı yeri və əhəmiyyəti nisbətən yeni bir tədqiqat mövzusudur. Birinci növbədə bu hal onunla əlaqəlidir ki, uzun illər sivilizasiya məfhumu Avropanın və oturaq cəmiyyətlərin inkişafı ilə bağlı olmuşdur. Əsasən köçəri kimi qəbul olunan Türk dünyasının tarixi, mədəniyyəti və dövlətçilik ənənələri həmin tədqiqatlardan kənarda qalmış və ancaq Orhon-Yenisey yazıları ilə tanışlıqdan sonra sivilizasiya müstəvisində gündəmə gəlmişdir.

Türk dünyasının dərindən öyrənilməsi tarixi mənbələrin, yazılı abidələrin və türklərin özləri tərəfindən yaradılmış incəsənət nümunələrinin əsasında mümkün olmuşdur. Bu sırada ən zəngin məlumatlar bizə Çin mənbələrindən çatmış, burada Cinin şimal qonşuları olmuş Türk tayfaları haqqında çoxsaylı faktlara rast gəlinmişdir. Monqol işğallarından sonra Avropa səyyahları, sonralar isə Avropa və rus türkologiya məktəbinin alimləri bu istiqamətdə xeyli əsərlər çap etdilər və türklərin dünya tarixindəki yerini, özlərinə məxsus olan dil, din, yazı, ərazi, elm, şəhərlər və iqtisadi inkişafı, dövlətçiliyi ehtiva edən sivilizasiyanın mövcudluğunu şərh etməyə başladılar.1

Baxmayaraq ki, Türk sivilizasiyasının bərqərar olması və inkişafı uzun bir dövrü əhatə edir, onun vüsəti etnik, dil və mədəni-dini birliyin yarandığı e.ə. I – I əsrlərə aiddir. VII-X əsrlərdə əsasən İslamın təsiri artır, XIV-XV əsrlərdə isə Türk axınları İslam dünyasının yeni geosiyasi durumunun formalaşmasını başa çatdırır. Tezliklə İslam dünyası Məmlüklərin timsalında ərəb, Elxanilərin timsalında fars-türk, Böyük Moğolların timsalında türk-hind və Osmanlıların timsalında türk etno-siyasi bölgələrindən ibarət olur. [2]

Növbəti XIX-XX əsrlər bir çox Türk xalqlarının Rus imperiyasının, sonra isə Sovet dövlətinin tarixi ilə bağlı olmuş və yalnız XX əsrin sonlarında onlar müstəqil dövlət yaratmağa nail olmuşlar. Onların dünya birliyində yeni statusları və mövqeləri yaranmışdır. Yeni şərait onlardan ümumtürk birliyini bərpa etmək, ümumi tarixin və mədəni köklərin əsaslarını öyrənməyi tələb edir.

---

1 Базен Л; Томсен В; Флемминг Б; Крымский А; Кононов А və s.

2 Сурдель Д. Сурдель Ж.Цивилизация классического ислама. У-Фактория. Екатеринбург. 2006, с. 86-89.

Bizim də məqalədə əsas məqsədimiz dünya sivilizasiyasının vahidliyini, formalaşmasında müxtəlif əsas xətlərin—tarixi, mədəni, iqtisadi və s.— mövcudluğunu, bir də türklərin bu prosesdə məhz köçərilikdən irəli gələn iştirak xüsusiyyətlərini göstərməkdir. Məhz köçəri həyat tərzi türklərdə inteqrasiyaya meylliliyə, digər xalqların maddi və mənəvi nailiyyətlərini qəbul etmə qabiliyyətinə, xüsusi dövlətçilik və iqtisadiyyat növlərinin yaranmasına səbəb olmuşdur. Lakin yaddan çıxarmamaq lazımdır ki, Türk dünyasının şəhərlərlə, inkişaf etmiş elmlə, dinlərlə bağlı olan oturaq hissəsi də mövcud olmuş və o da köçərilərlə vəhdətdə adı çəkilən Türk sivilizasiyasının əsasını təşkil etmişdir.

**Erkən Mədəniyyət Nümunələri**

VI əsrin ortalarında Asiyanın xəritəsində yeni bir dövlət qurumu — erkən orta əsrlərin iri dövlətlərindən olan Türk xaqanlığı yarandı. Onun sərhədləri qərbdə Bizansa, cənubda Farsa və Hindistana, şərqdə isə Çinə qədər uzanırdı və qonşu ölkələrin tarixi türk dövlətinin talei ilə həmin dövrdən bağlı oldu.

Avropalılar "türk" adı altında Mərkəzi Asiyada yaşayan bütün köçəri tayfaları tanıyırdılar. Ərəblər Soqdianadan şimalda məskunlaşan döyüşkən köçəriləri "türk" adlandırırdı. VI əsrdən həmin termin bir sıra mənbələrdə əks olunmuş, sonralar isə dil qrupunun adına çevrilmişdir. Nəticədə Türk xaqanlığına daxil olmayan — türkmənlər, azərbaycanlılar və başqaları da türk adlandırılmağa başlanmışdır. 551-ci ildə türk dövlətinin yaranması ilə "türk" termini etnosiyasi məna kəsb etməyə başladı.

Türk xaqanlığının yaranması hansısa mənada bəşər tarixinin dönüş nöqtəsinə çevrildi; bir-birindən uzaq düşmüş Şərq və Qərb əlaqələri türklər vasitəsilə yaranmağa başlamışdır. Özlərinə məxsus mədəniyyətə və sivilizasiyaya sahib olan türklər Şərqdən Qərbə yeni texnologiya və ixtiraların ötürücüləri oldular. Onların maldarlıq təsərrüfatına əsaslanan köçəri həyat tərzi, hərbi fəallıqları və təsərrüfat fəaliyyətləri inkişaf etmiş xalqlarla ticarət mübadiləsi üçün səbəb olmuşdur. Hərbi toqquşmaların, ticarətin və hərb nəticəsində yaranmış ittifaqların fəaliyyətinin yekununda bəzi tayfalar artıq dəmir və bürüncdən məhsullar düzəltməyə, müasir silah növlərini əldə etməyə, köçərilərə məxsus əsgər və at avadanlığından istifadə etməyə başlamışlar.[3]

3 Golden P., **Central Asia in World History**, Oxford Press, N.Y. 2011, p. 78; Гумилев Л.Н.Древние тюрки.АСТ.М.2004, с.7.

Köçəri türklərin təsiri kəskin şəkildə sosial, siyasi, hərbi münasibətlərin inkişafında, həmçinin din və incəsənətin özünü göstərməsində özünü biruzə vermişdir. Məhz bu səpkidə bir sıra alimlərin fikrincə, türklər tərəfindən digər xalqlara verilmiş başlanğıc şərtlərini qeyd edə bilərik. Əsasən burada daş və bürünc dövründən e.ə. V-III dəmir dövrünə keçidi göstərmək lazımdır. Əfsanəyə görə, Tanrı insanlara dəmiri əritməyi öyrətmiş, bundan sonra türklər bu üsuldan istifadə edərək onu dünyaya yaymışlar və bəşər tarixində yeni bir era açmışlar. Beləliklə, türklər uzun müddət hərbi əməlləri üçün dəmir silah aldıqları və bununla asılı vəziyyətə düşdükləri Çin və Tibetin təsirindən azad oldular.

Geyim növləri, üzənqilər ilk dəfə Mərkəzi Asiyada bu vaxtlar meydana gəlmişdir. İlk yük arabaları, əyri qılınc, uzaq məsafəyə ox atan uzun yaylar da köçərilərin ixtirasıdır. Nəhayət, yaşayışın ən mükəmməl növü sayılan dairəvi çadır da türklərin nailiyyətlərindəndir. Buna əlavə olaraq, böyük imperiyaların yaranması ilə dünyada gedən miqrasiya və demoqrafik proseslər də unudulmamalıdır.

Türklərin böyük nailiyyətlərindən biri bəşər tarixində ilk əlifba yazısının yaranmasıdır. Qədim türk yazılarının aşkarlanması elm üçün sensasiya oldu. E.ə. V-IV əsrlərdən VI-X əsrlərə qədər yayılan qədim türk yazıları Baykal, Enisey, Volqa sahillərində, Qafqazda, Türküstanda, Orta Asiya və Monqolustanda tayfalar və xalqlar arasında yayılmışdır. Runi yazıları gündəlik həyatda istifadə edən insanların sayı da çox olmuşdur. Təəssüf ki, nəsillər və mədəniyyətlərarası əlaqələr nəticəsində, digər dinlərin və əlifbaların türk arealında yayılması səbəbindən həmin yazılar mədəni dəyər kimi qorunub saxlanılmamışdır.

Ümumiyyətlə, əlifbaların tez-tez dəyişməsi, yeni yazılara keçid, onunla əlaqəlidir ki, Avrasiyanın və İpək yolunun mərkəzində yerləşən türk dünyası bir tərəfdən iki qitənin birləşməsinə xidmət edirsə də, o biri tərəfdən onları ayıraraq lokal sivilizasiya identikliyi yaratmağa cəhd göstərirdi. Buna görə də bir neçə dildən istifadə, bir neçə dildə mətnlərin tərtib edilməsi, yeni əlifbalar – bunlar hamısı Avrasiya sivilizasiyaları ilə dövlət, iqtisadi, dini və mədəni əlaqələrlə diktə edilir və tarix boyu davam edirdi.

Nəticədə runi yazılar istifadədən tədricən çıxmış, sonralar isə unudulmuşdur. XVII-XVIII əsrlərdə Avropada Şərqə marağın artması nəticəsində qədim yazılı abidələr aşkarlandı və öyrənilməyə başladı. Hal-hazırda onların mətnləri çox sayda müasir dillərə çevrilib və geniş istifadə olunur. Onu da qeyd etmək istərdik

ki, V-XIII əsrləri əhatə edən türk yazılarında həyatın mənası və insanın həyatda təyinatı ilə bağlı fəlsəfi fikirlər geniş yer tutmuşdur.[4]

Avropa sivilizasiyasına təsir baxımından türklərin mədəni nailiyyətləri xüsusi qeyd olunmalıdır. Qərbə onların vasitəsilə insan şəxsiyyətinin və fikrinin qüvvəsini artıran kitab nəşri mədəniyyəti də gətirilmişdir. Məhz kitabların köməyi ilə insanlar əldə olunmuş təcrübə və biliklərini nəsildən-nəslə ötürə bilirlər və əslində ilk kitab nəşrindən müasir elmi-texniki dövr başlayır. VI əsrdən gec olmamaqla Çində taxta oyma lövhələrdən çap prosesi başlamışdır və bu üsul XIII-XV əsrlərdə Avropaya çatmış, burada çap işinin kəşfinə gətirmişdir. Məşhur səyyah Marko Polo hələ Monqol imperiyasında kağız pullarının çapından yazırdı.[5] Monqollar həm də kağızın Avropaya gəlməsinin də səbəbkarlarından olmuşlar.

**İpək yolu**

Şübhəsiz ki, Asiyanın zəngin mədəniyyətinin formalaşmasında İpək Yolu mühüm yer tutur. E.ə. II - XV əsrlərə qədər Şərq və Qərb sivilizasiyaları arasında körpü olan bu yolun fəaliyyətində türklərin rolu danılmazdır. Onlar yolun təhlükəsizliyini və nəqliyyat qüvvəsini təmin etmiş, bütün yol boyu keçənlərə karvan-saraylarla xidmət göstərmişlər. Həmin dövrdə ticarətin, sənətkarlığın və şəhərlərin inkişafı ilə bağlı Asiya böyük sıçrayış dövrü yaşamışdır. Müxtəlif ölkələrdən gətirilən məhsullara tələbat artmış və Şərq-Qərb transmilli iqtisadi, diplomatik və mədəni kommunikasiya vasitəsi olan İpək Yolu, türk regionlarında şəhər mədəniyyətinin və inzibati-ticari mərkəzlərin yaranmasını sürətləndirmişdir. İpək Yolunun böyük hissəsinə nəzarət edən Türk xaqanlığı, Çin, Bizans və İran kimi dövlətlərin yalnız ticari, hətta siyasi sistemlərinə də müdaxilə etməyə imkan əldə etmişdir.

Buradan keçən ərəb səyyahları bizə tayfaların, toponimlərin, ərazidə yaşayan sakinlərin dini və təsərrüfat həyatları haqqında məlumatlar vermişlər. Türk ərazilərində həm köçəri, həm də oturaq cəmiyyətlər mövcud olmuş, türk, İran, slavyan, Çin və monqol mədəniyyətlərinin qarşılıqlı təsiri baş vermişdir. Təsadüfi deyil ki, türklərin bir sıra ideyaları və kəşfləri müxtəlif xalqlar tərəfindən mənimsənilmiş və inkişaf etdirilmişdir. Demək olar ki, türk mədəniyyətinin və sivilizasiyasının özünəməxsusluğu və zənginliyi də həmin təsirdən qaynaqlanırdı.

4 Малов С.Е. Памятники древнетюркской письменности. М-Л. АН СССР. 1951, с.39-40; Безертдинов Р.Н. Тегрианство-религия тюрков и монголов. Слово. Казань. 2004 с.42-45.

5 Марко Поло. Книга чудес, с.42.

**Türklər və islam**

İslamın meydana gəlməsi və müsəlman dövlətinin yaranması ilə Quranın və yeni ərazilər tutmuş ərəblərin dili, ümumi mədəniyyət və elm dilinə çevrildi. İslam arealında birləşmiş etnosların, ənənələrin və mədəniyyətin maraqlı bir sintezi yaranmış, nəticədə müsəlman dünyası dərkində birliyə gəlmişdir. Bu birliyə, çox əsirlik ənənələrə malik olan fars mədəniyyəti də daxil olmuşdur və qısa bir zamanda ərəblər onun mənimsənilməsinin zərurətini anlamışlar.[6]

Bununla yanaşı, IX əsrdən etibarən türk ərazilərinə, Orta Asiyaya tərəf genişlənən xilafət, müsəlman mədəniyyətinin yerli mədəniyyəti üstələməsini təmin edə bildi və bu, əsasən dövlətçilik və müsəlman hüququ (şəriət) sahəsində baş verdi. İslamda biliyə pərəstiş, dinlərə qarşı dözümlülük və digər xüsusiyyətlər, onun tarixi təsirini və dünya dini kimi əhəmiyyətini izah edir; yeni dinin, ərəb dilinin və ədəbiyyatın regionda yayılması başlayır[7] Türk xalqları beynəlxalq əlaqələrə və onların dillərinə daha yaxın olurlar. Ərəblərin işğalları əsas türk xaqanlıqlarını dağıtsa da, onların əraziləri həm də fars-türk əlaqələri çərçivəsinə daxil olur və ərəblərlə birgə yeni bir fenomen - müsəlman sivilizasiyasını yaradır. Ərəb dili və yazısı, mənəvi və mədəni inkişafın sinoniminə çevrilir.[8]

Asiya, Avropa və Afrika xalqlarını birləşdirən ərəblərin siyasi uğurları, müsəlman dirçəlişi adlanan mədəni-yaradıcı prosesin bir hissəsi idi. Təbii ki, bu proses ərəb dünyasının ucqarı sayılan türk ərazilərinə də çatmış və burada dünya mədəniyyətində yer tutmuş alimlər əsərlərini yaratmaq imkanı əldə etmişlər. Belə ki, türk tarixi əsərləri, yazılı və şifahi bədii əsər nümunələri, elmi əsərlər bilik mənbələrinin ayrı-ayrı qaynaqlarına çevrilmişdir. Türk müsəlman sivilizasiyasında elmin xüsusiyyəti kimi, onun həm dövlət, həm də insanların gündəlik həyatı ilə, mədəniyyət və incəsənətlə bağlılığını göstərmək olar. İncəsənət nümunələrində dəqiq elmi fikrin, elmi əsərlərin yazılışında isə bədii təsvirin dərindən hiss olunduğu aşkar görünür. Təsadüfi deyil ki, türk mənşəli bir çox alim, maarifçi, mütəfəkkir riyaziyyatla, astronomiya ilə, səhiyyə ilə yanaşı, türk dili, fəlsəfə və digər humanitar elmlərlə də maraqlanmışlar. Bunlardan əl-

6 Рахманалиев Р.Империя тюрков. Великая цивилизация. РИПОЛ классик .М.2013, с.160-169.

7 Ахундова Н. Тюрки в системе государственного управления арабского халифата. Элм. Баку.2004, с.122-128.

8 Булекбаев С. Тюркский вклад в мировую культуру и цивилизацию. Bavis system. Алма-Аты.2016, с.100-109.

Fərabinin, əl-Qaşqarinin, Nəsrəddin Tusinin, Nəvainin, Baburun adlarını çəkmək kifayətdir.

İşğallar və dövlətçilik ənənələ**ri:** Türk amilinin dünya sivilizasiyasında yerini göstərərkən, dəfələrlə dünya tarixinin gedişini dəyişən işğalları xüsusi qeyd edilməlidir. Aydındır ki, bu işğallar tutulmuş ərazilərin ictimai vəziyyətini və sosial təsisatlarını köklü şəkildə təsir etmişdir və burada türklər Avropa və Asiya ərazilərində yeni dövlətçilik növləri yaratmağa nail olmuşlar. C. Nehru türk işğallarının təhlilini verərkən, onların mənfi cəhətlərinin olmasını inkar etmədən yazır ki, türklər Avropaya sivilizasiya gətirmiş bir xalqdır.[9] Lakin buna nail olmaq üçün türklərin böyük imperiyalar yaratmaq və onların ictimai əsaslarını formalaşdırmaq qabiliyyəti olmalı idi. Həmin əsaslar meydana gələn imperiyaların xalqlarını təşkilatlandırmaq, nəzarət altında saxlamaq və idarə etmək zərurətindən irəli gəlirdi. Tarix göstərir ki, türklərin inzibati və dövlətçilik sistemləri işğal edilmiş xalqlara məxsus olanlardan daha mükəmməl qurulmuşdur.

Məlumdur ki, dövrlərinə uyğun olaraq ictimai varlığın mürəkkəb formalarını yaratmış türklərin təcrübəsində el, tayfa birliyi, rütbələr sistemi, çöl demokratiyası, vergi sistemi və diplomatiya kimi təsəvvürlər artıq mövcud idi[10] və üç qitədə — Asiya, Avropa və Afrikada taxt-taca sahib xalq, onları itirməmək üçün dövrünün ən inkişaf etmiş dövlət strukturunu yaratmalı, idarəçilik aparatını, diplomatik sistemi, vergi sistemini, pul dövriyyəsini, təhlükəsizliyi və ticarəti təşkil etməli idi. Hərbi təşkilatçılığa gəldikdə isə, bu sahədə türklər digər xalqları qat-qat üstələyir, onların hərbi bilikləri bir sıra dünya orduları tərəfindən mənimsənilirdi. XIV-XV əsrlərdən başlayaraq, Azərbaycanda Qara-Qoyunlu, Ağ-Qoyunlu dövlətlərinin, Qırım, Qazax, Həştərxan, Özbək və digər xanlıqların yaranması ilə türk dövlətçiliyinin yeni mərhələsi — türk etnogenetik mahiyyətinin varisləri olan milli dövlətlərin tarixi səhnəyə çıxması başlandı.

Maraq doğuran məsələlərdən biri də mövcud olan nəhəng imperiyaların uzun ömürlü olmalarıdır. Demək mümkündür ki, bu hal türk fəlsəfəsi ilə əlaqədardır və onların tanrıcılıqdan gələn "göy — bizim çadırımız, günəş — bayrağımızdır" ifadəsi ilə izah oluna bilər.[11] Onların tolerantlığının mənbəyi

---

9 Дж.Неру. Взгляд на всемирную историю. YOYO Медиа М. 2013 т.1.с. 45; Мотгномери У. Влияние ислама на средневековую Европу. Диля. М-СПб. 2008, с.141.

10 14.Аязбеков С.,Аязбекова С. Тюркская цивилизация :теоретический и исторический контекст. //istina/msu.ru с.174-182.

11 Yorulmazoğlu E.İ.İslamiyyetden önce türkler.İnkilap kitab evi.İst.2021, s.78; Yorulmazoğlu E.İ.İslamiyyetden sonra türkler.İst.2021, s.148.

də buradan irəli gələ bilər, çünki yaşadıqları hər bir regionu türklər vətən hesab edir və bərabər yaşayan etnik birlikləri özlərindən ayırmırdılar. Türklər müxtəlif xalqların birgə dinc yaşamasına çalışır, mərkəzləşmiş hakimiyyətləri altında onların dilinə, dininə, mədəniyyətinə, hətta əksər hallarda hakimlərinə də toxunmurdular. Elə hallar da olurdu ki, türklər öz vassallarına kömək etmək üçün müraciət edir, onların dilini, dinini qəbul edir, hətta işğal olunmuş kütlə daxilində assimilyasiyaya məruz qalırdılar.[12]

Türk dövlətlərinin ənənəvi olaraq, hələ Orhon yazılarından başlayaraq, bir məqsədi olmuşdur: təhlükəsizlik, nizam və ədalət. Başqa sözlə, dünyanı fəth etməyə can atan türklər burada sülh və əminamanlığı bərqərar etməyi məqsəd qoymuşlar. Nəticə etibarilə, işğal olunmuş ərazilərdə görünməyən çiçəklənmə müşahidə olunmuşdu — Çin Yuan, İran Səlcuqluları, Hindistan Böyük Moğolları və Misir Məmlüklər sülalələri dövründə. Osmanlılara gəlincə, onlar türk dünyasının ən qüdrətli dövlətini yaratmaqla İslam dininin qoruyucularına çevrildilər.

**Nəticə**

Nəticədə, tam əsaslanmış şəkildə demək olar ki, bəşər tarixində türklər mühüm rol oynamışlar və bunun məğzi ondan ibarətdir ki, onlar öz əməlləri ilə dünya sivilizasiyasının, xüsusilə də Avropa sivilizasiyasının inkişafına ciddi təsir göstərmişlər; öz mədəniyyətləri və sivilizasiyaları ilə ümumbəşəri mədəniyyətə və inkişafa təkan vermişlər. Nəhayət, Qərb mədəniyyəti və onun nailiyyətləri bir çox tellərlə Şərqlə Qərbi bir-birinə bağlayan və mədəniyyətlərin qarşılıqlı təsir nöqtəsi olan İpək Yoluna borcludur. Keçmişdən günümüzə qayıdaraq, onu da qeyd edək ki, XXI əsr türk dünyası və türk sivilizasiyası üçün yeni üfüqlər açır. Bu gün bütün türk xalqları öz tarixi və mədəni birliklərinin dərki qarşısında dayanmışlar. Türklərin ərazi, dil, etnogenez, ənənələr səviyyəsində bunu anlamaq və yeni bir türk inteqrasiyasını yaratmaq iqtidarında olan bir xalq olduğunu zaman göstərəcək.

12 Findley C., **The Turks in the World History**, Oxford University Press N.Y. 2004, p. 96.

**Ədəbiyyat**

Ахундова Н. Тюрки в системе государственного управления арабского Халифата. Элм. Баку, 2004

Аязбеков С. Vd., Тюркская цивилизация: Теоретический и исторический контекст // istina.msu.ru//

Безертдинов Р.Н. Тенгрианство –религия тюрков и монголов. Слово. Казань 2004

Бичурин Н.Я. Китайские известия о народах Центральной Азии. Наука. М.1955

Булекбаев С. Тюркский вклад в мировую культуру и цивилизацию. Bavis system. Алма-Аты. 2016

Golden P .B., **Central Asia in World History**, Oxford University Press, N.Y. 2011.

Гумилев Л.Н. Древние тюрки. Издательство АСТ .М. 2004

Yorulmazoğlu E.İ. İslamiyyetden önce Türkler. İnkilap kitabevi İst. 2021

Yorulmazoğlu E.İ. İslamiyyetden sonra türkler. İnkilab kitab evi İst.2021

Кляшторный С.Г. vd., Государства и народы евразийских степей. Древность и средневековье . Петербургское востоковедение. СПб. 2004

Малов С.Е. Памятники древнетюркской письменности. АН ССР.М-Л, 1951

Мотгномери Уотт. Влияние ислама на средневековую Европу. Диля. М-СПб. 2008

Неру Дж. Взгляд на всемирную историю. т.I.YOYO Media.M.2003

Поло Марко. Книга чудес. издательство географической литературы. М.1955

Рахманалиев Р. Империя тюрков. Великая цивилизация. РИПОЛ классик. М. 2013

Сурдель Д. Сурдель Ж. Цивилизация классического ислама. У-Фактория. Екатеринбург. 2006

Findley C., **The Turks in the World History**, Oxford University Press N.Y. 2004.

# XVI ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞAH İSMAYIL SƏFƏVİ VƏ SULTAN SƏLİM OSMANLI ARASINDA MÜNASİBƏTLƏRİN KƏSKİNLƏŞMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ (TARİXİ MƏKTUBLAR ƏSASINDA)

**ŞAHİN F. FƏRZƏLİYEV***

## ÖZET

Səfəvi dövlətinin banisi Şah İsmayıl ilə Osmanlı imperiyasının məşhur hökmdarı Sultan Səlim Yavuz arasındakı arzuolunmaz münasibət nəhayət, onların savaşına (23 avqust 1514-cü il) gətirib çıxardı. Tarixdə "Çaldıran cəngi" adlanan həmin savaş başlamazdan əvvəl Osmanlı sultanı Səfəvi şahına dörd məktub yazmış, müqabil tərəf isə yalnız bir cavab məktubu yollamaqla kifayətlənmişdi.

Bu məktublarda, təbiidir ki, müasir dövrün diplomatik məktublarından fərqli olaraq, Quran ayələri, atalar sözləri, zərbülməsəllər və şeir parçaları vardır ki, bunlar dövrün digər məktublarına da xas olan səciyyəvi yazışma tərzini əks etdirir. Bundan başqa, həmin məktublardan hökmədarların hər biri özünü "əsl müsəlman" sayır və müqabil tərəfi dinsizlikdə təqsirləndirir ki, bu da iki dinin (sünni və şiə) məzhəbləri arasında qarşılıqlı şəkildə yaranan münasibətin nəticəsidir. Bir cəhəti də unutmaq lazım deyil. Belə ki, Osmanlı–Qızılbaş münasibətlərinin kəskinləşməsində siyasi maraqları olan Məmlük sultanları, Almaniya, Venesiya, İsveçrə, Macarıstan və digər Qərb dövlət başçıları az vaxt ərzində böyük fəthlər əldə edən hər iki hökmədarı biri-birinə qarşı qızışdırır, nəyin bahasına olursa-olsun, onları savaşa sürükləyirdilər.

Bizim qənaətimizə görə, əgər əsasən müxtəlif Qərb dövlətlərinin təhriki ilə Osmanlı imperiyası və müxtəlif Azərbaycan dövlətləri arasında XV-XVI əsrlərdə baş verən qanlı münaqişə və ixtilaflar olmasaydı, həmçinin bu dövlətlər arasında qarşılıqlı münasibətlər düzgün istiqamətə yönəldilsəydi, bəlkə də dünyanın bugünkü xəritəsi başqa görünüş almış olardı.

**Anahtar Kelimeler**: Azərbaycan, Şah İsmayıl, Sultan Səlim, Çaldıran Savaşı, Məzhəblər

* Prof. Dr., AMİA Tarih Enstitüsü, shahinfazil27@gmail.com.

# SOME ISSUES REGARDING THE AGGRAVATION OF RELATIONS BETWEEN SHAH İSMAİL SAFAVİ AND SULTAN SALİM OTTOMAN IN THE EARLY 16$^{TH}$ CENTURY (BASED ON HISTORICAL LETTERS)


## ABSTRACT

The undesirable relationship between the founder of the Safavi state, Shah Ismail, and the famous ruler of the Ottoman Empire, Sultan Salim Yavuz, finally led to their war (August 23, 1514). Before the start of this war, known in history as the "Battle of Chaldiran", the Ottoman Sultan wrote four letters to the Safavi Shah, but the other side was content to send only one reply. These letters, of course, in contrast to modern diplomatic letters, contain verses from the Qur'an, proverbs, sayings or proverbial phrases, and pieces of poems, which reflect the style of correspondence typical to other letters of the time. Moreover, in these letters, each of the rulers considers himself a "true Muslim" and accuses the other side in atheism, which is the result of the rapid interaction between the two sects of the same religion (Sunni and Shiite). One aspect should not be forgotten. Thus, the Mamluk sultans, heads of Germany, Venice, Switzerland, Hungary and other Western states, who had political interests in the aggravation of Ottoman-Qizilbash relations and stirred up the two rulers who achieved great conquests in a short time, wanted to weaken them with the hands of each other, and incited them to war at all costs. In our opinion, if there were no bloody conflicts and disputes between the Ottoman Empire and various Azerbaijani states in the 15th-16th centuries, mainly at the instigation of various Western countries, and if relations between these countries were directed in the right line, perhaps the current map of the world would have looked different.


**Keywords**: Azerbaijan, Shah Ismail, Sultan Salim, The Battle of Chaldiran, Sects

Səfəvi dövlətinin banisi Şah İsmayıl ilə Osmanlı imperiyasının məşhur hökmdarı Sultan Səlim Yavuz arasındakı arzuolunmaz münasibət, nəhayət, onların savaşına (23 avqust 1514-cü il) gətirib çıxardı. Tarixdə "Çaldıran cəngi" adlanan həmin savaş başlamazdan əvvəl Osmanlı sultanı Səfəvi şahına dörd məktub yazmış, müqabil tərəf isə yalnız bir cavab məktubu yollamaqla kifayətlənmişdi. Biz, üçü fars, ikisi isə osmanlı dilində yazılmış həmin məktubların tarixi əhəmiyyətini, habelə Səfəvi-Osmanlı münasibətlərini kəskinləşdirən əsas səbəblərin həmin məktublarda təfərrüatla verilməsini nəzərə alaraq, savaş kontekstində məzhəbin oynadığı rol barədə fikir söyləməyə çalışmışıq.

Bu məktublarda, təbiidir ki, müasir dövrün diplomatik məktublarından fərqli olaraq, Quran ayələri, atalar sözləri, zərbülməsəllər və şeir parçaları vardır ki, bunlar dövrün digər məktublarına da xas olan səciyyəvi yazışma tərzini əks etdirir. Bundan əlavə, həmin məktublardan hökmədarların hər biri özünü "əsl müsəlman" sayır və müqabil tərəfi dinsizlikdə təqsirləndirir ki, bu da bir dinin iki məzhəbi (sünni və şiə) arasında qarşılıqlı şəkildə yaranan münasibətin nəticəsidir. Bir cəhəti də unutmaq lazım deyil. Belə ki, Osmanlı-Qızılbaş münasibətlərinin kəskinləşməsində siyasi maraqları olan Məmlük sultanları, Almaniya, Venesiya, İsveçrə, Macarıstan və digər Qərb dövlət başçıları, az vaxt ərzində böyük fəthlər əldə edən hər iki hökmədarı biri-birinə qarşı qızışdırır, nəyin bahasına olursa-olsun, onları savaşa sürükləyirdilər.

Bizim qənaətimizə görə, əgər əsasən müxtəlif Qərb dövlətlərinin təhriki ilə Osmanlı imperiyası və müxtəlif Azərbaycan dövlətləri arasında XV-XVI əsrlərdə baş verən qanlı münaqişə və ixtilaflar olmasaydı, həmçinin bu dövlətlər arasında qarşılıqlı münasibətlər düzgün istiqamətə yönəldilsəydi, bəlkə də dünyanın bu günkü xəritəsi başqa görünüş almış olardı.

XVI əsr Səfəvi-Osmanlı münasibətləri şərhinə başlamazdan əvvəl, bütün müsəlman Şərqində bərqərar olmuş İslam dininin iki cərəyanı—şiəlik və sünnilikdən bəhs etməmək olmaz.

Məlumdur ki, şiəlik ideyaları VII əsrdən etibarən meydana çıxmışdır. Tarixçi Şəhristaniyə görə, şiələr Məhəmməd Peyğəmbərin qızı Fatimənin əri olan xəlifə Əlinin (xilafət illəri 656-661) tərəfdarları kimi çıxış edərək, yalnız onun ən ləyaqətli imam (müsəlman icmasının başçısı) və xəlifə (Məhəmməd Peyğəmbərin canişini) olduğunu qəbul edirdilər. Onların fikrincə, imamlıq hüququ (imamət) Əli və Fatimə nəslindən başqa (Məhəmməd Peyğəmbərin oğlu olmadığına görə)

heç kimə mənsub ola bilməz və şiə əqidəsinə görə imamət hüququ yalnız irsi prinsipə əsaslanmalıdır.[1]

XV əsrdə Səfəvilərin arxalandığı əsas qüvvə sonradan "Qızılbaşlar" adlandırılan yeddi tayfa (şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər) olmuşdur. Bu tayfalar "müqəddəs" Səfəvi şeyxlərinin itaətinə girərək, özlərini "mürid", "sufi", "dərviş" adlandırsalar da, həqiqətdə Səfəvilərə xidmət edən feodal funksiyasını daşıyırdılar.[2]

Əgər Qaraqoyunluların şiələrlə, Ağqoyunluların sünnilərlə, şiə Səfəvilərin isə Ağqoyunlularla qohum olduqlarını nəzərə alsaq, belə qənaətə gələ bilərik ki, XVI əsrə qədər şiə-sünni münasibətləri hələ dini düşmənçilik dərəcəsinə çatmamışdı. XVI əsrin əvvəllərində İran əhalisinin əksəriyyətini sünnilər təşkil edirdilər. İ. P. Petruşevski, V. F. Minorski, N. D. Mikluxo-Maklay və başqalarının məlumatına görə, hələ XIV əsrdə də İranda şiələr sünnilərə nisbətən azlıq təşkil edirdilər. Frans Babingerin Venesiya səyahətçilərinin əsərlərinə əsasən verdiyi məlumata görə, XV əsrin sonu—XVI əsrin əvvəllərində Kiçik Asiya əhalisinin 5/4 hissəsi şiələrdən ibarət idi.[3].

Şiə hərəkatı geniş ərazilərdə getdikcə inkişaf etməkdə idi. Türk sultanı olduqca həyəcanlanmışdır. O, nə olursa-olsun, şiəliyin qarşısını almağa çalışır, başqa ölkə hakimlərini də buna dəvət edirdi. Ağqoyunlu şəhzadələri arasında ixtilafın get-gedə dərinləşdiyini görən II Bayazid, vaxt itirmədən kürd Hacı Rüstəmə məktub yazaraq Ağqoyunlu—Qızılbaş münasibətlərindən narahat olduğunu bildirir və bu xüsusda ondan məlumat soruşur. Kürd Hacı Rüstəmin cavabı, Türk sultanının təşvişini daha da artırır.[4] Lakin artıq gec idi. Ağqoyunlu mülkündən həmin sülalənin yaxın qohumu, Uzun Həsənin qız nəvəsi İsmayıl Səfəvinin hakimiyyəti artıq bərqərar olmuşdu.

Türkiyənin Azərbaycanla xarici siyasəti, II Bayazidin oğlu Səlim tərəfindən taxtdan salınması və Sultan Səlim dövrünün (1512-1520) başlanması ilə kökündən dəyişdi və nəticədə siyasi vəziyyət Çaldıran savaşına gətirib çıxardı.

1 И.П.Петрушевский. Государства Азербайджана в XV веке. Сборник статей по истории Азербайджана. Том I, Баку, 1949, с. 201-202.

2 İ.P.Petruşevski. Göst əsər, səh 210.

3 F.Babinger. Marino Sanutes Tagebucher als Quelle zur Geschichte der Safaviyya, Cambridge, 1922.səh 34-35.

4 Firidun bəy. Münşəati-Səlatin, cild I, səh 353-354.

Qeyd olunmalıdır ki, Sultan Səlim şiə Qızılbaşları üzərinə hücumuna elə öz dövlətinin şiə əhalisini qırmaqla başladı. Mənbələrin məlumatına görə, bir neçə gün ərzində 40 mindən çox şiə məzhəbi nümayəndəsi qırıldı. Sultanın növbəti şiə qırğını isə onun Azərbaycana və İrana hücumu ilə başa çatmalıydı.

Yuxarıda qeyd etdiyimiz kimi, tərəflər arasında 5 tarixi məktub yazılmışdır. Həm Sultan Səlimin, həm də Şah İsmayılın tərəflər arasındakı münasibətləri əks etdirən fikirlər Qurani-Kərimin surə və ayələrinə əsaslanır. Sultan Səlimin Şah İsmayıla birinci məktubunda yazılır:

"Bismillahir-rəhmənir-rəhim! Hər şeydən agah olan Allah belə buyurur: Allah yanında məqbul olan din, əlbəttə, İslamdır. Kim İslamdan başqa bir din ardınca gedərsə, o din heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar". [5]. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul edib bu işə son qoyarsa, keçmişdə aldıqları [məmləkətlər] onundur. Onun işi Allaha aiddir. Amma yenidən bu işə qayıdanlar cəhənnəmlik olacaqlar[6]. Allah yolunu azıb günaha batmışların deyil, doğru yolla gedənlərin işini düzəldir. Məhəmməd əl-Mustafaya, onun nəslinə və bütün səhabələrinə salam olsun!"

Sultan Səlimin birinci məktubunun ilk cümləsindən aydın olur ki, Osmanlı sultanı İslam dinini, əlbəttə, ən zəruri din kimi qəbul edir, amma başqa məzhəb tərəfdarı olan İslam hökmdarının dininin axirətdə qəbul olunmayacağını bildirir. Sultan, şahın şiəliyə rəvac verməsini günah hesab edir və qarşıya belə bir şərt qoyur: "Günahdan tövbə edən şəxs, günah etməmiş kimidir; sən uca və pak sünni məzhəbinə qoşulsan, öz məmləkətini bütün adamları və əyalətləri ilə birlikdə Tanrının qoruduğu Osmanlı dövlətinin bir hissəsi etsən, bizim şahlıq inayətimizə və şahənşahlıq iltifatımıza layiq görülərsən."

Sultan Səlimin sonrakı məktubları da yuxarıdakı məzmunu özündə kəsb edir. Amma Şah İsmayıl, öz qüruruna arxalanaraq sultana tonu bir qədər mülayim olan tərzdə cavab göndərir: "Cənnətə ümidvar olan və İslama pənah edən sultan əzəmət, dövlət, səltənət, dünya və din uğrunda mübarizə edən Sultan Səlim şah—Allah onun dövlətini ədalətli, səadətini daimi etsin—məhəbbətli salamımı və səmimi məktubumu hədiyyə kimi göndərirəm və onunla görüşmək arzumu bildirirəm. Sonra, ərz edirəm ki, son vaxtlarda mənə yolladığınız üç şərafətli məktubunuz gəlib çatdı. Onların məzmunu ədavətlə dolu olduğuna baxmayaraq, cürət və igidlikdən bəhs edirdi ki, bu da mənə böyük həzz verdi".

---

5 Quran: ali-İmran sürəsi, 19 və 85-ci ayələr.

6 Əl-Bəqərə sürəsi, 276-cı ayə.

Səfəvi hökmdarının cavab məktubundan məlum olur ki, Şah İsmayıl, Osmanlı hərbi qüvvəsinin daha güclü olduğunu bildiyindən hələ də savaşın başlanmasının tərəfdarı deyil və hətta qarşılıqlı münasibətlərin elçi-səfirlər vasitəsilə normallaşacağını düşünür: "İndi isə öz humayun möhrümü vurub, onu bizə yaxın adamların başçısı Şahqulu ağa kimi bir sadiq nökərimlə sizə yollayıram... Elçini tez geri göndərin ki, tale pərdəsinin arxasında gizlənən hər nə varsa, üzə çıxsın. Bununla belə, yaxşı olar ki, əməlli-başlı düşünüb heç kəsin sözünə fikir verməyəsiniz və mənə qulaq asasınız, çünki sonrakı peşmançılığın faydası olmur... Adı çəkilən elçini incitməyib geri yollayın, çünki "heç kəs başqasının günahını daşımaz". [7]

Beləliklə, aradakı sünni-şiə məzhəb ixtilafı olmasaydı, bəlkə də çoxlu qanların axıdılmasına səbəb olmuş Çaldıran cəngi baş tutmazdı və Sultan Səlim, Şah İsmayıla aşağıdakı şeir parçasını göndərməzdi:

Elə igidəm ki, döyüşsəm əgər
Aləmə həmin dəm qiyamət düşər.

Şirin ürəyini kabab edərəm,
Düşmənin qanını şərab edərəm.

Oxumun qırğısı qartal ovlayar,
Qılıncımı çəksəm günəş olar zar.

Görürəm xəbərin yoxdur heç nədən,
Mənim kimliyimi bilmək istəsən

Günəşdən xəbər al çevikliyimi,
Silahı işlədən yox mənim kimi.

Mənim qılıncım var, sənin tacın var,
Tacın qılıncımla mənimki olar.

Günlərin bir günü olarsa qismət,
Qırram düşmənləri bir-bir nəhayət.

7 Qurani-Kərim əl-Ənam surəsi, 164-cü ayə.

Məqaləyə əlavə:

*Şahin Fazil. "Çaldıran" poemasından bəzi şeirlər*

**Bu gün oxuyur ozan...**
Bura mənim elimdir,
Ayıl qürurum, ayıl.
Bir tərəfdə Səlimdir,
Bir tərəfdə İsmayıl.

Qılınc çalan əlimdir,
Sayıl, qılıncım sayıl.
Bir tərəfdə Səlimdir,
Bir tərəfdə İsmayıl.

Şərəf nəsimi əsir,
Yayıl, şöhrətim yayıl.
Bir tərəfdə Səlimdir,
Bir tərəfdə İsmayıl.

Azərbaycan gülümdür,
Bayıl, düşmənim bayıl.
Bir tərəfdə Səlimdir,
Bir tərəfdə İsmayıl..."

Bu gün oxuyur ozan,
Sabah olacaq savaş.
Axıdacaq qızıl qan
Osmanlıyla qızılbaş

Rum eli Azərbaycan...
Savaşacaq anbaan
Müsəlmanla müsəlman,
Osmanlıyla qızılbaş.

Sultan zireh geycək,
Şah əmud istəyəcək,
"Vur ha!..", "Qır ha!.." deyəcək
Osmanlıyla qızılbaş.

Məhv olacaq çoxları...
Yağdıracaq oxları
Biri-birinə sarı
Osmanlıyla qızılbaş.

Biganə sevinəcək,
Qırmızı geyinəcək...
Hey qəzəblə dinəcək
Osmanlıyla qızılbaş.

... Bu gün oxuyur ozan,
Sabah olacaq savaş.
Axıdacaq qızıl qan
Osmanlıyla qızılbaş.

**Misri qılıncdansa qələm yaxşıdır**

İsmayıl—məlallı, yaralı bir şah,
İsmayıl—Taclıdan aralı bir şah.
Əynindən çıxarmır qəm libasını,
Ölən qazilərin tutur yasını.
İsmayıl düşünür: Yarəb, bu savaş
Gərək olmayaydı, tutmayaydı baş...
Bu qədər əsgərim qırılmayaydı,
Qoşunum, ləşkərim qırılmayaydı...
Güllə uçmayaydı, top atmayaydı,
Qılınclar başları qopartmayaydı...
Min-min qızılbaşın qanı axıbdır,
Min-min osmanlının canı çıxıbdır.
Döyüşlər, savaşlar daha kifayət,
Davalar,dalaşlar daha kifayət...
Qazilər, yas tutun, ələm yaxşıdır,
Misri qılıncdansa qələm yaxşıdır".

**Qəzəl**

Qan tökülmüş sel kimi, pəjmürdəhaldır Çaldıran,
Çaldıran hardan biləydi qeylü qaldır Çaldıran?

Topçular toplardan atəş yağdırıblar dalbadal,
Hay-haraydır, vur-həşirdir, qalmaqaldır Çaldıran.

Bir cəfalı, bir bəlalı məskən olmuşdur bizə,
Uğradılmışdır zəvalə, bir zavaldır Çaldıran.

Şah hanı, sultan hanı, əsgər hanı, ləşkər hanı?
Yüz süalə bir cavab verməz ki, qaldır Çaldıran.

Yamyaşıl düzlər, çəmənlər qandan olmuş qırmızı,
Qırmızı, qıpqırmızı, aldan da aldır Çaldıran.

Ey nəsillər, türk türkü zar eyləyib, xar eyləyib,
Ey nəsillər, bir nümunə, bir misaldır Çaldıran.

Şahina, qan ağlayırsan, xal düşübdür bağına,
Xalqımın hərb tarixində qarə xaldır Çaldıran!

**Son söz**

Bir xoyratı deyib ozan ağlayır,
Sözü səsi ilə yazan ağlayır:

Neçin susadı qana
Osmanlıyla qızılbaş?
Neçin girdi meydana
Osmanlıyla qızılbaş?

Səflərə düzüldülər,
Üzdülər üzüldülər,
Əzdilər, əzildilər
Osmanlıyla qızılbaş

Görməyib tədbirini
Vurdu biri-birini,
Qırdı biri-birini
Osmanlıyla qızılbaş

“Vur” deyib atlandılar,
Atla qanadlandılar,
Yandırdılar yandılar,
Osmanlıyla qızılbaş

“Yox ol dedi” “Öl dedi”,
Əlbir ola bilmədi,
Dilbir ola bilmədi,
Osmanlıyla qızılbaş

**Ədəbiyyat**

Əl-Bəqərə sürəsi, 276-cı ayə.

Firidun bəy Münşəati-Səlatin., cild I.

Quran: ali-İmran sürəsi, 19 və 85-ci ayələr.

Qurani-Kərim əl-Ənam sürəsi, 164-cü ayə.

П.Петрушевский. Государства Азербайджана в XV веке. Сборник статей по истории Азербайджана. Том I, Баку, 1949.

F. Babinger, Marino Sanutes, **Tagebucher als Quelle zur Geschichte der Safaviyya**, Cambridge 1922.

# ŞAH I ABBAS DÖNEMİNDE SAFEVİ-OSMANLI İLİŞKİLERİ

TOFİQ NƏCƏFLI*

## ÖZET

Safevi-Osmanlı siyasi ilişkilerinin en dramatik dönemlerinden biri de 16. yüzyılın son çeyreğinde yaşanmıştır. On iki yıl devam eden Safevi-Osmanlı Savaşları nihayet 1590 yılında İstanbul Barış Antlaşması ile son bulmuştur. İstanbul Barışı iki devlet arasındaki savaşa son vermekle birlikte, diplomatik ilişkilerin genişlemesi ve hız kazanmasını sağlamıştır.

Devrin kaynaklarından yola çıkınca, İstanbul Barışı'nın imzalanmasından sonra yaşanan iki taraflı diplomatik gidiş gelişlerin ortaya çıkmasında önemli bazı iç ve dış nedenlerin etkili olduğunu görmekteyiz. Barış gereği sınırların tespit edilmesi, Osmanlı yanlısı olan ve Safevilere karşı ortaya çıkan Gilan olayları, İstanbul'da rehin bulunan Safevi şehzadesi Haydar Mirza meselesi ve bir de bu aralar Safevi Devleti'nin Şeybanilerle, Osmanlı Devleti'nin ise, Avusturya ile savaş durumunda olması Safevi-Osmanlı diplomatik ilişkilerinin gelişiminde ortaya çıkan önemli meselelerdir.

Safevi ve Osmanlı Devletleri arasında 16. yüzyıl sonlarında yaşanan ilişkilerde bazen tatsızlık görünse de genel olarak taraflar, 1590 İstanbul Barışı'nın şartlarını korumadan yana tavır sergilemişlerdir. Osmanlı Devleti Batı'da başlattığı Avusturya savaşından dolayı, Doğu sınırlarının emniyeti için barışı bozmak istememiştir. Bu yüzden de, İstanbul'a gelen Safevi elçileri çok iyi ağırlanmış, hediyeler ve dostça yazılmış mektuplarla geri uğurlanmıştır. Safevi hükûmeti de İstanbul'a çok sayıda hediye ve aynı hoş içerikli mektuplarla elçiler göndermiştir.

**Anahtar Kelimeler**: Şah I Abbas, Haydar Mirza, Azerbaycan, Safevi Devleti, Osmanlı Devleti, Sultan III. Murad

* Azerbaycan Millî İlimler Akademisi, tofignajafli@gmail.com.

# THE SAFAVI-OTTOMAN RELATIONS DURING THE REIGN OF SHAH ABBAS I


## ABSTRACT

The last quarter of the XVI. century is one of the most dramatic periods of the Safavi-Ottoman political relations. Policy pursued by Sultan Murad III led to the violation of the terms of Amasia Peace and to the start of war between the two powerful states of the Middle East. The Safavi-Ottoman War, which lasted twelve years, ended with the Istanbul Peace of 1590. Istanbul Peace not only put an end to the war between the two countries, but also created favorable conditions for the expansion of diplomatic relations. After the conclusion of Istanbul Peace, a special attention was paid to the Safavi-Ottoman diplomatic relations. We have focused in this article to clarify the level of investigation of the Safavi-Ottoman diplomatic relations after the Istanbul Peace in modern Turkish historiography.

The analyses of the level of studying Safavi-Ottoman diplomatic relations after the conclusion of the Istanbul Peace in modern Turkish historiography shows that the internal and external factors had had an impact on the development of mutual relations between the two countries. Despite of the specification of the boundaries determined under the Peace, the question of Gilan, issues related to the Safavi shahzadeh Heydar Mirza that was a hostage in Istanbul had strengthened the mutual diplomatic relations, but Safavis being with Sheibanis and the Ottoman Empire with Austria at war made a significant impact on the development of the Safavi-Ottoman diplomatic relations.


**Keywords**: Shah Abbas I, Heydar Mirza, Azerbaijan, Safavid State, Ottoman State, Sultan Murad III

## Giriş

XVI əsrin son rübü, Səfəvi-Osmanlı siyasi münasibətlərinin ən dramatik dövrlərindən biridir. Sultan III Muradın yeritdiyi siyasət, Amasya sülhünün şərtlərinin pozulmasına və Yaxın Şərqin iki qüdrətli dövləti arasında müharibənin yenidən başlamasına səbəb oldu. Osmanlı-Səfəvi müharibəsinin gedişində Osmanlı ordusunun əldə etdiyi uğurlar, ard-arda Azərbaycan torpaqlarının ələ keçirilməsi ilə nəticələndi. Bu dövrdə qızılbaş əmirləri arasında hələ də davam edən çəkişmələr, mərkəzi hakimiyyəti zəiflətdiyi üçün cəbhədəki uğursuzluqları daha da dərinləşdirdi. Belə bir vəziyyətdə, 1587-ci ilin may ayında Abbas Mirzə Qəzvində taxt-taca gətirildi. Bununla, sülhə tərəfdar olan əmirlər cəzalandırıldı və Osmanlı dövləti ilə başlanılan sülh danışıqları dayandırıldı.

Şah I Abbas, 1587-1588-ci ilin qışını Qarabağda keçirərək Təbriz və İrəvanı osmanlılardan geri almaq üçün hazırlıq gördü. Lakin bu zaman Özbək hökmdarı Abdulla xan, Heratı ələ keçirərək Məşhəd üzərinə yürüş etdiyi üçün Səfəvi hökmdarı Xorasana hərəkət etməli oldu. Bundan xəbər tutan Fərhad paşa, 1588-ci il avqustun 10-da Qarsdan Ağbaba yolu ilə Borçalıya, avqustun 13-də isə Gəncə-Qarabağa yürüş etdi. Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacar, Gəncəni tərk etdiyi üçün sentyabrın 1-də şəhər Osmanlı ordusu tərəfindən ələ keçirildi.[1] Şərəf xan Bidlisinin verdiyi məlumata görə, 1589-cu ildə Osmanlı sərdarı Fərhad paşa tərəfindən göndərilən Osmanlı qoşunu, İrəvan bəylərbəyi Xızır paşanın rəhbərliyi altında Naxçıvanı ələ keçirdi.[2]

Beləliklə, 1586-1589-cu illərdə demək olar ki, əksər Azərbaycan torpaqları Osmanlı ordusu tərəfindən ələ keçirildi. Osmanlıların müvəffəqiyyəti Özbək hakimlərinin Xorasana basqınları ilə təmin edildi. Bu dövrdə ölkədə qızılbaş əmirləri arasındakı çəkişmələrin davam etməsi, şərqdən özbəklərin və qərbdən Osmanlı təhlükəsinin varlığı Şah I Abbası sultanla sülh danışıqlarına başlamağa vadar etdi. Osmanlı dövlətinin də sülh danışıqlarına başlaması üçün mühüm səbəblər mövcud idi. Uzun müddət davam edən hərbi əməliyyatlar maddi cəhətdən ciddi çətinliklər yaratdı. Fəth olunan yerlərdən əldə olunan gəlir xərcləri

1 B. Kütükoğlu, **Osmanlı-İran siyasi münasebetleri**, Özal Matbaası, İstanbul 1993, s. 191-193; F. Kırzıoğlu, **Osmanlıların Kafkas ellerini fethi**, Türk Tarih Kurumu Basımevi, Ankara 1976, s. 367-368.

2 **Шараф хан Бидлиси. Шараф-наме**, т. 2. Перевод, предис., прим., прил. Е.И.Васильевой. Москва, 1976, с. 260.

ödəmirdi. Alınan sərt tədbirlərə baxmayaraq, sərhəd qalalarında fərarilik artmış, əsgərin intizamı azalmış və qiyamlar yüksəlmişdi. Buna görə də, sülh bağlanması iqtisadi, hərbi və siyasi baxımdan zəruri olmuşdu.[3]

**İstanbul sülhünün imzalanması. Sülhdən sonra Səfəvi-Osmanlı diplomatik əlaqələri**

Şah I Abbasın vəzirlərinin iki ilə qədər Qəzvində saxlanılan Çaşnigir Vəli ağa ilə aparılan danışıqlardan sonra Ərdəbil hakimi Mehdiqulu xan Ustaclının rəhbərliyi altında Heydər Mirzə, lələsi Şahqulu Xəlifə, Əliqulu Əlican sultan, Mehdiqulu sultan və şahzadənin həkimi Təbib Əbutalib altı yüz qorçi ilə birlikdə elçi kimi İstanbula göndərildi. Elçi heyəti Ərdəbilə gələn zaman Vəli ağa, Bayram Çavuş və şahın Eşikağası Əli xan şahzadə Heydər Mirzənin gəlməkdə olduğunu xəbər vermək üçün Ərzurumda olan Fərhad paşanın yanına göndərildi. Səfəvi elçi heyəti qışın sərt keçməsinə baxmayaraq, 1590-cı il yanvarın 18-də İstanbula çatdı. Yanvarın 24-də elçi heyəti vəzirlər tərəfindən qəbul edildi. Sultan III Murad yanvarın 28-də Heydər Mirzəni və elçi heyətini qəbul etdi. Mehdiqulu xan Şah I Abbasın məktubunu sultana təqdim etdi.[4] Mehdiqulu xanın rəhbərliyi altında Səfəvi nümayəndə heyətinin sülh müzakirələrini davam etdirməsinə icazə verildi. İşğal olunmuş ərazilərin Osmanlı dövlətinin nəzarətində qaldığı qəbul edildi. Martın 21-də Osmanlı-Səfəvi müharibəsinə son qoyan sülh müqaviləsi imzalandı.[5]

Sülhün bağlanmasından dərhal sonra əsirlər azad edildi. Səfəvi elçiləri İstanbulu tərk etmədən "kürək cəzası" ilə saxlanılan Səfəvi əsirləri azad olundu. Təbriz döyüşləri zamanı əsir alınaraq Qəhqəhə qalasında saxlanılan Murad paşa, Həsən paşa və digər Osmanlı əsirlərinin azad edilərək İstanbula dönməsi ilə Osmanlıların əlində olan Şahrux xan, Mehdiqulu xan Şamlı, Qorxmaz xan Şamlı, Əbül Məsum sultan və digər əsirlərin azad edilməsinə razılıq verildi.[6]

Bununla da, on iki il davam edən Səfəvi-Osmanlı müharibəsi 1590-cı il İstanbul sülhü ilə başa çatdı. İstanbul sülhü iki dövlət arasında müharibəyə son qoymaqla yanaşı, diplomatik əlaqələrin genişlənməsi üçün geniş imkanlar

---

3 Kütükoğlu B., **Osmanlı-İran siyasi münasebetleri**, s. 195; Nəcəfli T.H., **Səfəvi-Osmanlı münasibətlər**, Turxan NPB, Bakı 2014, s. 264-265.

4 Kütükoğlu B., **age.**, s. 196-197; Kırzıoğlu F., **age.**, s. 377-380.

5 Yenə orada.

6 Kütükoğlu B., **age.**, s. 197-198; Nəcəfli T.H., **age.**, s. 266.

yaratdı. Səfəvi-Osmanlı sülhünün bağlanmasından sonra iki dövlət arasında sülhə görə müəyyən edilən sərhədlərin təyin olunması məsələsi gündəmə gəldi.[7]

Azərbaycandakı Osmanlı-Səfəvi sərhədlərinin dəqiqləşdirilməsində heç bir problem yaranmadı. Sərhədlərin müəyyən edilməsi üçün təyin olunan Xızır paşa, Təbrizdə Cəfər paşa ilə müzakirələrdən sonra Eşqəmbər yaylağında Səfəvi nümayəndələri ilə görüşdü. Marağa vilayətinin sərhədlərindən Araz çayının cənubunda yerləşən Dəliklidaş Dərbəndinə qədər olan ərazi Təbriz vilayətinin sərhədi kimi müəyyən olundu. Dəliklidaş Dərbəndindən Xəzər dənizinə qədər olan Araz və Kür çayları isə İrəvan, Gəncə və Şirvan vilayətlərinin cənub sərhədini təşkil etdi.[8] Qazi Əhməd Quminin verdiyi məlumata görə, Qəzvin hakimi Qara Həsən Çavuşlu, Təbrizdən 10 fərsəx aralıda yerləşən Əriştənab kəndində Osmanlı nümayəndələri ilə görüşdü. O, Əriştənab kəndindən Təbrizə qədər olan ərazilərin Osmanlılara verildiyini, Türkmənkəndi və Miyanəyə qədər olan ərazilərin isə Səfəvilərin nəzarətində qaldığını qərara alaraq Qəzvinə döndü.[9]

Xızır Paşa, Səfəvi şahının nümayəndələri ilə Şəhrizor-Bağdad sərhədində görüşərək sərhədləri dəqiqləşdirən zaman, Nihavənd vilayətinin hüdudları ilə bağlı müəyyən narazılıq ortaya çıxdı. Səfəvi hökmdarı Qorçi Qara Həsəni Nihavəndin sərhədini müəyyən etmək üçün göndərdiyindən, Osmanlı sultanı Xızır Paşanı Bağdad bəylərbəyi təyin edərək sərhədin dəqiqləşdirilməsini ona həvalə etdi. Bu zaman Səfəvi hökmdarı ilə Osmanlı sultanı arasında yaşanan hadisə ilə əlaqədar diplomatik təmaslar sürətləndi. 1591-ci il avqustun 30-da İstanbula gələn Səfəvi elçisi Qara Əhməd Sultan, sentyabrın 8-də III Muradla görüşərək Şah I Abbasın məktubunu ona təqdim etdi. Səfəvi elçisi, məktubla birlikdə Nihavənd qalasının Səfəvilərə verilməsi tələbini Sultan III Murad qarşısında gündəmə gətirmək istəsə də, Osmanlı vəzirləri elçiyə bu tələbi səsləndirməməyi tövsiyə etdilər.[10]

---

7 B. Kütükoğlu, **age.**, s. 202-203; R. Kılıç, **XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi Antlaşmaları**, Tez Yayınları, İstanbul 2001, s.133-134.

8 R. Kılıç, **age.**, s. 134.

9 Qazi Ənməd Qumi, **Xülasatüt-təvarix**, Hans Müller nşr., Wiesbaden 1964, s. 95; Kütükoğlu, **age.**, s. 203; Ş. Məmmədova, "Xülasət ət-təvarix", **Azərbaycan tarixinin mənbəyi kimi**, Elm, Bakı 1991, s. 101.

10 M. Selaniki, **Tarih-i Selaniki**, Haz. Mehmet İpşirli, İstanbul 1989, s. 43-44; Kütükoğlu, **age.**, s. 206; Y. Öztuna, **Başlangıcında zamanımıza kadar Türkiye tarihi**, C 8, Ankara 1965, s. 14; Kılıç, **age.**, s.135.

Bu dövrdə Səfəvi-Osmanlı münasibətlərinə, xüsusən də diplomatik əlaqələrə Gilan məsələsi öz təsirini göstərdi. Gilan hakimləri hakimiyyətə irsi yolla gəldikləri üçün Səfəvi şahlarının mərkəzləşdirmə siyasətindən narazı idilər. 1588-ci ildə Xanəhmədin vəzirlikdən azad etdiyi Xacə Məsih Qəzvinə gələrək Şah I Abbası Gilanı ələ keçirməyə təşviq etdi. Bu zaman, Qəzvin hakimi Məhəmməd Şərif xan Çavuşlu başda olmaqla, Şah I Abbasdan narazı olan bəzi əmirlərin Gilana qaçması və Xanəhməd tərəfindən himayə edilmələri, şahın onları geri qaytarmaq tələbini rədd etməsi Şah I Abbas ilə Xanəhməd arasındakı münasibətləri xeyli gərginləşdirdi. Gilan hakiminin Osmanlı sultanları ilə məktublaşması və irsi hakimiyyətlərini saxlamaq niyyəti ilə onlara bel bağlaması, müstəqillik arzusu və Səfəvi xanədanına qarşı bəzi "ağılsız və müxalif" hərəkətləri Şah I Abbasın diqqətindən yayınmadı. Gilan hakimi Xanəhməd, 1590-cı ildə Osmanlı-Səfəvi sülhünün bağlanmasından sonra, Səfəvi şahına müxalif olan əmirlərə sığınacaq verərək onları qaytarmaqdan imtina etməklə açıq şəkildə Şah I Abbasa qarşı çıxmışdı. Şah I Abbas, Qızılbaş əmirlərinin nüfuzuna ağır zərbə vuraraq mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışdığı üçün Xanəhməd, şahın Gilana yürüş edəcəyini bildiyindən İstanbula elçi göndərərək Osmanlı dövlətindən yardım istədi. O, Osmanlı sultanına göndərdiyi məktubunda yazırdı: "Əgər siz Xəzər dənizindən gəmilərlə Gilana gəlsəniz, heç bir çətinlik çəkmədən bütün Gilanı ala bilərsiniz. Mən də sizə yardım edərəm. Buradan bütün İranı da fəth edə bilərsiniz".[11]

İstanbul sülhündən sonra sərhəd məsələlərindəki anlaşılmazlıq, Xanəhmədin İstanbula sığınması hadisəsi ilə yanaşı, İstanbulda girov saxlanılan Heydər Mirzə ilə bağlı hadisələr də Səfəvi-Osmanlı diplomatik əlaqələrinə təsir göstərmişdi. 1595-ci ildə Şah I Abbas, şahzadə Heydər Mirzənin durumunu öyrənmək və dayəsini gətirmək üçün Qəzvin hakimi Şah Kərəm bəyi İstanbula göndərdi. Şah Kərəm bəy, Səfəvi şahının məktubunu və III Murad üçün nəzərdə tutulan hədiyyələri təqdim etmək üçün yola çıxdı, lakin İstanbula III Muradın ölümündən sonra yetişə bildi.[12] Şah Kərəm bəy, III Mehmedin taxta çıxmasını təbrik etmək üçün təşkil olunan mərasimdə iştirak etməyən Heydər Mirzə və lələsi ilə birlikdə Ali Divana qəbul edildi. O, III Murad üçün gətirdiyi məktub və hədiyyələri Sultan III Mehmedə təqdim etdi.[13]

11 C. Aydoğmuşoğlu, **I. Şah Abbas ve zamanı (1587-1629)**, Berikan Yayınevi, Ankara 2013, s. 3.
12 Selaniki, **age.**, s. 54.
13 Kılıç, **age.**, s. 139; Nəcəfli, **age.**, s. 282.

Bir müddət sonra Şah I Abbas Ərdəbil hakimi Zülfüqar xan Qaramanlını geniş bir nümayəndə heyəti və qiymətli hədiyyələrlə hakimiyyətə keçməsi münasibətilə Sultan III Mehmedi təbrik etmək üçün İstanbula göndərdi.[14] "Zülfüqar xan ləşkərin ən seçilmiş adamlarından olan üç yüz mülazimini təmtəraqla bəzəyib özü ilə apardı və həmin səfərdə çox məsələni lazımi kimi başa çatdırdı. Belə ki, rumiyyənin bəzi alçaq xislətli adamları xanı səfehlik və israfda günahlandırsalar da, Rum padşahı, vəzirlər və paşalar xana cənnətməkan şahın vaxtında olduğundan da böyük ehtiramla yanaşmışdılar".[15] Səfəvi elçiləri 1596-cı il iyulun 5-də Ərzuruma çatdılar. Lakin bu zaman Osmanlı sultanı Eğri səfərinə çıxdığı üçün elçinin Ərzurumda gözləməsi münasib bilindi. Bir müddət sonra elçinin İstanbula hərəkət etməsinə razılıq verildi və Zülfüqar xan noyabrın 14-də top sədaları altında Eminönündə təmtəraqla qarşılandı.[16] 1597-ci ilin yanvarında Zülfüqar xan Ali divana qəbul edildi, Şah I Abbasın məktubu və gətirilən hədiyyələr Osmanlı sultanına təqdim olundu. Osmanlı sultanı İstanbul sülhünə sadiq qalacağına təminat verdi.

1598-ci ilin yayında Şah I Abbas Şeybanilər üzərində parlaq qələbə qazanaraq onların nəzarətində olan Xorasanı geri qaytara bildi. Səfəvi şahı əldə etdiyi qələbəni III Mehmedə xəbər vermək üçün Məhəmmədqulu bəy Ərəbgirlini (Eşikağası Qaraxan ağa) İstanbula göndərdi. 1599-cu ilin iyulun 11-də elçi İstanbula çatdı və Yusif paşa sarayında yerləşdirildi. O, avqust ayında on beş nəfərlik heyəti ilə Ali divana qəbul edildi, şərəfinə ziyafət verildi və hədiyyələr təqdim olundu.[17]

Beləliklə, Səfəvi şahı atdığı bu addımla Osmanlı sultanının Səfəvilərə qarşı hər hansı bir tədbir görməsinin qarşısını aldı.

XVI əsrin sonunda Şah I Abbas Osmanlı dövləti ilə bağlanmış İstanbul müqaviləsinin şərtlərinə əməl etməyə çalışaraq onun pozulmasına yol verməməyə çalışırdı. Bu zaman Səfəvi şahı yaranmış dinc şəraitdən istifadə edərək güclü nizami ordu yaratdı.

---

14 Selaniki, **age.**, s. 59; Kütükoğlu, **age.**, s. 217-218; Kılıç, **age.**, s. 140-141.

15 Münşi İsgəndər bəy, **Dünyanı bəzəyən Abbasın tarixi**, Fars dilindən çevirən: Ş.F. Fərzəliyev t.e.d., prof. I Kitab, Bakı 2010, s. 949.

16 Kütükoğlu, **age.**, s. 217-218; Kılıç, **age.**, s. 140-141.

17 Selaniki, **age.**, s. 67-68; Kılıç, **age.**, s. 142.

XVII əsrin astanasında Şah I Abbas qazandığı hərbi uğurları daha da möhkəmləndirmək üçün Avropa dövlətləri ilə diplomatik əlaqələri gücləndirmək və Osmanlı dövlətinə qarşı müttəfiqlər qazanmaq məqsədilə öz elçilərini Avropa ölkələrinə göndərdi.[18]

Bu dövrdə Avstriya ilə müharibənin davam etməsi və Cəlali üsyanları Osmanlı dövlətinə Səfəvilərlə ciddi məşğul olmağa imkan vermədi.[19]

Şah I Abbasın elçiləri vasitəsilə Avropa dövlətləri ilə apardığı danışıqlar göstərdi ki, o, Osmanlı dövlətinə qarşı müharibəyə başlamağa qərarlıdır. Şah I Abbas Azərbaycanın yürüş üçün fürsət gözlədiyi bir dövrdə Salmas hakimi Qazi bəy yardım üçün ona müraciət etdi. Osmanlıların əlində olan Nihavənd qalası Aləşgərd hakimi Həsən xan tərəfindən ələ keçirilib talan edildi. Səfəvi tacirlərindən biri Vanda Əhməd paşa tərəfindən tutularaq qətl edildi.[20] Bu vəziyyət Səfəvi şahına Osmanlı dövlətinə qarşı müharibəyə başlamaq üçün imkan yaratdı. Təbriz hakimi Əli paşanın Qazi bəyin sığındığı Qarnıyarıq qalasını mühasirəyə aldığına görə, 1603-cü ilin avqustunda Qazi bəy oğlu Abdal xanı yardım üçün Şah I Abbasın yanına göndərdi. Bu, Səfəvi şahının müdafiəsiz qalan Təbriz üzərinə yürüşə başlamasına şərait yaratdı.[21]

## Şah I Abbasın Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başlaması. İstanbul sülhü

XVII əsrin əvvəllərində Osmanlı dövlətinin Avstriya ilə apardığı müharibədəki uğursuzluğu, ölkə daxilində narazılığın artması, mərkəzi hakimiyyətə qarşı yeniçəri qiyamlarının daha da güclənməsi Səfəvi şahına itirilmiş əraziləri geri qaytarmaq üçün Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başlamağa imkan yaratdı. Bu zaman Azərbaycanda Osmanlı hakimiyyəti xeyli zəifləmişdi. Yerli feodallar Səfəvi dövlətinə Osmanlı işğalından özlərinin xilaskarı kimi baxırdılar. F. Sümer yazır ki, Osmanlı dövlətinin Avstriyaya qarşı başladığı müharibənin uzun illər davam etməsi vəziyyəti çətinləşdirirdi, dövlətin əsl dayağı və qüvvət mənbəyi olan Anadoluda böyük qarışıqlıq ortaya çıxdı. Sərhəd əyalətlərində Qızılbaş hücumlarına qarşı dayanmağa qabil olan bəylərbəyilər tapılmadı.[22]

---

18 F. Sümer, "Abbas I", **İslam Ansiklopedisi**, T.D.V. Yayınları, C I, İstanbul 1988, s. 18; Kütükoğlu, **age.**, s. 250.

19 Ö. Küpeli, **Osmanlı-Safevi Münasebetleri (1612-1639)**, Yeditepe Yayınevi, İstanbul 2014, s. 53.

20 Kılıç, **age.**, s. 154.

21 Kütükoğlu, **age.**, s. 260-261.

22 Sümer, **age.**, Ankara 1992, s. 152-153.

Azərbaycanda Osmanlı ağalığına qarşı başlanan üsyanlardan istifadə edən Şah I Abbas 1603-cü il sentyabrın 14-də Azərbaycana yürüşə başladı. Səfəvi şahı yürüşün gizli qalmasını münasib bildiyi üçün Mazandaranda ova çıxacağı xəbərini ətrafa yayaraq 2-3 minlik qüvvə ilə hərəkətə başladı. Digər qüvvələr yolda şaha qatıldı. Sentyabrın 27-də Səfəvi ordusu Təbrizi mühasirəyə aldı.[23] Şahın başçılığı altında Səfəvi ordusunun yürüşünün on dördüncü günü Təbrizə yaxınlaşması şəhər əhalisinin osmanlılara qarşı üsyana ruhlandırdı. Üsyan etmiş Təbriz sakinləri şəhəri ələ keçirdi. Səfəvi ordusu şəhərə daxil oldu və Osmanlı ordusunun sığındığı qalanı aldı. Təbrizin azad edilməsi Səfəvi ordusunun qərbə doğru irəliləməsinə şərait yaratdı.[24]

Şah I Abbas Culfanı və Naxçıvanı azad etdikdən sonra İrəvan qalasını ələ keçirməyi qərara aldı. İrəvan qalası 1603-cü il oktyabrın 18-də mühasirəyə alındı. Qalada Şərif paşanın 10 minlik Osmanlı qarnizonu möhkəmləndirilmiş üç istehkam xətti ilə müdafiə olunurdu. Buna görə də mühasirə uzun müddət davam etdi. 1604-cü il iyunun 8-də İrəvan qalası ələ keçirildi.[25] Osmanlı sultanı I Əhməd hərbi əməliyyatlarda dönüş yaratmaq üçün Ciğaloğlu Sinan paşanı İrəvan üzərinə göndərdi. Lakin qızılbaşlar tərəfindən ərzaq ehtiyatlarının məhv edilməsi onların vəziyyətini ağırlaşdırdı və qoşunda narazılıq başlandı. 1605-ci il noyabrın 7-də Sufiyan döyüşündə Şah I Abbas Ciğaloğlu Sinan paşanın ordusunu ağır məğlubiyyətə uğratdı. Sinan paşanın bu səfəri iki ciddi və təhlükəli nəticələr doğurdu. Bir tərəfdən Anadoluda siyasi sabitlik pozuldu, digər tərəfdən də Şah I Abbas vaxtı ilə fəth olunmuş əraziləri geri qaytara bildi.[26]

Şah I Abbas Sinan paşa üzərindəki qələbədən sonra qışın sərt keçməsinə baxmayaraq, Qarabağa daxil olaraq Gəncəni mühasirəyə aldı. 1606-cı il iyulun 4-də dörd aylıq mühasirədən sonra Səfəvi ordusu osmanlıların müqavimətini qıraraq Gəncəni azad etdi. Məhəmməd Ziyadoğlu Qacar Qarabağ bəylərbəyi təyin olundu. Gəncənin ələ keçirilməsi Lori, Tiflis və Dmanisin müqavimət göstərmədən təslim olmasına səbəb olduSəfəvi şahı Şirvanın və Dağıstanın azad edilməsi ilə Qafqaz əməliyyatını mümkün qədər tez başa çatdırmaq istəyirdi. 1607-ci ilin yazında Bakı və Dərbənd şəhərləri azad olundu. 1607-ci il yanvarın

23 Kütükoğlu, **age.**, s. 261.

24 T. H. Nəcəfli, **Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti**, Turxan, Bakı 2020, s. 116.

25 Kütükoğlu, **age.**, s. 264-266; Kılıç, **age.**, s. 155-157.

26 R. Kılıç, "Osmanlılar ilə Safeviler arasında Nasux Paşa (1612) ve Serav (1618) andlaşmaları", **Niğde Üniversitesi Egitim Fakultesi Egitim ve Bilim Dergisi**, Sayı 2, Niğde 2003, s. 126.

9-da Şahın təslim təklifini Şirvan bəylərbəyi Əhməd paşa qəbul etmədiyi üçün Şamaxı üzərinə hücuma başlandı. Ciddi müqavimətə baxmayaraq iyunun 27-də şəhər azad olundu. Zülfüqar xan Qaramanlı Şirvan bəylərbəyi təyin olundu. Beləliklə, 1603-1607-ci illər Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsində Səfəvilərin Osmanlı ordusu üzərində qazanmış olduqları qələbələr nəticəsində Azərbaycan ərazisi tamamilə işğaldan azad olundu.

Dövrün qaynağı olan "Karmelit xronikası"nda I Şah Abbasın əldə etdiyi uğurlar barədə deyilir: "Şah Abbas... çox cəsarətlidir və müharibədə böyük nailiyyətləri var. Biz bütün bunların canlı şahidiyik. Onun hakimiyyəti xeyli ərazilərə – şərqdə Xorasanı tatarlarla geri alıb, şimalda Gilan onun tabeçiliyindədir. O, özünü artıq Kəngər körfəzinin tam sahibi kimi aparır. Qərbdə bir çox əraziləri türklərdən geri alıb – Ərdəbil, İrəvan, Naxçıvan, Ərzurum, Təbriz, Şirvan, Kürdüstan, Gürcüstan və digər ərazilər – Dəmirqapı Dərbənd onun nəzarəti altındadır".[27]

Səfəvi sarayı Osmanlı dövləti ilə sülh bağlamağa çalışsa da, bu mümkün olmadı. 1609-cu ilin fevralında baş vəzir Murad paşa Cəlalilər üzərinə son yürüşə çıxmaq üçün Üsküdara keçmədən öncə, Şah I Abbasın Şəmsəddin ağa Rumlu vasitəsilə çatdırılan məktubuna "güvənilən elçilər gəlirsə, sülhün bağlanmasına yardımçı olacağına, əks təqdirdə baharda səfərə çıxacağını" bildirdi.[28]

Osmanlı dövləti Azərbaycan torpaqlarının itirilməsi ilə razılaşmayaraq, hər vəchlə 1590-cı il sülhünün şərtlərini saxlamağa çalışırdı. Buna görə də 1610-cu ildə hərbi əməliyyatlar yenidən başladı. Aprel ayında Murad paşanın Azərbaycana yürüşü uğursuz oldu. Osmanlı ordusu Təbrizə kimi irəliləsə də, tərəflər hər hansı bir döyüşdən çəkindi. Görünür, Şah I Abbas Anadoluda Cəlalilərin müqaviməti qırıldığına və Avstriya ilə Jitvatoroq sülhü bağlandığına görə, Osmanlı ordusu ilə vuruşmaq istəməmişdi.[29] Tərəflər arasında davam edən məktublaşmalar da gözlənilən nəticəni vermədi. Səfəvilərlə döyüşmədən öz tələblərini onlara qəbul etdirməyi düşünən Murad paşa, Şah I Abbasa Xeyrəddin Çavuş vasitəsilə göndərdiyi məktubunda "III Murad dövrü sərhədlərinin bərpası şərti ilə sülh təklif etsə də", Osmanlı ordusu Ərzuruma gəldiyi vaxt Osmanlı elçisi ilə bərabər

27 **A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17 and the 18 centuries.** Editor H.Chick, İntroduction Rudi 513. C in 2 volumes.Vol.1, London: 2012, p. 160-161; Nəcəfli, **age.**, s. 117.

28 Kütükoğlu, **age.**, s. 277; Kılıç, agm., s. 127.

29 İ.H. Danişmend, **İzahlı Osmanlı tarihi kronolojisi**, C III, Yeni Matbaa, İstanbul 1965, s. 254.

göndərilən Səfəvi elçisi Şəmsəddin ağanın gətirdiyi cavabda “Sultan Süleyman Qanuni dövründə bağlanmış Amasya sülhünün əsas götürülməsi” istənilmişdi.[30]

Osmanlı ordusu Qarsa gəldiyi zaman Quyucu Murad paşa, Şah I Abbasa daha bir məktub yollayaraq barışıq haqqında səmimiyyət göstərməsi üçün sultana hədiyyələr göndərməsini bildirdi. Həmçinin, Murad paşa sultanın adına xütbə oxunan yerlərdən əl çəkməsi şərti ilə sülh bağlamaq üçün vasitəçi olacağını bildirdi.[31] 1610-cu il noyabrın 16-da Təbrizin şimalında Acı çayın sahilində Osmanlı və Səfəvi ordusu 5 gün qarşı-qarşıya dayanaraq gözləmə mövqeyi tutdu. Murad paşa yenidən məktub göndərərək sülh bağlamaq üçün təklifini təkrar etsə də, verilən cavabda şərtlərin dəyişmədiyi, Amasya sülhünün əsas götürülməsi bildirilmişdi. Bu zaman Osmanlı ordusu geri çəkilməyə başlamışdı. Bunun səbəbi kimi orduda ərzağın çatışmaması və Şah I Abbasın gizli barışıq təklif etməsi göstərilir. Səfəvi şahının bu təklifi gizli saxlamasına səbəb isə əmirlərin etirazından çəkinməsi olmuşdu.[32]

Qeyd etmək lazımdır ki, həm Murad paşa, həm də Şah I Abbas sülhün bağlanmasında ilk addım kimi qarşılıqlı olaraq əllərindəki əsirləri azad etmişdilər.[33]

Lakin 1611-ci ilin avqustunda Murad paşanın ölümü ilə tərəflər arasında başlanan danışıqlar bir nəticə vermədi. Baş vəzir təyin olunan Diyarbəkr bəylərbəyi Nasuh paşa Şah I Abbasın sülh təşəbbüsünü müsbət qarşıladı. Tərəflər sülh bağlamağa maraqlı olduqlarını bildirdilər. Danışıqların bu mərhələsində də əvvəllər olduğu kimi, gürcü qızı Gülçərə fəal rol oynadı.[34] İsgəndər Münşi qeyd edir ki, çar Simon şaha sadiq qaldığı üçün Tiflis qalası onun nəvəsinə tapşırıldı.[35] Osmanlı dövləti ilə müharibə Səfəvi şahını müttəfiqlərlə hesablaşmağa və bəzən onların tələblərini yerinə yetirməyə vadar etmişdi. İstanbuldakı fransız səfiri de Salinyak 1609-cu il sentyabrın 15-də Fransa kralına yazırdı: “Səfəvi ölkəsindən

30 İ.H. Uzunçarşılı, **Osmanlı tarihi**, C III/1, s. 66; Kılıç, agm., s. 127.

31 Kılıç, agm., s. 127.

32 Uzunçarşılı, **age.**, s. 66; M. Çezar ve M. Sertoğlu, **Müfassal Osmanlı tarihi**, C 3, İstanbul 1956, s. 1739; Kılıç, agm., s. 127.

33 Öztüna, **age.**, s.184; Kılıç, agm., s. 127.

34 Сванидзе М.Х. «Турецко-Иранские отношения в начале XVII в. И Грузия». // **Проблемы истории Турции.** М.. 1978, с.27.

35 İsgəndər bəy, **age.**, s. 1464.

olan qadın bu işə yaxından cəlb olunmuş və sərbəst şəkildə şahın və sultanın yanına gələ bilir. O, artıq üç gündür buraya gəlmişdir ki, onlar arasında sülh bağlasın”.[36]

Osmanlı baş vəziri Nasuh paşa Şah I Abbasın elçilərini şahın məktubu və hədiyyələri ilə birlikdə Diyarbəkrdə qəbul etdi. Səfəvi elçi heyətinə qazıəsgər Qazi xanın rəhbərliyi altında İsfahan qazısı Muizzi İsfahani və Qəzvin qazısı Hüseyn Yəzdi daxil olmuşdu.[37] Qazi xanın rəhbərliyi və gürcü diplomatın müşayiəti ilə Səfəvi elçiləri 1612-ci il sentyabrın 27-də İstanbula çatdı. J. Hammer qeyd edir ki, bu, həmin qadın diplomat idi ki, əvvəllər Osmanlı baş vəzirinin tapşırığı ilə Səfəvilərlə sülh danışıqlarını aparmışdı.[38] Səfəvi elçiləri oktyabrın 17-də Sultan Əhməd tərəfindən qəbul edildi. Şah I Abbasın məktubu və hədiyyələr sultana təqdim olundu. 1612-ci il noyabrın 20-də İstanbulda Səfəvi-Osmanlı sülhü imzalandı.[39] Burada diqqəti cəlb edən cəhət, əvvəlki Səfəvi-Osmanlı sülh müqavilələrindən fərqli olaraq, bu sülhü tanınmış din xadimlərinin bağlaması idi. Səfəvi elçilərinə tanınmış şiə ruhanisi rəhbərlik etdiyi üçün Osmanlı tərəfini də Xoca Sadəddin Əfəndinin oğlu şeyxülislam Mehmed Əfəndi təmsil etmişdi.[40] Bağlanmış sülhün[41] şərtlərinə görə, Osmanlı və Səfəvi dövlətləri arasında Amasya sülhünün müəyyən etdiyi sərhədlər qəbul edilir. Təsbit edilən Osmanlı-Səfəvi sərhədlərini müəyyən etmək üçün Osmanlı tərəfini Bağdad bəylərbəyi Mahmud paşa və Van bəylərbəyi Mehmed paşa təmsil edəcəkdi.[42] Səfəvi tərəfinə isə Çuxursəd bəylərbəyi Əmirgünə xan Ustaclı və Məhəmmədqulu xan rəhbərlik edəcəkdi.

Səfəvi şahının elçiləri Sultan Əhməd tərəfindən təkrar qəbul edildi və geri dönmələrinə icazə verildi. Ərzurum bəylərbəyi Həsən paşanın və İncili Mustafa Çavuşun müşayiəti ilə Səfəvi elçiləri 1612-ci ilin noyabrında geri qayıtdı[43] Səfəvi-Osmanlı sülhünün bağlanması nəticəsində tərəflər arasında 9 ilə kimi davam edən müharibəyə son qoyuldu. İstanbul müqaviləsi rəsmi olaraq

---

36 J. B. De Salignac, **L`abassade en Turquie 1605-1610**, correspondences diplomatiques et documents inedits, Vol. 2, Paris 1889, p. 302.

37 Kütükoğlu, **age.**, s. 277; Kılıç, agm., s. 127-128.

38 Bax: Сванидзе М.Х. «Турецко-Иранские отношения в начале XVII в. И Грузия», с. 27-28.

39 Kütükoğlu, **age.**, s. 278; Kılıç, agm., s. 128.

40 E.R. Koçu, O**smanlı Muahedeleri ve Kapitülasyonlar**, İstanbul 1934, s. 58-59.

41 Feridun Ahmed bey, **Münşeatus-selatin**, C II, Takvimhane Matbaası, İstanbul 1859, s. 257-261.

42 Uzunçarşılı, **age.**, s. 66-67; Kütükoğlu **age.**, s. 278; Kılıç, **age.**, s. 167-168.

43 Uzunçarşılı, **age.**, s. 66-67; Kütükoğlu **age.**, s. 278; Kılıç, **age.**, s. 167-168.

Amasya sülhünün (1555) bərpa edildiyini nəzərdə tutsa da, sülhün şərtlərində müəyyən fərqlər var idi. Belə ki, 1612-ci il müqaviləsinə görə Şəhrizor əyaləti, Kürdüstanın bir hissəsi və Bağdad əyalətinin müəyyən hissəsi Osmanlı dövlətinə verilirdi. Müqavilə bağlanan zaman bu ərazilər Səfəvilərin nəzarətində olsa da, Amasya sülhünə görə Osmanlılara verilmişdi. Həmçinin, sülh bağlanan zaman Osmanlı dövlətinin nəzarətində olan Şərqi Mesxeti və Axalsık 1555-ci il sülhünə görə Səfəvi dövlətində olmuşdu. Bu məsələ ilə bağlı İsgəndər bəy Münşi maraqlı məlumat verir: “Cənnət aşiyanlı mərhum padşahların (Süleyman Qanuni və Şah Təhmasib – T.H. Nəcəfli) imzaladıqları [əvvəlki] sazişdən uzun müddət keçdiyi üçün, hazırlanan yeni sənəd ilə əlaqədar çoxlu ixtilaf ortaya çıxdı. Məsələn, sabiq sülh sazişinə görə bütün Gürcüstandan Mesq və Axisqə qalaları bu tərəfin sərhədi kimi tanınmasına baxmayaraq, indiyədək rumiyyənin əlində qalmaqda idi. Ərəbistan və Bağdad tərəfində də bəzi qala və mahallar rumiyyə sərhədinə daxil olduğu halda, hal-hazırda bu tərəf adamlarının əlindədir və onların boşaldılıb bir tərəfdən başqa tərəfə verilməsi olduqca çətindir. Əvvəla, ona görə ki, sülh sazişində göstərilmişdi: İmzalanma zamanı hər iki tərəf adamlarının əlində mövcud olan yerlər heç bir dəyişikliyə uğramadan saxlanılsın, tərəflər onlara şərik çıxmasınlar”.[44] Beləliklə, Səfəvi dövləti Osmanlılara nəinki 1555-ci il sülhünə görə onlara məxsus əraziləri, həm də Şərqi Mesxetini güzəştə getmişdi. Buna görə də, 1612-ci il sülhü sərhəd məsələlərində 1555-ci il müqaviləsinin şərtlərini təkrar etmədi.[45]

İstanbul sülhünün şərtləri arasında diqqəti cəlb edən mühüm cəhət Səfəvi-Osmanlı müqaviləsində ilk dəfə idi ki, “Şimali Qafqaz məsələsi” öz əksini tapmışdı. Müqaviləyə görə, Şamxal xan və digər Dağıstan hakimləri sultanın sadiq xidmətçiləri elan edilirdi. Beləliklə, Osmanlı dövləti Şimali Qafqazın müəyyən hissəsində möhkəmlənir və zərurət olarsa, Səfəvilərə qarşı müharibədə bu ərazidən plasdarm kimi istifadə edə bilərdi. Bununla da Osmanlılar Cənubi Qafqazın şərqində, xüsusən də Kartli və Kaxetdə baş verən hadisələrə nəzarət etmək imkanı qazanırdılar. Buna baxmayaraq, 1612-ci il sülhü Osmanlı dövlətinin hərbi qüdrətini zəiflətmiş oldu. Çünki o, 1590-cı il sülhü ilə qazandığı əraziləri itirmiş oldu.

---

44 İsgəndər bəy, **age.**, s. 1546-1547; **Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке**, Баку 1981, c. 79.

45 Bax: **Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке**, c.79.

Sülhün şərtləri arasında Osmanlı sultanının vacib şərtlərindən biri də o idi ki, "rusların bu yerlərə yürüşlərinin qarşısını almaq məqsədilə onlar tərəfindən tikilmiş olan Tarku qalasının dağıdılması barədə sultanın fərmanı olarsa, onda şah bu işə maneçilik törətməsin." Belə bir şərti irəli sürən Osmanlı dövləti Səfəvilərlə Moskva knyazlığı arasında mümkün ittifaqın yaranmasına mane olmağa çalışmışdı.[46]

1612-ci il İstanbul sülhü, 1590-cı il sülhü ilə müqayisədə Şah I Abbas üçün irəliyə doğru atılmış mühüm addım idi. Lakin Səfəvi şahı da 1555-ci il sülhünü tamamilə bərpa etmədiyi üçün tamamilə razı qalmamışdı. Bununla belə, vaxtı ilə itirilmiş Azərbaycan torpaqlarının Osmanlı işğalından azad edilməsi Səfəvi imperiyasının keçmiş qüdrətinin bərpası yolunda qazanılan mühüm qələbə idi.

**Osmanlı-Səfəvi hərbi əməliyyatlarının yenidən başlaması. Mərənd sülhü**

Osmanlı və Səfəvi dövlətləri arasında imzalanan İstanbul sülhü üç ilə yaxın fəaliyyət göstərdi. Tərəflər Osmanlı-Səfəvi sərhədlərini Sultan Süleyman Qanuni dövründə olduğu kimi müəyyən etməyi qəbul etmələrinə baxmayaraq, Səfəvi nümayəndəsi İrəvan hakimi Əmirgünə xan 1614-cü ildə Van bəylərbəyi ilə danışıqlarda Axıskanın Qanuni dövründə Səfəvilərdə olduğunu irəli sürərək anlaşılmazlıq yaratmışdı. Buna görə də, Osmanlı hökuməti Səfəvi elçisi Qazi xanla danışıqlarda əldə olunan qərarlara zidd olan bu cür hərəkətlərin sülhü pozacağını bildirmişdi.[47] Yuxarıda qeyd etdiyimiz kimi, sülhün şərtləri arasında bu məsələ rəsmi olaraq öz əksini tapmadığı üçün bununla bağlı Səfəvi nümayəndəsinin tələbi ciddi mübahisəyə şərait yaratmışdı. Şübhəsiz ki, Axıska qalasının Osmanlı nəzarətində qalması 1612-ci il sülhünün möhkəm olmadığını göstərdi.[48]

Bu dövrdə Osmanlı dövlətini narahat edən məsələlərdən biri də Səfəvi paytaxtına danışıqlara göndərilən Osmanlı elçisi İncili Mustafa Çavuşun Şah I Abbas tərəfindən saxlanılması və iki il keçməsinə baxmayaraq geri göndərilməməsi idi. Bu səbəbdən, 1615-ci il mayın 22-də baş vəzir Qara Mehmed paşa Səfəvilər üzərinə yürüşə çıxmaq üçün Üsküdara keçmişdi.[49]

---

46 **Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке,** с.79; **Azərbaycan tarixi.** Yeddi cilddə, üçüncü cild. Bakı, 1999, s.259.

47 Kütükoğu, **age.**, s. 278; Kılıç, **age.**, s. 169-170.

48 **Azərbaycan tarixi,** Üçüncü cild, s. 259.

49 Uzunçarşılı, **age.**, s. 67; Kütükoğlu, **age.**, s. 279; Kılıç, **age.**, s. 170.

Qeyd etmək lazımdır ki, Sultan I Əhmədin İstanbul sülhünün şərtlərini pozaraq Səfəvi dövlətinə qarşı yeni müharibəyə qərar verməsi yalnız Şah I Abbasın illik ipək xəracı göndərməməsi və Axıska ilə bağlı narazılıqla bağlı olmamışdı. Burada diqqəti cəlb edən cəhət, Osmanlılarla sülhün bağlanmasından sonra Səfəvi dövlətinin daxili və xarici siyasətində daha fəal addımlar atması idi. 1613-cü ilin oktyabrında I Şah Abbasın yerli əhalini itaətə gətirmək üçün Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana təşkil etdiyi yürüş uğurla başa çatdı. Səfəvilərin Cənubi Qafqazda möhkəmlənməsi Osmanlı rəsmi dairələrini ciddi şəkildə narahat etməyə başladı. Buna görə də Sultan I Əhməd yuxarıda qeyd edilən məsələləri əsas gətirərək Səfəvilərə qarşı müharibəyə qərar verdi. 1615-ci ilin iyununda Mehmed paşanın yüz minlik ordu ilə yürüşə başlayaraq Hələbdə qışladığını xəbər alan Şah I Abbas yeni müharibənin qarşısını almaq üçün elçisi Qasım bəyi iki yüz tay ipək və Osmanlı elçisi İncili Mustafa Çavuşla İstanbula göndərdi.[50] Səfəvi şahının müharibənin qarşısını almaq üçün göstərdiyi bu təşəbbüs cavabsız qaldı. Səfəvi elçisi Sultan I Əhməd tərəfindən qəbul edilməyərək Yeddiqüllədə həbsə atıldı.[51] Osmanlı sultanının Səfəvi şahının müharibənin qarşısını almaq üçün atdığı bu addımı rədd etməsinin səbəbləri aydın olmasa da, Türkiyə tarixçiləri bunu I Şah Abbasın yalnız bir illik ipək xəracı göndərməsi ilə izah etməyə çalışırlar.[52]

1616-cı ilin aprelində Mehmed paşanın rəhbərliyi altında Osmanlı ordusu yürüşə başlayaraq Qarsa gəlmişdi. Yürüşdə məqsəd İrəvan şəhərini Səfəvilərdən almaqdı.[53] 1616-cı ilin sentyabrın 11-də Osmanlı ordusu İrəvanı mühasirəyə aldı. Şah I Abbas qorçiləri, Xorasan dəstəsini və İsfahan tüfəngçilərini irəvanlıların köməyinə göndərdi. İrəvanın mühasirəsi osmanlılar üçün çox çətin oldu. Mühasirənin uzanması Osmanlı ordusunun vəziyyətini daha da ağırlaşdırdı. Osmanlı ordusunun ərzaq və sursat çatışmazlığı ilə üzləşməsi Mehmed paşanı Xəlil adlı elçini Şah I Abbasın yanına barışıq üçün göndərməyə məcbur qoydu. Şah I Abbas da Çıraq Sultan Ustaclını elçi göndərərək barışığın şərtlərini müzakirə etmək üçün dörd gün vaxt istədi.[54] Səfəvi şahı İrəvanın mühasirəsinin dayandırılması, İstanbul sülhünə görə veriləcək bacın 100 tay ipəyə endirilməsini

50 Uzunçarşılı, **age.**, s. 67; Kütükoğlu, **age.**, s. 279; Kılıç, **age.**, s. 170.
51 Yenə orada.
52 Yenə orada.
53 Kılıç, **age.**, s. 170.
54 Uzunçarşılı, **age.**, s. 68; Kılıç, **age.**, s. 171.

təklif etmiş və bu şərtlər Mehmed paşa tərəfindən müsbət qarşılanmışdı. Lakin İrəvan qalasını bərpa etmək üçün vaxt qazanan və qışın yaxınlaşması üzündən Osmanlıların geri dönəcəyini bilən Şah I Abbas verdiyi sözü tutmadığı üçün mühasirə davam etdirildi. Lakin qalanın müdafiəsi möhkəm olduğu üçün noyabrın 5-də mühasirə dayandırıldı.[55]

Şah I Abbas yenə də Osmanlılarla həlledici döyüşə girmək fikrindən daşındı. Osmanlı qoşununu mühasirəyə almağı, geriyə yolunu bağlamağı və hər vasitə ilə qoşuna ərzaq gətirolunmasına mane olmağı qərara aldı. Qışın sərt keçməsi, epidemiya və aclıq qələbəyə inamını itirmiş osmanlıları geri çəkilməyə vadar etdi.[56]

Beləliklə, Osmanlı ordusunun İrəvan səfəri gözlənilən nəticəni vermədi. Osmanlı ordusu ağır itki verdi. Ərzuruma geri dönən zaman 4 min əsgər və minlərlə heyvan itirdi.[57] İsgəndər bəy Münşinin fikrincə, osmanlılar bu yürüşdə 40 min qüvvə itirmişdi.[58]

1617-ci il iyunun 15-də baş vəzir Xəlil paşa Səfəvilərə qarşı “Ərdəbil səfəri” adı ilə tanınan yeni yürüşə başladı. Krım xanı Canıbəy Gəray Sultan I Əhmədin əmri ilə 40 minlik ordu ilə Gəncə, Naxçıvan və Culfa bölgələrini talan edərək sultanın qüvvələri ilə birləşdi.[59] Bu zaman Şah I Abbas sülhə təşəbbüs göstərsə də, Sultan I Əhməd onun səmimiyyətinə inanmadığı üçün bu təklifi rədd etdi.[60]

1618-ci ilin mayında Osmanlı sultanı II Osmanın əmri ilə Xəlil paşa Diyarbəkrdən Azərbaycanın istiqamətində yürüşə başladı. Onlarla birlikdə Osmanlı sultanının vassalı II Canıbəy Gəray xanın rəhbərliyi altında Krım tatarlarının qüvvələri də hərəkət etdi. Şah I Abbas Osmanlı ordusunun yaxınlaşdığını nəzərə alaraq Təbriz şəhərini, sonra isə Ərdəbili boşaltdırdı. Müttəfiqlər Səfəvilərin əsas qüvvəsinə zərbə vurmağa çalışırdı.[61] Bu zaman I Şah Abbas Osmanlılarla sülh bağlamağa təşəbbüs göstərərək vaxtı ilə əsir götürülmüş Krım xanının vəliəhdi Şahin Gərayı azad etmişdi. Lakin, iki tərəf arasında bir neçə dəfə elçi göndərilməsinə baxmayaraq, sülhün şərtlərində razılıq əldə olunmamışdı.[62]

---

55 Öztüna, **age.**, s. 186.
56 **Azərbaycan tarixi**, üçüncü cild, s. 260.
57 Öztüna, **age.**, s. 186.
58 **Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке**, c. 81.
59 Uzunçarşılı, **age.**, s. 68; Öztüna, **age.**, s. 187.
60 Öztüna, **age.**, s. 187.
61 Nəcəfli, **age.**, s. 125-126.
62 Öztüna, **age.**, s. 187.

1618-ci il sentyabrın 10-da Səfəvilərlə Osmanlı qoşunu arasında həlledici döyüş Sərab vilayətinin Ərəştaban və Səkəmsaray qəsəbələri arasındakı düzənlikdə, Sınıq körpü adlı yerdə baş verdi. Bu döyüşdə Osmanlı ordusu 15 min qüvvə itirərək ağır məğlubiyyətə uğradı. Döyüşdə üç Osmanlı bəylərbəyi öldürüldü və ikisi də əsir düşdü.[63] Sınıq körpü döyüşündən sonra Xəlil paşanın Ərdəbil üzərinə yürüşə qərar verməsi, tərəflər arasında sülh danışıqlarının bərpa olunmasına səbəb oldu.[64] Şah I Abbas, Osmanlı ordusunun Azərbaycanı talan etməsinin qarşısını almaq məqsədilə Xəlil paşaya 800 qatar dəvə yükü ərzaq göndərdi.[65]

Bu, tərəflər arasında sülh danışıqlarının sürətləndirilməsini təmin etdi. Bəzi tarixçilər Səfəvi-Osmanlı sülhünün 1618-ci il sentyabrın 26-da Sərabda bağlandığını qeyd edir.[66] Ə.Ə. Rəhmani yazır ki, tarixşünaslıqda səhvən Sərab sülhü kimi qeyd olunan Səfəvi-Osmanlı müqaviləsi Mərənddə imzalanmışdı.[67]

1619-cu il sentyabrın 29-da sülhün təsdiqi üçün İstanbula gələn Səfəvi elçisi Yadigar Əli sultana sultan II Osmanın Səfəvi-Osmanlı sülh müqaviləsini təsdiq etməsi barədə Sultanın məktubu təqdim olundu.[68]

Beləliklə, üç il davam edən Səfəvi-Osmanlı müharibəsi başa çatdı və Şah I Abbas Azərbaycan torpaqlarının Osmanlı dövləti tərəfindən işğal edilməsinin qarşısını aldı.

### Mərənd sülhündən sonra Səfəvi-Osmanlı münasibətləri

Mərənd sülhünün imzalanmasından sonra tərəflər aralarındakı etibarı möhkəmləndirmək məqsədi ilə bir-birinə məktublar göndərməkdə davam etdilər. Şah I Abbasın sülhün və dostluğun davam etdirilməsini nəzərdə tutan məktubuna cavabda sərhəddəki hakimlərə Səfəvi sərhədlərinə qəti olaraq müdaxilə və hücum edilməməsi əmr edildiyi, sülhün davamlı olması üçün tərəflərin müqavilə şərtlərinə əməl etməsi xüsusi olaraq vurğulanırdı.[69] Osmanlı sultanı Bağdad və Şəhrizor ətrafında Səfəvilərin nəzarəti altında olan ərazilərin boşaldılması tələbi

---

63 Yenə orada, s.188.
64 Öztüna, **age.**, s. 188; Kılıç, **age.**, s. 172.
65 Öztüna, **age.**, s. 188.
66 Koçu, **age.**, s. 61; Kılıç, **age.**, s. 172.
67 **Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке**, s.82.
68 Kılıç, **age.**, s. 172.
69 Kipeli, **age.**, s. 121.

ilə I Şah Abbasa məktub göndərdi. Məktubu Səfəvi sarayına götürən elçi çavuşbaşı İbrahim Ağa, təxliyə işlərinə nəzarət etməli idi.[70] İsgəndər bəy Münşi bu barədə yazır: "Ale-Osman sülaləsinin mötəbər adamlarından olan düşüncəli, xoşsöhbət İbrahim ağa bizim elçi Yadigar Əli Xülafa ilə gələrək, Qeysər məmlə¬kətlərinin hökmdarı Sultan Osman ibn Sultan Əhməddən məhəbbət məzmunlu bir məktub gətirdi, sədaqətin, dostluğun, sülhün möhkəmlənməsi və birlik danışıqlarının bir daha bərqərar olmasını izhar etdi, sədaqət ölkəsi dərgahının yaxın adamları ilə görüşdü, şah inayəti və padşah iltifatı ilə iftixarlandı, Rum sultanı adından gətirdiyi töhfə və hədiyyələri əlahəzrətin nəzərinə yetirdi. Bu tərəfdən də rəğbətlə dolu bir cavab məktubu yazıldı və keçən il İsfahan daruğasi olmuş Taxta bəy yüzbaşı Ustaclı Rum elçiliyinə təyin edilib, adı çəkilən Rum ağası ilə birlikdə layiqli töhfə və hədiyyələrlə yola rəvan oldu".[71] 1619-cu ilin sonlarında Səfəvi elçisi Nəcəfqulu, I Şah Abbasın sülhü davam etdirmək niyyətini İstanbula çatdırdı.[72]

Bu dövrdə Osmanlı sarayında şahzadələr arasındakı hakimiyyət uğrunda mübarizə, Səfəvi şahına Ərəb İraqında möhkəmlənmək üçün əlverişli şərait yaratdı. Bu zaman Bağdadda baş verən hadisə, Şah I Abbasa bu niyyətini həyata keçirməyə geniş imkanlar verdi. Bağdad bəylərbəyi Yusif paşa ilə şəhərdəki Osmanlı qoşunlarının başçısı Bəkir Subaşı arasındakı ədavət nəticəsində bəylərbəyi öldürüldü və şəhər nəzarət altına alındı. Bağdad bəylərbəyiliyinin Bəkir Subaşıya verilməməsi və Diyarbəkr hakimi Hafiz Əhməd paşanın Bağdad üzərinə göndərilməsi vəziyyəti daha da gərginləşdirdi. Bu zaman Bəkir Subaşı müqavimət göstərərək şəhəri osmanlılara təslim etmədi. O, yaranmış vəziyyəti nəzərə alaraq Abbas ağanı Bağdada yaxınlaşan Şah I Abbasın yanına göndərdi və bəylərbəyi təyin olunarsa, şəhəri Səfəvilərə təslim edəcəyini bildirdi. Yaranmış vəziyyətdə hadisələri yaxından izləyən Səfəvi şahı Həmədan hakimi Səfiqulu xanı 300 nəfərlik heyətlə Bağdada göndərdi.[73]

Dərviş Mehmed ağanın qala qapılarını qızılbaşların üzünə açması nəticəsində Bağdad şəhəri 1624-cü ilin 12 yanvarında Səfəvi ordusu tərəfindən ələ keçirildi. Şah Abbas "atasına xəyanət edən mərhə mətsiz kafirin mənə nə xeyri olacaq" deyərək Dərviş Mehmed ağanı vali təyin etməkdən imtina etdi. O, Xorasana

---

70 Yenə orada.

71 İsgəndər bəy, **age.**, s. 1686-1687.

72 Küpeli, **age.**, s. 121.

73 Öztuna, **age.**, s. 46.

sürgün edildi. Lakin, yolda qaçmağa cəhd etdiyi üçün öldürüldü. I Şah Abbas Səfiqulu xanı Bağdada vali təyin edərək Kərbəla istiqamətində hərəkət etdi. Səfəvi ordusu tərəfindən öncə Kərbəla, ardınca isə Mosul və Kərkük ələ keçirildi.

Bağdad uğrunda 1624-1626-cı illər növbəti Səfəvi-Osmanlı müharibəsi Şah I Abbasın qələbəsi ilə başa çatdı. Bu zaman Şah I Abbas IV Muradın taxta çıxmasını təbrik etmək məqsədilə İstanbula elçi göndərmiş və Bağdadın Səfəvilərin hakimiyyəti altında qalmasına çalışmışdı. Sultan sülhün Səfəvi şahı tərəfindən pozulduğunu və baş vəzir Xəlil paşanın güclü bir ordu ilə Bağdadı geri almaq üçün yürüş edəcəyini bildirmişdi. IV Murad Moğol hökmdarı Cahangir şaha və Özbək hökmdarı İmamqulu xana məktub göndərərək onların Səfəvi şahına qarşı savaşa qatılmalarını istəmişdi.[74]

Xəlil paşanın rəhbərliyi altında Osmanlı ordusu gözlənilən nəticəni əldə edə bilmədiyi üçün orduya rəhbərlik Xosrov paşaya tapşırıldı. Bu zaman Şah I Abbas yaranmış vəziyyətdən faydalanaraq Bağdadın tutulmasını yenidən rəsmi şəkildə təsdiq etdirmək istədi. 1628-ci ilin martında bu məqsədlə şahın elçisi Təhmasibqulu xan İstanbula göndərildi. O, Bağdadın Səfəvi dövlətində qalması şərti ilə sülh bağlanmasını Osmanlı sultanına təklif etdi. IV Murad şahın bu təklifini qəbul etmədi.[75] Buna baxmayaraq, Şah I Abbas hərbi əməliyyatlar nəticəsində ələ keçirilmiş əraziləri Səfəvi dövlətinin tərkibində saxlamağa nail oldu. Şah I Abbas 1629-cu il 19 yanvarda ölən zaman bütün Azərbaycan torpaqları, Axalsik daxil olmaqla Şərqi Gürcüstan və Ərəb İraqı Səfəvilərin hakimiyyəti altında qalmışdı. Lakin Osmanlı sultanı Bağdadı geri almağa qərarlı idi və bunun üçün ciddi hazırlıq görmüşdü. Şah I Abbasın ölümü və nəvəsi şah Səfinin hakimiyyətə keçməsi hərbi əməliyyatların yenidən başlanmasına təkan verdi. Zəkəriyyə Kanakertsi bununla bağlı yazır: “I Şah Abbasın ölümü və hakimiyyətə zəif uşaq olan nəvəsi Səfinin keçdiyini bilən IV Murad ordu toplayaraq Bağdad üzərinə göndərdi”.[76]

## NƏTİCƏ

İstanbul sülhünün bağlanmasından sonra Səfəvi-Osmanlı diplomatik əlaqələrinin təhlili göstərir ki, iki dövlət arasında qarşılıqlı əlaqələrin inkişafına

---

74 M. Saray, R**us işğalı devrində Osmanlı devleti ilə Türkistan Hanlıqları arasındakı siyasi münasibetler, 1775-1875**, İstanbul 1984, s. 9.

75 Öztuna, **age.**, s. 83.

76 **Закарий Канакерци. Хроника,** Пер. с. арм. М.О.Дарбинян-Меликян. Москва, 1989, s. 84.

daxili və xarici amillər öz təsirini göstərmişdi. Sülhə görə müəyyən edilən sərhədlərin dəqiqləşdirilməsi, Gilan məsələsi, İstanbulda girov saxlanılan Səfəvi şahzadəsi Heydər Mirzə ilə bağlı məsələlər qarşılıqlı diplomatik əlaqələri gücləndirdiyi kimi, Səfəvi dövlətinin Şeybanilərlə, Osmanlı dövlətinin də Avstriya ilə müharibə vəziyyətində olması Səfəvi-Osmanlı diplomatik əlaqələrinin inkişafına mühüm təsir göstərdi.

XVI əsrin sonunda I Şah Abbasın həyata keçirdiyi hərbi islahatlar nəticəsində mərkəzi hakimiyyətdən asılı olan və odlu silahlarla təchiz edilmiş güclü nizami ordu yaradıldı. Ölkə daxilində siyasi sabitlik bərpa olundu. Səfəvi dövləti iqtisadi və hərbi cəhətdən möhkəmləndi. I Şah Abbas Səfəvi dövlətinin tarixi sərhədlərini bərpa etmək, xüsusilə dövlət üçün böyük iqtisadi əhəmiyyəti olan Azərbaycan ərazisini Osmanlı işğalından azad etmək üçün müharibəyə ciddi hazırlıq gördü. Onun keçirdiyi bütün islahatlar Osmanlı dövlətinin məğlub edilməsi siyasəti ilə sıx bağlı idi.

Şah I Abbas dövründə Səfəvi imperiyasının Osmanlı imperiyası ilə münasibətləri aktual xarakter daşımışdı. Səfəvi şahı Osmanlı imperiyasına qarşı həyata keçirdiyi uğurlu siyasət nəticəsində itirilmiş torpaqları azad edərək Səfəvi imperiyasının ərazi bütövlüyünü bərpa etdi.

Şah I Abbas dövründə Səfəvi-Osmanlı münasibətlərindəki bütün gərginliyə, tərəflər arasında baş verən hərbi əməliyyatlara baxmayaraq, iki dövlət arasında diplomatik əlaqələr kəsilməmiş, elçi mübadiləsi qarşılıqlı olaraq davam etdirilmişdi.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT:

**A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17 and the 18 centuries**, Editor H. Chick, İntroduction Rudi 513. C in 2 volumes.Vol.1, London: 2012.

Aydoğmuşoğlu, C., **I Şah Abbas ve zamanı (1587-1629)**, Berikan Yayınevi, Ankara 2013.

**Azərbaycan tarixi**, Yeddi cilddə, üçüncü cild, Bakı 1999, s. 259.

Çezar; M., Sertoğlu, M., **Müfassal Osmanlı tarihi**, c. 3, İstanbul 1956.

Danişmend, İ. H., **İzahlı Osmanlı tarihi kronolojisi**, c. III, Yeni Matbaa, İstanbul 1965.

De Salignac, J. B., **L`abassade en Turquie 1605-1610**, correspondences diplomatiques et documents inedits. Vol. 2, Paris 1889.

İsgəndər bəy Münşi, **Dünyanı bəzəyən Abbasın tarixi**, Fars dilindən çevirən: Ş.F. Fərzəliyev t.e.d., prof., I Kitab, Bakı 2010.

İsgəndər bəy Münşi, **Dünyanı Bəzəyən Abbasın tarixi**, II Kitab, Fars dilindən çevirən: t.e.d., prof. Ş.F. Fərzəliyev, Bakı 2014.

Kılıç, R., **XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran Siyasi Antlaşmaları**, Tez Yayınları, İstanbul 2001.

Kılıç, R., "Osmanlılar ilə Safeviler arasında Nasux Paşa (1612) ve Serav (1618) Andlaşmaları", **Niğde Üniversitesi Eğitim Fakültesi Eğitim ve Bilim Dergisi**, Sayı 2, Niğde 2003, s. 124-134.

Kırzıoğlu, F., **Osmanlıların Kafkas Ellerini Fethi (1450-1590)**, Türk Tarih Kurumu Basımevi, Ankara 1976.

Koçu, E. R., **Osmanlı Muahedeleri ve Kapitülasyonlar**, İstanbul 1934.

Küpeli, Ö., **Osmanlı-Safevi münasebetleri (1612-1639)**, Yeditepe Yayınevi, İstanbul 2014.

Kütükoğlu, B., **Osmanlı-İran siyasi münasibətləri (1578-1612)**, Özal Matbaası, İstanbul 1993.

Qazi Əhməd Qumi, **Xülasatüt-təvarix**, Hans Müller nşr., Wiesbaden 1964.

Məmmədova, Ş., "Xülasət ət-təvarix", **Azərbaycan tarixinin mənbəyi kimi**, Elm, Bakı 1991.

Nəcəfli, T.H., **Səfəvi-Osmanlı münasibətləri**, Turxan NPB, Bakı 2014.

Nəcəfli, T.H., **Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti**, Turxan, Bakı 2020.

Öztüna, Y., **Başlangıcından Zamanımıza Kadar Türkiye Tarihi**, c. 8, Ankara 1965.

Öztuna, Y., **Başlangıcından zamanımıza kadar Türkiye tarihi**, c. 9, Ankara 1966.

**Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке**, Баку, 1981.

**Saray M. Rus işğalı devrində Osmanlı devleti ilə Türkistan Hanlıqları arasındakı siyasi münasibetler, 1775-1875**, İstanbul 1984.

Selaniki, M., **Tarih-i Selaniki**, Haz. Mehmet İpşirli, İstanbul 1989.

Sümer, F., "Abbas I", **İslam Ansiklopedisi**, T.D.V. Yayınları, c. I, İstanbul 1988, s. 17-19.

Sümer, F., **Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu**, Ankara 1992.

**Сванидзе М.Х. Турецко-Иранские отношения в начале XVII в. И Грузия.** // Проблемы истории Турции. М., 1978, с. 18-33.

**Шараф хан Бидлиси. Шараф-наме**, т. 2. Перевод, предис., прим., прил. Е.И.Васильевой. Москва, 1976.

Uzunçarşılı, İ.H., **Osmanlı tarihi**, c. III/1, TTK Basımevi, 1988.

**Закарий Канакерци. Хроника**, Пер. с. арм. М.О.Дарбинян-Меликян. Москва, 1989.

# AZERBAYCAN HANLIKLARI - OSMANLI İLİŞKİLERİ (TARİH, SONUÇLAR, YENİ BAKIŞ)

GÜNTEKİN NECEFLİ*

## ÖZET

Azerbaycan Hanlıklarının kurulduğu tarihten itibaren Osmanlı devleti ile özel ilişkileri olmuştur. Bu ilişkilerin kurulmasındaki ana faktörlerden biri dönemin uluslararası durumuydu. O dönemde hızla gelişen Çarlık Rusyası'nın ham madde ve satış pazarına olan ihtiyacı ve aynı zamanda Azerbaycan'ın stratejik ve coğrafi konumu, Rusya'yı bölgeyi ele geçirmeye sevk etti. Azerbaycan Hanlıkları arasında devam eden anlaşmazlıklar Rusya'nın Güney Kafkasya'da güçlenme planına uygun olsa da bu durum Osmanlı Türkiyesini ciddi şekilde rahatsız ediyordu. 18. yüzyılın ikinci yarısında, Güney Kafkasya'da çatışan çıkarları olan Rusya ve Osmanlı İmparatorluğu arasındaki ilişkiler daha da gerginleşti. Bu çelişkiler çoğu zaman Azerbaycan Hanlıklarını bağımsız bir dış politika izleme fırsatından mahrum etti. Bu nedenle Volga-Hazar transit su yolu ile bağlanan hanlıklar sıklıkla Rusya ile, ülkenin batı ve güneybatı kesiminde yer alan hanlıklar ise Osmanlı devleti ile sık sık temas halindeydiler.

**Anahtar Kelimeler**: Azerbaycan Hanlıkları, Osmanlı Devleti, Çarlık Rusyası, Güney Kafkasya

* Doç., Dr., Azerbaycan Millî İlimler Akademisi, Tarih ve Etnoloji Enstitüsü, guntekin.cemil@gmail.com.

# RELATIONS OF THE AZERBAIJAN KHANATES AND THE OTTOMAN (HISTORY, RESULTS, A NEW VIEW)

## ABSTRACT

From the time of its establishment, the relations between the Azerbaijan khanates and the Ottoman state has been of special importance. One of the main factors in the establishment of these relations was the international situation of the time. At that time, the rapidly developing needs of tsarist Russia in the market of raw materials and sales, as well as the strategic and geographical position of Azerbaijan, prompted Russia to seize the region. Although the ongoing conflicts between the Azerbaijan khanates were in line with Russia's plan to consolidate itself in the South Caucasus, the Ottoman Turkey was seriously concerned. In the second half of the 18th century, relations between Russia and the Ottoman Empire, which had conflicting interests in the South Caucasus region were intensified. These contradictions often deprived the Azerbaijan khanates of the opportunity to pursue an independent foreign policy. Just for this reason, the khanates connected by the Volga-Caspian transit waterway often had relations with Russia, and the khanates in the western and south-western parts of the country often had relations with the Ottoman state.

**Keywords**: Azerbaijan Khanates, Ottoman State, Tsarist Russia, South Caucasus

## Giriş

Azərbaycan sovet, eləcə də sovet dövrü tarixşünaslığında Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərinə müxtəlif yanaşmalar olmuşdur. Bu münasibətlərdən bəhs olunarkən Osmanlı işğalçı bir dövlət kimi qeyd olunub və əsas fikir belə idi ki, xanlıqlar Rusiyaya meyilli olublar.[1] V.N.Leviatova görə XVIII əsrin sonunda İran və Türkiyə işğalından ən uğurlu çıxış yolu Rusiyaya birləşmək idi.[2] İran və ya Türkiyə istənilən vaxt öz qüvvələrini bu zəngin diyara yönəldə bilərdi.[3] Lakin ilkin mənbələr olan Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin (BOA) Xətti-Humayun sənədlərinə əsasən belə demək olar ki, bu yanlış yanaşma olub. Əlbəttə hər bir dövlətin xüsusi ilə böyük imperiyaların özünün maraqları öndə gəlir və bu da təbiidir. Bu baxımdan Osmanlı imperiyası Qafqaz regionunda öz nüfuzunu genişləndirmək üçün xanlıqlarla münasibətlərə xüsusi diqqət yetirirdi.

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərinin qurulması, bölgənin Osmanlı dövləti ilə sərhədində yerləşən xanlıqların bu dövlətlə daha sıx münasibətlər yaratmağa çalışması, XVIII ərin 80-ci illərindən başlayaraq bu münasibətlərin daha intensivləşməsi, Osmanlı dövləti tərəfindən Cənubi Qafqaza yönələn rus-gürcü hərbi ittifaqına qarşı Azərbaycan xanları və Dağıstan hakimləri birliyinin yaradılması təşəbbüsləri və s. bir sıra məsələlər vətən tarixşünaslığında yalnız müstəqillik illərində tədqiqat obyekti olmuşdur.[4]

Ötən əsrin 90-cı illərinin əvvəlində Türkiyədə nəşr edilmiş arxiv sənədləri Azərbaycan xanlıqları ilə Osmanlı Türkiyəsi arasındakı siyasi əlaqələri öyrənmək üçün qiymətli mənbədir. Bunlar əsasən Osmanlı dövləti ilə Azərbaycan xanlıqlarının əlaqəsinə həsr olunmuş xüsusi arxiv sənədləri toplusu kimi nəşr olunmuşdur.[5] Osmanlı Dövlət Başbakanlıq Arxivinin və Osmanlı

---

1 Bax: **Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией**. Баку, издательство АН Азерб.ССР,1965.

2 Bax: **Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII в.** Баку, издательство АН Азерб.ССР, 1948.

3 Bax: **Алиев Ф.М. Азербайджано-Русские отношения (XV-XIX вв.)** Баку, ч. I, Элм, 1985.

4 Bax: **Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı).** Bakı, Nurlan, 2002; **Mustafazadə T. XVIII yuzillik - XIX yuzilliyin əvvəllərində Osmanlı Azərbaycan munasibətləri.** Bakı, Elm, 2002.

5 Bax: **Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasıbetlere Dair Arşiv Belgelerı**. Cilt I, (1578-1914), Ankara, 1992; Çilt II, (1575-1918), Ankara, 1993; **Osmanlı Devleti ile Kafkasya, Türküstan ve Kırım Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri.** Ankara, 1992.

Arxiv Dairəsi Bakanlığının hazırladığı bu kitablarda Azərbaycan xanlıqlarının yarandığı dövrdən Rusiya imperiyası tərəfindən işğalınadək olan dövrdə Osmanlı dövləti ilə münasibətləri açıqlanmışdır. Burada toplanan sənədlər əsasən müasir dövrdə Türkiyə dövlət arxivlərində saxlanılan "Mühimmə dəftərləri", "Hatti-Humayun dəftərləri", "Topkapı Saray Arşivi"ndəki qiymətli mənbələrə əsasən hazırlanmışdır. Bu sənədlər içərisində Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə yazışmaları, Osmanlı sultanının Azərbaycan xanlarına göndərdiyi fərmanlar, Rusiya və İranın Azərbaycana olan təcavüzü ilə bağlı olaraq Osmanlı sərhəd mühafizəçilərinin öz dövlətlərinə göndərdikləri rəsmi yazılar öz əksini tapmışdır.

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərini dərindən öyrənmək üçün Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı arxivinin "Hatt-i Hümayun tesnifi belgeleri" fondunda qorunub saxlanan sənədlər olduqca böyük əhəmiyyət kəsb edir. AMEA Tarix İnstitutunda Azərbaycan tarixinin ilkin qaynaqlarının toplanması üçün 2009-2017-ci illərdə həyata keçirilən "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi nəticəsində müxtəlif xarici ölkələr, o cümlədən Türkiyə Cumhuriyəti "Baş Bakanlık Arşivi"nə məxsus qiymətli sənədlər əldə edilmişdir. Bu sənədlər iki cildlik toplusu şəklində işıq üzü görmüşdür.[6]

**Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərinin qurulması**

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətləri onların öz müstəqilliyini qoruyub saxlamaq uğrunda apardığı mübarizənin tərkib hissəsi idi. Bu münasibətlərin yaranmasında başlıca amillərdən biri dövrün beynəlxalq vəziyyəti idi. Həmin dövrdə sürətlə inkişaf edən Rusiyanın xammal və satış bazarına olan ehtiyacı və eyni zamanda Azərbaycanın strateji-coğrafi mövqeyi və onun Şərq ölkələri ilə aparılan ticarətdə oynadığı rolu Rusiyanı Xəzərsahili vilayətləri ələ keçirməyə sövq edirdi. Azərbaycan xanlıqları arasında davam edən çəkişmələr Rusiyanın Cənubi Qafqazda möhkəmlənmək planına uyğun gəlsə də Osmanlı Türkiyəsini ciddi narahat edirdi. Əvvəlki qüdrətini itirmiş Osmanlı imperiyası Rusiyanın işğalçılıq planlarını Azərbaycan xanlıqlarının köməyi ilə dayandırmaq niyyətində idi.

---

6 Bax: **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild. Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. Bakı, Çaşıoğlu, 2010; **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** II cild. Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. Bakı, Çaşıoğlu, 2012.

XVIII əsrin II yarısında Cənubi Qafqaz regionunda mənafeləri toqquşan Rusiya və Osmanlı imperiyaları arasındakı münasibətlər daha da kəskinləşdi. Bu ziddiyyətlər çox vaxt Azərbaycan xanlıqlarını müstəqil xarici siyasət yeritmək imkanından məhrum edirdi. Məhz bu səbəbdən Volqa-Xəzər tranzit su yolu ilə bağlı olan xanlıqlar Rusiya ilə, ölkənin Qərb və Cənub-Qərb hissəsində yerləşən xanlıqlar isə çox zaman Osmanlı dövləti ilə münasibətdə olurdular.[7]

Qeyd edilən dövrdə Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərində iki mərhələ nəzərə çarpır:

> I. 1747-ci ildən-1783-cü il Georgiyevsk müqaviləsinin bağlanmasına qədərki dövr; II. Georgiyevsk müqaviləsinin bağlanmasından XVIII əsrin sonlarına qədərki dövr.

Azərbaycan xanlıqlarının yarandığı dövrdən başlayaraq Osmanlı dövləti ilə xüsusi əhəmiyyətli münasibətləri olmuşdu. Hələ Nadir şahın sağlığında ona qarşı mübarizəyə başlamış şəkili Hacı Çələbi xan bu mübarizədə Osmanlı dövlətindən yardım istəmişdi. Nadir şahın ölümündən sonra isə ölkədəki qarışıqlıqların artığı üçün başda şəkili Hacı Çələbi xan olmaqla digər Azərbaycan xanları – gəncəli Şahverdi xan, şamaxılı Məhəmmədsəid xan, qarabağlı İbrahimxəlil xan, naxçıvanlı Cəfərqulu xan və b. özlərinə arxa yaratmaq məqsədilə Osmanlı dövləti ilə diplomatik əlaqələr saxlamışlar.[8]

**İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətləri**

XVIII əsrin II yarısında İrəvan xanlığı ilə Osmanlı imperiyası arasındakı sıx siyasi münasibətlər mövcud idi. Xətti Humayun sənədlərinə nəzər saldıqda görürük ki, yenicə yaranmış İrəvan xanlığı gürcü çarı II İrakli və onu himayə edən çar Rusiyasının təcavüzkar siyasətinə qarşı Osmanlı imperiyası ilə siyasi münasibətlərini gücləndirməyə çalışırdı. Osmanlı dövləti də eyni zamanda İrəvan xanlığının, eləcədə regionun vəziyyəti ilə yaxından maraqlanırdı. Belə ki, 1749-cu il tarixində aid HH 6/205 sayli bir sənəddə Çıldır valisinin Osmanlı Sultanına göndərdiyi məktubda Təbriz tərəfinə göndərilən casusdan əldə olunan məlumatlar və İrəvan xanının məktubunun ələ keçirilməsindən bəhs olunur.[9]

---

7 **Nəcəfli G. Azərbaycan xanlıqlarının..,** s.21.

8 Bax: **Nəcəfli G. Azərbaycan xanlıqlarının**.., s.34.

9 **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild, s.457.

Cənubi Qafqazı bütövlükdə ələ keçirməyə çalışan Rusiya imperiyası Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə yaxınlaşmasına hər vəchlə mane olmağa çalışırdı.[10] Xətti-Humayun sənədlərində II İrakli tərəfindən Osmanlı dövlətinə göndərilən şikayət ərizəsində II İraklinin İrəvana yürüşünün səbəblərinə "aydınlıq" gətirilir, guya bu yürüşdə onun (II İraklinin – red.) heç bir günahının olmadığı, İrəvan xanının hərəkətlərinin qarşısını almağa məcbur olduğu qeyd edilir. Bundan əlavə, həmin sənədlərdə II İraklinin Osmanlı dövlətinə sədaqətli olması və öz nümayəndəsi Əbdülkərimi Osmanlı dövlətinə elçi göndərməsi və s. məlumatlar öz əksini tapmışdır.[11] Sənəddən göründüyü kimi II İrakli müharibənin məsuliyyətini İrəvan xanının üstünə ataraq öz təcavüzkar siyasətini pərdələyirdi. Daha sonra isə Axalsıxlı Süleyman paşanın vasitəçiliyi ilə Hüseynəli xanla II İrakli arasında sülh danışıqlarına başlayır və nəhayət, 1781-ci ilin noyabrında İrəvan xanlığı ilə Kartli-Kaxeti çarlığı arasında sülh müqaviləsi bağlandı. II İrakli ildə 30 min tümən ödənc almaqla Gürcüstana əsir olaraq aparılmış dinc əhalini geri qaytarmağa razılıq verdi.[12]

Kartli-Kaxeti çarı II İrakli daima İrəvan xanlığına məxsus torpaqları ələ keçirməyə can atırdı. Həsənəli xan Qacarın (1755-1759) və Hüseynəli xan Qacarın (1759-1783) dövründə Kartli-Kaxeti çarının İrəvan xanlığına yürüşləri daha da intensivləşdi. 1759-cu ildə baş vermiş yürüş nəticəsində isə xanlıq II İraklinin xəzinəsinə illik bac ödəməyə məcbur oldu.[13] Məlum olduğu kimi bu yürüşlər 1762-1765-ci illərdə yenidən təkrarlanır. İrəvan xanlığı isə bu zaman özünə müttəfiq kimi baxdığı Osmanlı imperiyasına İrəvanda baş vemiş hdisələrlə bağlı məlumat vermək üçün Osmanlı dövlətinin baş vəzirinə ünvanlanmış məktubla İbrahim bəyi 1764-cü ildə İstanbula göndərir.[14] İrəvan xanı Hüseynəli xan Qacarın Qars mühafizi İzzət paşaya göndərdiyi 1775-ci il tarixli məktubunda Osmanlı dövlətinə sədaqətli olduğunu bildirir, həmçinin Rusiyanın Dağıstan ərazisindəki fəaliyyətindən narahat olduğunu çatdırırdı.[15]

---

10 **Mustafazadə T. XVIII yuzillik - XIX yuzilliyin əvvəllərində Osmanlı Azərbaycan**.., s.81.

11 **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild, s.415-413.

12 **İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi**. Bakı, Çaşıoğlu, 2010, s.257; **Бутков П.Г Материалы для новой истории Кафказа с 1722 по 1803 год.** Ч 2. СПб.: 1869, с.75.

13 **İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin..,** s.254-255; **Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в.** Москва, Наука,1966, с.129.

14 **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild, s.449.

15 **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild, s.445-447.

## Qarabağ xanlığının Osmanlı dövləti ilə münasibətləri

Qarabağ xanlığının da xarici siyasətində Osmanlı imperiyası mühüm yer tuturdu. Azərbaycan xanlıqlarını, o cümlədən Qarabağ xanlığını Osmanlı dövləti ilə dil və din birliyindən başqa, əsasən Şimal təhlükəsi daha çox yaxınlaşdırırdı. Arxiv sənədlərindən də aydın olur ki, Osmanlı tərəfi də regionda baş vermiş hadisələri diqqətlə izləyirdi. 1749-cu ilə aid olan sənəddə regiona göndərilən casusun xəbrlərinin alındığına dair məlumatlar vardır.[16] Sultan regiondakı vəziyyəti nəzarətdə saxlamaq üçün öz elçilərini göndərirdi. Sultan III Mustafanın elçiləri 1769-cu ildə Gəncə, Təbriz, Dərbənd, Şuşa və İrəvanda olmuş və sultanın məktublarını yerli hakimlərə çatdırmışlar. Osmanlı hakim dairələri Azərbaycan xanlıqları ilə münasibətdə din birliyini ön plana çəkir və onları kafir ruslara qarşı mübarizəyə çağırırdılar.[17] Osmanlı hökuməti mövcud vəziyyətdə xanlıqla əlaqələr saxlayır və ilkin yardımlarını da göstərirdi. 1771-ci ildə İbrahimxəli xanın adamı Hacı Ağaya xələt, kürük və xərclik verilməsinə haqda məlumat verilir.[18] 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsindən sonra Azərbaycan xanlıqlarına diqqəti artıran Osmanlı hökuməti Rusiya ilə münasibətlərin yenidən kəskinləşəcəyi təqdirdə onlardan istifadə etmək niyyətində idi.[19] Mənbələr də bunu təsdiq edir, beləki, 1776-cı ildə İbrahimxəlil xan Osmanlı hökumətinə yazdığı məktubda qeyd edilir ki, Rusiyaya arxalanan II İrakli Azərbaycan sərhədlərinə hücum edir, xanların və Dağıstan hakimlərinin bigə çıxışı lazımdır. Bu məsələdə isə sərhədyanı Osmanlı qüvvələrinin köməyi lazımdır.[20] 1776-cı Qarabağ xanı İbrahimxəlil xan (1763-1806) öz sədaqətli vəziri Molla Həsəni Türkiyə sultanının yanına göndərərək ona bildirirdi: *"Mərhəmətli sultanım, əgər sizdən gözlədiyimiz köməyi alsaq biz düşmənlərimizi məhv edərik"*.[21] Sənəndlərdən də aydın olur ki, Sultan regionun müsəlman dövlətlərinin birləşməsini istəyirdi: Ən bəyənilənі müsəlmanların əl ələ verib bir birinə kömək etmələridir. Və bir daha ərzimiz odur ki, dövlətli Şəki xanı Şirvan və Qarabağ sərkərdələri, Alicanlı Məhməd Səid xan və İbrahim xan və Ağası xan və başqaları sol tərəf kafirlərdən gələn əsgər və təhlükəyə qarşı birlikdə kömək edəsiz. Belə etsəniz İnşallah təala fayadasız və

---

16 **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild, s.457. tekrarlanan eserlerde age/agm vb

17 **Mustafazadə T. Qarabağ xanlığı.** Bakı, Sabah, 2009, s.140.

18 **Osmanlı sənədlərində Qarabağ.** Bakı, "Şərq-Qərb", 2011, s.95.

19 **Mustafazadə T. XVIII yuzillik - XIX yuzilliyin əvvəllərində Osmanlı Azərbaycan**.., s.165.

20 **Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild, s.435-433.

21 **Nəcəfli G. Azərbaycan xanlıqlarının..,** s.37.

qarşılıqsız qalmayacağı bəllidir.[22] Bu məsəldə Osmanlı dövlətinin əsas məqsədi sərhədlərinin təhlükəsizliyini təmin etmək idi, əlbəttə ki, birlikdə çıxış etmək Azərbaycan xanlıqalrı üçün də faydalı ola bilərdi.

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərinin formalaşmasında 1768-1774-cü illərdə baş vermiş Rusiya-Osmanlı savaşı da az pol oynamamışdı. Bu müharibədə Osmanlı dövləti Azərbaycan xanlıqları ilə Cənubi Qafqazın digər müsəlman xalqlarının Rusiya əleyhinə ittifaqını yaratmaq istəyirdi. Lakin hər vasitə ilə bu münasibətlərin qarşısını almağa çalışan Rusiya imperiyasının Azərbaycan ərazisinə təcavüzü gücləndiyi üçün Azərbaycan xanlıqları nəinki bu müharıbədə Osmanlı dövlətinə kömək edə bilmiş, hətta özləri ondan Rusiya təcavüzünə qarşı yardım istəmişlər.

XVIII əsrin 70-80-ci illərində Osmanlı dövlətinin Azərbaycan xanlıqlarını qeyd olunan təcavüzdən yalnız rəsmi şəkildə müdafiə etməyə gücü çatmışdır.

Georgiyevsk müqaviləsinin bağlanmasından sonra Rusiya tərəfindən gizli şəkildə planlaşdırılan siyasətin – *Azərbaycan torpaqlarında, o cümlədən Qarabağ və İrəvan xanlığı ərazisində erməni dövləti yaradılması* siyasətinin həyata keçirilməsi üçün real addımlar atılmağa başlandı. Məhz bu təcavüzkar niyyətin qarşısını almaq üçün bəhs edilən dövrdə Azərbaycan xanlıqlarının xarici siyasətində *aparıcı xətti Osmanlı dövləti* ilə münasibətlər təşkil edir.

Rusiyanın himayəsini qəbul etmiş II İrakli Azərbaycan torpaqlarını ələ keçirmək üçün daha fəal işğalçılıq siyasəti yeritməyə başladı. Kartli-Kaxeti çarının Azərbaycan xanlıqları ilə bağlı təcavüzkar niyyəti Osmanlı dövlətini narahat etməyə bilməzdi. Məhz bu səbəbdən 1784-cü ildə İrəvan, Gəncə, Şəki, Xoy və digər Azərbaycan xanları Osmanlı dövləti ilə münasibətləri gücləndirmişdir. 1785-ci ilin iyununda Qarabağ xanı İbrahimxəlil xan, Şəki xanı Məhəmməd Həsən xan, Quba xanı Fətəli xan İstanbula elçi göndərmişdilər.[23]

Əsrin 80-ci illərinin sonuna doğru Osmanlı dövlətinin Azərbaycan xanlıqları ilə qarşılıqlı münasibətlərində daha çox ehtiyatlı tədbirlərə üstünlük verilmişdir. 1768-1774-cü illər müharibəsində məğlub olan Osmanlı imperiyası Rusiya ilə münasibətlərini kəskinləşdirməkdən çəkindiyi üçün Azərbaycan xanlarının Rusiya təcavüzü qarşısında hərbi kömək üçün etdikləri müraciətlərinə konkret

22 **Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı..**, . Cilt I, s.61.
23 Bax: **Nəcəfli G. Azərbaycan xanlıqlarının**.., s.66.

hərbi kömək göstərə bilməmiş, hadisələrə diplomatik vasitələrlə müdaxilə etməyə çalışmışdır.

## NƏTİCƏ

Göründüyü kimi, Azərbaycan xanlıqlarının yarandığı dövrdən başlayaraq xanlıqların Osmanlı dövləti ilə xüsusi əhəmiyyətli münasibətləri olmuşdur. Bu qarşılıqlı münasibətlər həm xanlıqların daxili vəziyyəti, həm də beynəlxalq hadisələrin təsiri altında tənzimlənirdi. Beləki, Azərbaycan xanlıqları heç kəsdən asılı olmaq istəmir, çox zaman xarici təhlükə qarşısında, bəzən də daxili məsələləri həll etmək üçün Osmanlı dövlətinə müraciət edirdilər. Azərbaycan xanlıqlarını Osmanlı dövləti ilə dil və din birliyi birliyindən başqa, Rusiya təhlükəsi daha çox yaxınlaşdırırdı. Məhz buna görədir ki, Azərbaycan xanlıqları yarandığı dövrdən başlayaraq Türkiyə ilə qarşılıqlı münasibətlər yaratmağa çalışırdılar.

XVIII əsrin ikinci yarısında illərdə başverən hər iki (1768-1774 və 1787-1791-ci illər) Rusiya-Osmanlı savaşları zamanı Azərbaycan xanlıqları ilə Osmanlı dövlətinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb etmişdir. Bu müharibədə həm Rusiya, həm də Osmanlı dövləti Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməyə çalışmışdır. Lakin xanlıqlar arasında Osmanlı dövlətinə meyl güclü olduğundan Rusiya dövləti hər vasitə ilə onlara qarşı təcavüzünü gücləndirmişdir ki xanlıqlar müharibədə Osmanlı dövlətinə kömək etməsin. Bu təcavüz planları əsasən Kartli-Kaxeti çarı II İrakli və Qarabağ xanlığı ərazisində yaşayan, xanlığa xəyanət edən xristian məlikləri vasitəsi ilə həyata keçirilirdi. Nəticədə Azərbaycan xanlıqları Osmanlı dövlətinə konkret hərbi kömək göstərə bilməmişdi.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT:**

**Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией**. Баку, издательство АН Азерб.ССР,1965.

**Алиев Ф.М. Азербайджано-Русские отношения (XV-XIX вв.)** Баку, ч. I, Элм, 1985.

**Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** I cild. Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. Bakı, Çaşıoğlu, 2010.

**Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri).** II cild. Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. Bakı, Çaşıoğlu, 2012.

**Бутков П.Г Материалы для новой истории Кафказа с 1722 по 1803 год.** Ч 2. СПб.: 1869.

**İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi**. Bakı, Çaşıoğlu, 2010.

**Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII в.** Баку, издательство АН Азерб.ССР, 1948.

**Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в.** Москва, Наука,1966.

**Mustafazadə T. XVIII yuzillik - XIX yuzilliyin əvvəllərində Osmanlı Azərbaycan münasibətləri.** Bakı, Elm, 2002.

**Mustafazadə T. Qarabağ xanlığı.** Bakı, Sabah, 2009.

**Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı).** Bakı, Nurlan, 2002.

**Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındaki Münasıbetlere Dair Arşiv Belgelerı**. Cilt I, (1578-1914), Ankara, 1992.

**Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındaki Münasıbetlere Dair Arşiv Belgelerı**. Çilt II, (1575-1918), Ankara, 1993.

**Osmanlı Devleti ile Kafkasya, Türküstan ve Kırım Hanlıkları Arasındaki Münasibetlere Daır Arşiv Belgeleri.** Ankara, 1992.

**Osmanlı sənədlərində Qarabağ.** Bakı, "Şərq-Qərb", 2011.

# 1805’TEN 1822’YE KADAR KARABAĞ HANLIĞI: YALANLAR VE GERÇEKLER

HACI NURU OĞLU HƏSƏNOV*

## ÖZET

Rusya İmparatorluğu 14 Mayıs 1805 taihli Kurakçay Antlaşması ile Karabağ hanlığını ilhak etmiş ve 1805-1822 yılları arasında Azerbaycan'ın eski tarihî bölgesinde ortaya çıkan bir dizi süreçte görev alanını ihlal ettiği görülmüştür. Yazar, hanlığın durumu, yeni sömürgeci otoritelerin izlediği acımasız politika, bu politikanın hedefleri, bu sömürgeci işgalin sonuçlarına dayanarak bölgede kölelik rejiminin yarattığı durum hakkında birtakım gerçekleri ortaya koyarak yeni rejimin yırtıcı ve zalim mizacını ortaya çıkarmaya çalışmaktadır.

**Anahtar Kelimeler**: Karabağ, Azerbaycan, Kurakçay, İşgal, Kolonizasyon, Soygun, Tazminat

* Azerbaycan Millî İlimler Akademisi, hacihasanov@mail.ru.

# KARABAKH KHANATE FROM 1805 TO 1822: LIES AND TRUTH

## ABSTRACT

The Russian Empire annexed the Karabakh khanate with the Treaty of Kurakchay on May 14, 1805, and it was seen that it violated its mandate in a series of processes that occurred in the ancient historical region of Azerbaijan between 1805 and 1822. The author tries to reveal the predatory and cruel nature of the new regime by revealing some facts about the situation of the khanate, the brutal policy followed by the neo-colonial authorities, the goals of this policy, the situation created by the slavery regime in the region based on the results of this colonial occupation.

**Keywords**: Karabakh, Azerbaijan, Kurakcay, Occupation, Colonization, Robbery, Compensation

**Giriş**

Mövcud məqalədə əsas elmi məqsəd Qarabağ xanlığının işğal edilərək Rusiya imperiyasına ilhaq olunmasını rəsmiləşdirmiş Kürəkçay müqaviləsinin imzalanmasından öz rəsmi siyasi təhəddüdlərinə xaincəsinə xilaf çıxmış Rusiya imperiyası tərəfindən bu xanlığın ləğv olunduğu vaxtadək xanlıqda getmiş bir sıra mühüm proseslərə nəzər salmaq, onları dəyərləndirmək, işğalın gedişi və nəticələri haqqında bir sıra əvvəlki və çağdaş tarixşünaslıq mövqe və iddialarına fərqli münasibətin bildirilməsidir.

Araşdırma XIX əsrin əvvəllərindən 30-cu illərin ortalarına qədər olan dövrü əhatə edir. Müəllif bu məqalədə mötəbər qaynaqların obyektiv məlumatlarını elmi iddiaların təməlini qoymaq prinsipini rəhbər tutub.

**Əsas hissə**

**Qarabağın Rusiya tərəfindən işğalı barəsindəki saxtalaşdırmalara ümumi bir baxış**

XIX əsrin ilk sülsündə Quzey Azərbaycanın Rusiya tərkibinə daxil olması, (və ya "könüllü surətdə daxil olması"), bəzi xanlıqların "dinc yolla, müharibə aparmadan" Rusiya himayəsinə keçməsi (Qarabağ, Şəki, Şirvan və s.), hətta bu cür daxilolmanın "mütərəqqi əhəmiyyəti" haqqında keçmiş sovet, elə indiki bəzi postsovet məkanlarının, ilk növbədə də Rusiya Federasiyasının tarixşünaslığında kifayət qədər tarixi gerçəkliyin saxtalaşdırılmasından başqa heç bir şey olmayan saxta "elmi" fərziyyələr kifayət qədər olmuş və olmaqdadır (Bu yerdə Gülüstan müqaviləsinin 150 illik yubileyinin Azərbaycan SSR-də dövlət səviyyəsində "Rusiya tərkibinə könüllü daxilolmanın 150 illik bayram kimi qeyd edilməsini, bu ilhaqın "mütərəqqi nəticələri" barədə böyükhəcmli kitabın nəşrini yada salmaq, düşünürük ki, kifayətdir).

Bu saxta məntiq baxımından Rusiyaya ilk "könüllü" daxil olan Qarabağ xanlığı olmuşdur. Bəzi faktlara nəzər salaq və daxilolmanın "könüllü" dərəcəsini müəyyənləşdirməyə çalışaq:

- əvvəla heç bir zaman heç bir yerdə mütləq hakimiyyətə malik olan hökmdar öz hakimiyyətindən öz xoşu ilə imtina etməyib. Azərbaycan xanları da – İbrahimxəlil Qarabağlı, Səlim Şəkili, Mustafa Şirvanlı, Mirmustafa Lənkəranlı və b. xanlar da belə hakimi – mütləq idilər. Axı niyə onlar bu statusdan əl çəkməli idilər. Düzdür, bu hakimiyyəti bu və ya digər yolla qoruyub saxlamaq məqsədi

ilə dildə, sözdə özgə hökmdarın təbəəliyini qəbul etmək, ondan kömək istəmək hallarını tam istisna etmək olmaz. Konkrüt olaraq Qarabağ xanlığına gəldikdə isə bu "daxilolma" könüllü olsa idi həmin hadisə Gəncə qalasının 1804-cü ilin ilk günlərində Sisianov tərəfindən işğalından dərhal sonra baş verərdi təxminən ilyarım sonra yox, İbrahimxəlil hətta bu hadisədən sonra Gəncə ərazilərinə silahlı-soyğunçu yürüş-səfərlər etməzdi; ilyarım Sisianovdan təhqirlər və hədələr eşitməzdi.

Bu, könüllü olsa idi, İbrahimxəlil xanın doğmaca oğlu Əbülfət ağa əvvəldən axıradək Abbas Mirzənin qoşunlarının tərkibində tanınmış sərkərdə kimi doğma torpaqların qorunması naminə işğalçılarla çırpışmazdı.

İbrahimxəlil xan Qarabağ əsilzadələrinin qəti "yox" qərarına, Qacar qohumlarının hədə və vədlərinə baxmayaraq Sisianovun təzyiqinə məğlub olaraq "Kürəkçay"ı imzalamağa məcbur olanda qohumu Cavad xanın aqibətini, öz varisləri içərisindəki dartışmaları, qüvvələrin son dərəcə qeyri-bərabərliyini, özünün kifayət qədər qoca olduğunu, təbii ki, nəzərə almışdı. Lakin bunlarla yanaşı istər o özü Kürəkçayadək və Kürəkçaydan sonra, istərsə də onun varisi, sonuncu Qarabağ xanı Mehdiqulu heç vaxt Abbas Mirzə və bütövlükdə Qacar rəhbərliyi ilə əlaqələri tam kəsməmişdilər. Elə 1822-ci ildə Mehdiqulu xanı mühacirətə gedərkən məhz Qacarların himayəsinə sığınması təsadüfi deyildi.

Sonuncu Qarabağ xanı özünün təxminən onaltıillik hakimiyyəti dövründə həmişə Rusiya hakimiyyət orqanlarında şübhələr oyatmış, yeni müstəmləkəçilərin ciddi narazıqlarına səbəb olan addımlar atmış, rusiyalı ağaların ondan umduqları gözləntiləri doğrultmamışdı. Məsələn, 1810-cu il sentyabrın 10-da Qafqazdakı Rusiya qoşunlarının baş komandanı, əslində bütün Qafqazın idarəçiliyinin əsl başçısı general Tormasov Mehdiqulu xana 921-saylı məktubunda xandan narazılığını, xanın imperatorun ümidlərini doğrultmadığını açıqdan-açığa bildirirdi: "... deməliyəm ki, bu yaz siz alihəzrət özünüzü İmperator Əlahəzrətlərinin qulluğuna o qədər zəif həsr etdiniz ki, mən sizə öz öhdəliklərinizi xatırlatmağa məcburam. ... Mötəbər şəxslərdən dəfələrlə təəssüflə eşitmişəm ki, siz alihəzrət deyibsiniz ki, Hökmdar İmperator sizdən təzminat alır və Rusiya qoşunları da elə buna görə Qarabağı müdafiə edir....".[1]

1 "Письмо ген. Тормасова к Мехти-Кули-хану, от 15-го сентября 1810 года, №921", АКАК, т. IV, док. 845, с.564-565.

Elə həmin günlərdə general-mayor Nebolsin komandan Tormasova şikayət edirdi ki, Mehdiqulu xan Rusiya qoşunlarını ot-ələflə təchizatı işini aşıqdan-açığa pozur və ya ləngidir.[2] Tormasovun xandan narazılıqları bütün 1811-ci il ərzində də dəfələrlə bəyan edilmişdi.[3]

Elə Kürəkçay müqaviləsinə əsasən Rusiya xəzinəsinə Qarabağ xanlığı tərəfindən ödənilməli olan təzminat üzrə “borcların” əmələ gəlib sürətlə “şişməsi” də müstəmləkəçilərə passiv müqavimətin təzahürlərindən biri idi. 1812-ci il iyunun 5-də general Kotlyarevski Ağoğlandakı düşərgəsindən baş komandan general Rtişşevə ünvanladığı 303 saylı raportunda bildirirdi ki, “sabiq Qarabağ hakimi İbrahim xanla bağlanılmış traktata görə, o, Qarabağ xanlığından (Rusiya] xəzinəsinə [hər il] 8 min çervon təzminat ödəməli idi; cariilədək həmin təzminat üzrə 17 min çervon borc yığılıb...”.[4]

Doğrusu, hələ Paskeviçin baş komandanlığı dövründə sonuncunun xahişi ilə I Aleksandr Qarabağ xanlığından təzminatın alınmasının 6 illiyə təxirə salınmasına icazə verilmişdir.[5] Amma həmin müddətin başa çatmasına baxmayaraq vəziyyət kökündən dəyişmişdi, durum elə idi ki, 17 min çervonluq təzminat qalığı bir yana, hətta hər hansı vergi yığımı (nəinki 17 min çervonluq təzminat qalığı, ümumiyyətlə hər hansı vergi yığımı) mümkünsüz hala gəlmişdi. Kotlyarevski həmin raportunda yazırdı ki, “Qarabağ son illərdə ... 5 min ailəni, demək olar ki, bütün əhalisinin yarısını itirib; qalanları da elə müflisləşmişdi ki, general təzminat yığılmasını daha 5, heç olmasa 3 illiyə təxirə salınmasını rica edirdi. General yazırdı ki, əks halda qalan sakinlər də hər şeyi itirəcək, xaricə qaçacaqlar və onda “Qarabağ tamamilə boş bir çöl olaraq qalacaqdır”.[6]

Faktiki olaraq vergilərin yığılmaması, sakinlərin qaçıb dağılması da müstəmləkəçilərə qarşı passiv mübarizə və müqavimətin geniş yayılmış bir forması idi.

---

2 “Рапорт ген.-м. Небольсина ген. Тормасову от 18-го сентября 1810 года, № 317. Лагерь при канале Арасбар”, **age.**, док. 846, с.565.

3 “Письмо ген. Тормасова к Мехти-Кули-хану, от 29-го апреля 1811 года, №408, №413”, **age.**, док. 856, 857, с.570-571.

4 “Рапорт ген.-м. Котляревского ген. Ртищеву, от 5-го июня 1812 года, №303. Лагерь при р. Аг-оглан”, АКАК, т. V, док. 690, с.577.

5 **age.**, s.577.

6 **age.**,s.577.

Yenə həmin Kotlyarevski özünün Rtişşevə növbəti raportlarından birində - 1812-ci il sentyabrın 30-da yazırdı ki, baş komandanın göstərişinə əsasən Qarabağın vəziyyəti barədə toplanmış məlumatlara görə Kürəkçay müqaviləsi imzalanan dövrdə Qarabağda 10000 ailə, 1808-ci ildə 7474 ailə yaşamışdır. 1806-1812-ci illərdə buradan 4845 ailə ya Qacar qoşunlarına qoşulub getmiş və ya özləri qaçmışdılar. 1812-ci ildə bu xanlıqda 3080 ailə qalmışdı.[7]

Müstımləkəçilərin bütün cəhdlərinə baxmayaraq müharibələr dövründə nə kütləvi mühacirətin qarşısını almaq, nə də təzminatı bütövlüklə toplamaq mümkün olmuşdu. Mötəbər qaynaqların məlumatına görə, 1806-1816-cı illərdə çar xəzinəsinə Mehdiqulu xan 30808 çervon və 1.5 rubl gümüş pul, habelə 11683 çervon və 36,5 gümüş qəpiklik ərzaq; Xanlar ağa 1376 çervon və 398 çervon, 2,20 gümüş rublluq ərzaq; iki qardaş birlikdə cəmisi 44266 çervon və 61 gümüş qəpik ödəmişdilər.[8]

Bir neçə ay sonra, 1817-ci ilin martında Qafqazın yeni ağası – məşhur general Yermolov çara raportunda yazırdı ki, Qarabağ xanlığı 1806-1817-ci illərdə çar xəzinəsinə ödəməli olduğu 88000 çervon təzminatın ancaq 53128 çervonun ödəyib və 34872 çervon "borcu" var.[9] Yermolov müharibə dövründə Qarabağın məruz qaldığı bəlaları nəzərə alaraq bu "borcu" bağışlamağı çardan xahiş edirdi. Əslində general bu borcun yığılmasının qeyri-mümkünlüyünü yaxşı başa düşdüyündən bu addımı atırdı: 1805-1812-ci illər ərzində xanlığın əhalisi 3 dəfə azalmış, 10000 ailədən 3080 ailəyə enmişdi.[10] Təsadüfi deyildi ki, I Aleksandr dörd aydan sonra – iyulun 4-də generalın bu xahişini nəzərə alıb Qarabağ xanlığının 34832 çervonluq təzminat "borcu"nu "silmək" barədə imperiyanın maliyyə nazirinə hökm verdi.[11] İş o həddə çatmışdı ki, Qarabağın nəinki imtiyazlı təbəqələrinin nümayəndələri – bəylər, ağalar, sultanlar və b. doğma diyarı tərk edirdilər, hətta formal olaraq burada xanlığın başında duran

7 "Рапорт ген.-м. Котляревского ген. Ртищеву, от 30-го сентября 1812 года, № 672, Лагерь при р. Кура-чай", **age.**, док. 696, с.579.

8 "Отчет о состоянии Карабагского ханства, от 28-го июня 1816 года, №60", **age.**, док. 707, с. 589.

9 "Всеподданнейший рапорт ген. Ермолова, от 4-го марта 1817 года, №32", АКАК, т. VI, ч. I, док. 1265, с. 836.

10 **Age.**, s.836.

11 "Высочайшее повеление министру финансов от 4-го июля 1817 года. – С.-Петербург", **age.**, док. 1266, с.836-837.

xan nəslinin nümayəndələri belə Rusiyanın müstəmləkəçi əsarətindən yaxa qurtarmağın yeganə yolunu mühacirətdə görürdülər. Məsələn, vaxtilə öz yalançı donosları ilə babasının Lisaneviçin başçılığı altında öldürülməsi ərəfəsində rus hakimiyyət orqanlarının əlinə çoxlu dəstəvuz vermiş Cəfərqulu ağa 1812-ci ildə,[12] onun əmisi Əbülfəz ağa çox-çox əvvəl Qacarların himayəsi və müdafiəsi altında sığınmışdılar.

### Qarabağın işğalı və məlikliklər

Qarabağın xristian alban məlikləri xanlığın həyatında həmişə olduğu kimi, XVIII əsrin sonlarında da təxribatçı – xəyanətkar hərəkət xəttini davam elətdirir, dövlətin siyasi sabitliyinin pozulmasına can atırdılar. Məsələn, təxminən 1798-ci ildə Gülüstan məliyi Firudin (qaynaqda – Fridon – H.H.) rus çarı I Pavelə (1796-1801) yazırdı ki, “belə 20 il əvvəl qraf Suvorov Həştərxanda olarkən mənim atam Bəylər İosifə yazmışdı və sizin rəhmətlik ananızın adından təklif etmişdi ki, atam təbəələri ilə birlikdə Rusiya təbəəliyinə keçmək istəsə qəbul olunacaqdır. Atam cavab vermişdi ki, müzəffər Rusiya ordusu buraya gələndə o, bu ordunu öz hesabına saxlayacaq və təbəələri ilə birlikdə çox həvəslə Rusiyaya daxil olacaqdır”.[13]

Sözün doğrusu bir neçə kənddən ibarət məlikliyin rus ekspedisiya korpusunu necə “saxlayacağı” böyük sual altında olsa da hər iki tərəfin təcavüzkar-təxribatçı mövqeləri göz qabağındadır.

Çarizmin əzəli Azərbaycan torpaqlarına qarşı təcavüzkar-müstəmləkəçi niyyətlərini, habelə xristian-alban məliklərinin satqın mövqelərini ilk baxışdanca aşkar edən qaynaqlar, özü də çar məmurlarının əlindən “çıxmış” qaynaqlar saysız-hesabsızdır.

Elə həmin məlik Firudin Bəylərov və onun dayısı (əmisi? – H.H.) Vərəndə məliyi Cəmşid Şahnəzərovun (Rusiyanın “Mosfilm” kinostudiyasının indiki baş direktoru, “Şuşa mənim ulu babalarımın torpağı olub” deyən, amma Qarabağın Azərbaycan torpağı olduğunu etiraf edən Koren Şahnəzərovun ulu babası – H.H.) habelə yüzbaşı Petros Madatovun I Pavelə ünvanlayıb onların köməyinə 12 minlik

12 “Отношение ген. Ермолова к гр. Гурьеву, от 7-го ноября 1822 года, №235”, **age.**, док. 1292, с.844.

13 “Письмо ген.-м. Лазарева ген.-л. Кноррингу, от 15-го декабря 1802 года №599”, АКАК, т. I, док. 831, с.631-632.

rus qoşununun göndərilməsini xahiş etdikləri müraciəti,[14] I Pavelin Qarabağın qaçqın məliklərinə gürcü çarlarının ixtiyarında olan torpaqlarda yerləşdirilmələri barəsindəki 2 və 3 iyun 1799-cu il fərmanlarına,[15] Kartli-Kaxetiya çarı Georginin Loru qalası və mahalının məlik Cümşüdə verilməsi haqqındakı 29 fevral 1800-cü il tarixli fərmanını[16] və b.-na nəzər salmaq kifayətdir.

Sovet tarixşünaslığında, elə indiki bəzi ölkələrin tarixşünaslığında (buna 2017-ci ildə Qarsda keçirilən beynəlxalq konfransda Moskvanın ciddi elmi mərkəzlərinin birini təmsil edən tarixçinin, - Anadolulu qardaşlarımız bu zatı beynəlxalq konfransın rəyasət heyətində əyləşdirib ona plenar iclasda çıxış etmək şərəfi əta etmişdilər, - çıxışından sonra bir daha əmin oldum – H.H.) Şimali Azərbaycanın, o cümlədən də Qarabağ xanlığının Rusiya tərkibinə “daxil olmasından”, bunun “mütərəqqi nəticələrindən” dəm vurur və bu mövqedən çəkilmək istəmirlər. Aşağıda göstərəcəyimiz bir neçə tarixi sənəddə, Rusiyanın rəsmi dairələrinin hələ XIX əsrdə çap etdikləri mötəbər sənədlərdə bu “daxilolma”, “mütərəqqi nəticələr”in arxasında əslində nəyin dayandığını əyani surətdə göstərir:

Sisianovun İbrahim xana 1804-cü il 8 yanvar tarixli məktubu. – Gəncə:

“Çox təəccüblənirəm ki, mən artıq bir aydan çoxdur ki, böyük şöhrətli və basılmaz Rusiya qoşunları ilə buradayam, elə oğlu Hüseynqulu xan və 1500 adamla birlikdə Rusiya süngüsündən həlak olmuş Cavad xan Gəncəlinin inadkarlığı və dəliqanlığı üzündən qalanın hücumla alınmasından artıq 6 gün keçib, siz belə yaxın qonşuluqda olduğunuz və güclünün himayəsini axtarmalı olduğunuz halda, mənə təbrik göndərmirsiniz. Cavad xanın vüqarlılığı qanla yuyuldu... Mən ümid edirəm ki, ona oxşamağa çalışmayacaq və belə bir ümumi qaydaya əməl edəcəksiniz ki, zəif güclüyə ram olur və onunla bəhsə girməyi arzulamır. ...”

Məktubun sonunda Sisianov Cəmşid məliyin İbrahim xanın əlində olan oğlu Bəhramın və nəvəsi Asaturu ruslara təhvil verməyi, Gəncədən aparılmış mal-

---

14 “Письмо армянских меликов Джимшида Варандинского и Фридона Гулистанского к Е.И.В”, **age.**, док. 872, с.632.

15 “Грамота Е.И.В. армянским меликам (по большом титуле)”, **age.**, док. 875; Грамота к Карталинскому и Кахетинскому царю Георгию (по меньшом титуле)”, **age.**, док. 876, с.635-636.

16 “Грамота е.в. царя Грузинского мелику Джимшиду, от 29-го февраля 1800 года (подлинника не оказалось)”, **age.**, док. 877, s.637.

qaranı qaytarmağı, xanlığın Rusiyaya daxil edilməsi şərtlərini müzakirə etmək üçün nümayəndə və ya xan uşağının göndərilməsini tələb edirdi”.[17]

Təxminən bir ay sonra, fevralı 4-də Sisianov xana məktubunda İbrahim xanın onun yanına Mirzə Məmmədəli vasitəsi ilə möhürsüz məktub göndərilməsindən, Qarabağ hökmdarının Rusiyaya tabe olmağa tələsmədiyindən qəzəblənərək yazırdı: “sənin şifahi ismarıcını da, Mirzə Məmmədəliyə verdiyiniz möhürsüz və imzasız tövsiyyələrinizi qəbul etmirəm və siz belə Persiya siyasətinizi Cavad xan kimi öz qanınızla ödəyəcəksiniz.... Dünyada heç eşidilibmi ki, milçək qartalla danışıqlar aparsın; güclüyə əmr etmək [hüququ] xüsusiyyəti məxsusdur, zəif isə güclüyə itaət etmək üçün doğulubdur...

Sizi təbəəliyə (o mənə lazım deyil) yox, tövbəyə çağırıram və sağ və dinc qalmaq istəyirsinizsə bu məktubda tələb etdiyimi yerinə yetirin...”.[18]

Burada Qarabağdan ildə 10 min çervon[19] təzminat tələb edən Sisianov payızda iştahını bir qədər “bassa”da (8 min çervona razılaşırdı)[20] başqa ağır tələblərindən imtina etmir, xanı hədələməkdə davam edirdi.

### Kürəkçay müqaviləsi və saxtalaşdırmalar

Erməni siyasətbazları və onların havadarlarının, xüsusən də Rusiyadan olan havadarlarının “Qarabağ Ermənistandır” kimi saxta və çox geniş yayılmış iddialarına cavab olaraq bu xanlığın Rusiyaya ilhaqını rəsmiləşdirmiş 14 may 1805-ci il tarixli Kürəkçay müqaviləsinə, onun ətrafında getmiş prosesləri əks etdirən sənədlərə nəzər salmaq kifayətdir. Əvvəla, bu müqavilə Azərbaycan torpağında, Gəncədən 3 ağac aralı Kürəkçay çayının sahilində imzalanıb;[21] dübarə, onu Sisianovla birlikdə imzalayan “Şuşalı və Qarabağlı İbrahim xan” idi, hansısa Vartazart yox;[22] saniyən, Sisianovun özü tərəfindən “Azərbaycanın

---

17 “Письмо кн. Цицианова к Ибрагим-хану, от 8-го января 1804 года, Гянджа”, АКАК, т. II, док. 1416, с.696.

18 “Письмо кн. Цицианова к Ибрагим-хану, от 4-го февраля 1804 года, №79”, **age.**, док. 1417, с.696.

19 **Age.**, s.696.

